Həyat İşığı

Patrisiya St. Con

Həyat İşığı

Patrisiya St. Con

"Don and Evey Heckman wish to give thanks to Jesus Christ and many faithful friends for their generosity. Living Word Paris and others with unreached people group eyes have prayed for the completion of this book, which is a gift from the Lord to you. As you read this, please know that we are praying for you."

İlk dəfə ingilis dilində
Star of Light by Scripture Union
kimi, nəşr olunmuşdur.
Scripture Union, 207-209 Queensway, Bletchley, Milton Keynes, MK2 2EB
Müəlliflik hüququ U 1953 Patrisiya St. Cona məxsusdur.

Published originally as
Star of Light by Patricia St. John.
© 1953 Scripture Union.

© 1999 for the Azeri edition.
Translated by permission. All rights reserved.

I fəsil

Bir yaz günortası balaca qızcığaz keçi kimi yarğanlardan tullanaraq, dağlardan hoppana-hoppana üzüaşağı qaçırdı. Aşağıda çaybasar çəmənlikdə çay sahili boyunca alma ağacları çiçəklənmişdi və yuxarıdan onlar dəniz köpüklərinə bənzəyirdi. Çəmənlikdə keçilər sevinclə tullanır, təpədə isə leylər özlərinə saman çöpündən dam hörürdülər.

Rəhmə cığırlardan keçə-keçə, hoppana-hoppana təpədən üzüaşağı enirdi. Onun yeddi yaşı var idi, lakin boyu çox balaca idi, çünki nadir hallarda doyunca yemək yeyirdi. Atalığı və onun böyük arvadı bu balaca qızcığazı sevmirdilər və hətta döyürdülər. Onun geyimi kətan qırıntılarını xatırladırdı və yazıq o qədər işləmişdi ki, ailənin anası kimi, daim kədərli görünərdi. Lakin o hərdən sürüyə də baxmalı olurdu və bütün məhrumiyyət və iztirablar bu zaman onun sevincini korlaya bilmirdi. Bu gün də onun üçün elə həmin sevincli gün idi, çünki qardaşı anasını harasa müəmmalı səyahətə yola salmağa getməliydi və o, qoyun sürüsünə təkcə baxacaqdı. Bu işdən qızcığaz necə də zövq alırdı. Düz iki saat azadlıqda olacaq və ətrafda təkcə leylər və naxırdan başqa heç kim olmayacaq. Düz iki saat çəpişlərlə atdanıb-

düşəcək, heç kim onu danlamayacaq və ya buğda dənlərini dəyirmanda üyütməyə, ağır su vedrələrini daşımağa məcbur etməyəcək.

Qızcığaz uzaqdan təzə yetişmiş sünbüllərin arasından gələn qardaşı Həmidi gördü. Çoban Həmid bu yaz günü xoş əhval-ruhiyyəsi olmadığına baxmayaraq, şən çəpişlərlə birgə atılıb-düşmək məcburiyyətində idi. Rəhmə də onlara qoşuldu. Onun ortadan ikiyə ayrılmış tünd yumşaq saçları üzünə tökülür, qara gözləri isə ehtirasdan parıldayırdı. Gülə-gülə, qışqıra-qışqıra ikisi də çəpişləri bütün sürünün otladığı dağdakı düzənliyə döndərdilər. Bacısını belə şən və qeyri-təbii görmək Həmidə həmişə qismət olmurdu, çünki kənd qızlarına daima necə təmkinlə gəzməyi, özündən böyüklərə və yuxarı təbəqələrə qulaq asmağı öyrədirdilər. Həm də Rəhmənin artıq yeddi yaşı vardı, demək olardı ki, o, kiçik xanım hesab olunurdu.

— Sən nə üçün gəlmisən? — deyə qardaşı soruşdu.

— Keçilərə baxmaq üçün, çünki anamıza lazımsan.

— Nə üçün?

— Bilmirəm, səninlə harasa getmək istəyirdi. Əvvəllər anası heç belə qorxulu nəzərlərlə baxmamışdı, heç kim nə onu, nə də Rəhməni döyməmişdi və onlar da heç kimə mane olmurdular. Əvvəllər uzaqda damı saman çöpündən hörülmüş balaca evdə onları istəyən doğma atası və anası ilə birgə yaşayırdılar. Hələ onda üç kiçik qardaşları da vardı, lakin bir həftə ərzində evdə yanacaq, azuqə olmadığından acından arıqlamış, soyuqdan xəstələnib öskürməyə başlamışlar və bir-birinin ardınca ölmüşlər. Onların kiçik cəsədləri şərq istiqamətində dağın gün çıxan tərəfində basdırılmışdı və qəbirləri üzərində gülünbahar və qızçiçəyi gülləri bitmişdi.

Həmin qışı atam da bərk soyuqladı, onda da şiddətli öskürmək başladı, lakin o buna əhəmiyyət vermirdi, çünki ailə başçısı kimi yaşayış üçün qazanc dalınca getməli idi. Zəhmət çəkir, işləyirdi; yaz əkini ilə əlaqədar tarlanı şumlayır və toxum səpirdi. Bir gün isə o evə gec qayıtdı və dedi: daha işləyə bilmirəm. Payıza qədər qamış həsir üzərində uzandı və get-gedə vəziyyəti pisləşdi. Zöhrə, Həmid və Rəhmə tez-tələsik taxılı yığdılar, onun vəziyyətini yaxşılaşdırmaq üçün əllərindən gələni etdilər, lakin heç nəyin faydası olmadı, o öldü və cavan, gözəl arvadını iki uşaqla heçnəsiz dul qoydu. Onlar evlərini, keçi və qoyunlarını, hətta bir qarış torpaqlarını belə satıb nənələrinin yanına köçdülər. Orada bir neçə aydan sonra onların bacısı anadan oldu və öz gəlişi ilə ailələrinə günəş işığı səpdi. Onun adını Kinza qoydular, o, bir cəvahirat sayılırdı və onun qədər heç bir körpə sevilməmiş və əzizlənməmişdir. Lakin çox qəribə idi ki, başqa körpələr kimi o nə əl çalır, nə də oynayırdı, günün çox vaxtını yatırdı, hərdən elə gəlirdi ki, o mənasız baxışlarla uzanıb. Həmid çox vaxt təəccüblənirdi ki, nə üçün onun gətirdiyi al çiçək dəstəsi onu sevindirmir?

Artıq Kinzanın on ayı tamam olanda anaya məsləhət görürlər ki, ərə getsin və o da düşünmədən buna razılıq verir, çünki buna məcbur idi,

onun uşaqları saxlamağa nə pulu, nə də dolandırmağa işi var idi. Onlar başqa evə, əri Si Məhəmmədin evinə köçdülər. Onun təzə ərinin başqa bir arvadı da var idi, ancaq uşaqları yox idi. Ona görə anasının təzə əri, hətta Həmidi də götürməyə etiraz etmədi, fikirləşdi ki, doqquz yaşlı uşağın ona xeyri dəyə bilər, keçilər üçün çobanlıq edər. Rəhməyə qarşı da heç bir etirazı olmadı, yeddi yaşlı qızdan ev işlərində istifadə etmək olar. Ancaq körpəyə gəlincə, o, Kinzadan azad olmaq istəyirdi: çünki onun təsərrüfat işlərinə heç bir xeyri dəyə bilməzdi.

— Bir çox uşaqsız analar körpəni götürməyə sevinərlər,— deyə o, ərz etdi, — Nəyə görə mən başqasının uşağını böyütməliyəm?

Gənc ana göz yaşları axıtmağa başladı və ərinin fikrini dəyişdirməyincə hər hansı bir işi yerinə yetirməkdən imtina etdi. Böyük çətinliklə də olsa, Kinzanın müvəqqəti bu evdə qalmasına razılıq aldı. Artıq bu barədə heç bir söz-söhbət olmadı. Ancaq ola bilsin ki, Həmid və Rəhmənin olmadığı bir vaxtda ona nəsə deyilmişdi, ona görə də anaları qorxudan Kinzanı daima sinəsinə sıxıb saxlayırdı.

Onun tez-tez gəlməsi üçün yuxarıdan səs gəldi və Həmid başını qaldırdı: anası əyilmiş qoca zeytun ağacının altında durmuşdu. Onun əlində iki boş vedrə vardı, kürəyinə isə Kinzanı bağlamışdı.

— Tez gəl, Həmid, — səbirsizliklə təkrar etdi, — Necə də asta-asta qalxırsan! Vedrəni kolların arasında gizlət, onları evdən çıxanda Fatmanın gözündən yayınmaq üçün götürmüşdüm. Gedək mənimlə.

— Hara, ana? — təəccüblə anasından soruşdu.

— Hələ ki dağları dönməmişik, gözlə — cəldliklə yaşıl otlarla örtülmüş sıldırımları qalxa-qalxa cavab verdi. — Bizi burada görüb, Fatmaya xəbər verərlər, məndən geri qalma.

Onlar yad baxışlardan gizlənə-gizlənə dağı dönənə qədər cəld addımlayırdılar. Sonra ana oturdu və körpəsini kürəyindən açıb dizləri üstə qoydu və oğluna dedi:

— Yaxşı-yaxşı bax ona, Həmid. Gül ver və onunla oyna.

Həmid təəccüblə bacısının qeyri-adi simasına baxdı, ancaq körpə nə onun baxışlarına, nə də təbəssümünə cavab verdi. Həmidə elə gəldi ki, o harasa uzaqlara baxır, qətiyyən onu görmür. Gözlənilməz qorxu hissilə əlini onun gözləri qarşısında oynatdı, amma körpə nə tərpəndi, nə də kiprik çaldı.

— O görmür... — astadan pıçıldadı. Dodaqları qurudu, rəngi ağardı.

Anası başını tərpətdi və tez qalxdı.

— Bəli, görmür — deyə təsdiq etdi. Mən bunu çoxdan bilirəm, ancaq nə Fatmaya, nə də ərimə deyə bilirəm, çünki onlar bilsələr onu mənim əlimdən alacaqlar. Kor uşaq onların nəyinə gərəkdir? O, heç vaxt nə işləyə, nə də ərə gedə bilməyəcək... — göz yaşlarını axıda-axıda səsi tutuldu və əyri-üyrü yolda büdrədi. Həmid anasının qolundan tutdu.

— Hara gedirik, ana? — yenidən soruşdu.

— Təpənin arxasındakı müqəddəs ziyarətgaha — anası cavab verdi. — Deyirlər ki, ora güclü ziyarətgahdır və çoxları ora gəlib sağalıb, mən isə Fatmaya görə əvvəllər buraya gələ bilmirdim. O həmişə məni izləyir, indi isə elə fikirləşir ki, su dalınca getmişəm və biz gərək dolu su vedrələri ilə geri qayıdaq. Bu səhrada, biyabanlıqda tək-tənha qorxduğum üçün səninlə getmək istədim.

Onlar kolların arasında gizlənmiş mağaraya çatana qədər dinməzcə təpəyə dırmaşdılar. Kolların hər tərəfindən budaqlara bağlanmış çirkli kağız parçaları asılmışdı. Hər bir kağız parçası kədərli tarixi saxlayırdı; xəstələr, sonsuzlar, sevilməyənlər — hamı öz ağır yükünü, dərdini bu ölmüş insanın cənazəsi üstünə gətirir və şəfa, təskinlik tapmadan evə dönürdülər.

Onlar uşağı mağaranın girəcəyinə qoydular. Anası diz çöküb, Allahın adını çağıraraq, hansı ki, o heç Məhəmmədin də adını bilmirdi, dua edirdi. Bura onun axırıncı ümid yeri idi. O dua edən zaman göyün üzü buludlarla örtüldü və soyuq kölgə uşağın üzərinə düşdü. O qorxdu və anasının əllərini axtara-axtara ağlamağa başladı. Anası həyəcanlı səbirsizliklə və ümidlə qızının üzünə baxdı, sonra onu qaldırdı və təəssüflə ah çəkdi. Allah mənim səsimi eşitmədi — Kinza əvvəlki kimi yenə də kor qaldı.

Həmid yaxınlıqda çömələrək oturub onları gözləyirdi. Qalxıb anası və bacısı ilə birlikdə təpədən üzüaşağı endilər. Günəş artıq dağların arxasında gizlənirdi. Səmada qürubqabağı qara mühitdə leyləklər səsküylü qırıltılarla onların yanından uçdular. Həmid məyus halda günün batmasına ürəyində dedi — onun bizə faydası var? Bacısı heç vaxt bu günəşi görməyəcək. Allaha bəllidir ki, heç müqəddəs ölülər də öz köməklərini əsirgəməzdilər.

Beləliklə, onlar bir söz söyləmədən su quyusuna gəlib çatdılar. Həmid vedrəni su ilə doldurub, anasına verdi və özü Rəhmə ilə keçilər olan dərəyə tərəf qaçdı. O onlarla yolun yarısında qarşılaşdı, çünki Rəhmə qorxurdu və evə tələsirdi. O, qardaşının əlindən tutdu və nizamsız sürünü də toplayıb evə yollandılar.

— Hara getmişdiniz? — Rəhmə soruşdu.

— Müqəddəs ziyarətgaha — Həmid cavab verdi.

— Rəhmə, bizim bacımız kordur, o heç nə görmür, ona görə də anamız onu gizlədir. İstəmir ki, atamız və Fatma bunu bilsin.

Rəhmə sarsılıb yerindəcə dondu. „Kordur" — onun səsi əsk-səda verdi. Sonra hansısa fikir onu ayıltdı və tez soruşdu:

— Məgər ziyarətgah heç nə edə bilmir ki, onun gözü açılsın?

Həmid başı ilə inkar etdi.

— Mənə elə gəlir ki, bu ziyarətgah ona kömək edə bilməyəcək. — O, cəsarətlə dedi. — Atamız xəstələnən vaxt anamız ora getmişdi, lakin köməyi olmadı, o öldü.

— Bu Allahın iradəsidir, — çiyinlərini sıxaraq Rəhmə söylədi və bir-

birlərinə bərk-bərk sığınıb təpəyə doğru qalxdılar, qaranlıqda keçilərin gözləri yaşıl fənərlər kimi parıldayırdı.

— Qaranlığı xoşlamıram, — büzüşərək Rəhmə pıçıldadı.

Həmid isə zeytun yarpaqlarının arasından tünd qara rəngli səmaya baxaraq, fikirli-fikirli söylədi:

— Mən isə ulduzları seyr etməyi sevirəm.

II fəsil

On dəqiqədən sonra, çathaçatda, Həmid və Rəhmə qaranlıq komanın yanından keçdilər. Açıq qapıdan içərisində heyranedici ağac kömürü olan gildən hazırlanmış küpə görünürdü və ailə zəif lampa işığında çömələmə axşam süfrəsində oturmuşdu. Hələ evlərinə çatar-çatmaz uzaqdan böyük arvadın — Fatmanın analarını necə danladığını eşitdilər. O, ərinin cavan arvadını, onun uşaqlarını sevmədiyindən çalışırdı ki, onların həyatını əzaba çevirsin. Uzun illər boyu o ağır işdən qırışmış və büzüşmüşdü. Zöhrə isə cavan və qəşəng idi. Fatma bu illər ərzində əbəs yerə uşaq istəməmişdi, Zöhrənin isə altı uşağı var idi, ona görə də təəccüblü deyildi ki, nə üçün bu yaşlı qadın onun bu evə gəlməsinə belə qısqanırdı.

O, öz qəzəbini bir daha onunla göstərirdi ki, bütün günü Zöhrə və Rəhməni qul kimi işləməyə məcbur edir, özü isə şahzadə kimi həsir üzərində otururdu.

Cavan arvadın yoxluğundan hirslənmiş Fatma, qonşu qızı təpənin başına göndərdi ki, baxsın görsün Zöhrə hara gedib və o, dolu vedrələrlə qayıdanda ona hər şey aydın oldu.

— Tənbəl, acı arvad, — deyə qışqırdı. — Məni aldada bilməzsən, ver qızı mənə, mən özüm baxaram, görüm nə üçün sən onu gizlədirsən və ziyarətgaha aparırsan? Demirəm ver mənə!

O, kobudcasına uşağı Zöhrənin əlindən aldı və işığa tərəf apardı, ananın isə təəssüf hissi ilə qolları yanına düşdü. Gec və ya tez Fatma bunu bilməli idi. Yaxşısı budur ki, əgər özü bunu başa düşərsə, artıq gizlətməyim.

Qorxudan uşaqların qara gözləri hədəqədən çıxmışdı və onlar evin bir qaranlıq küncündə gizlənmişdilər. Hələ ki, Fatma uşağın bütün üzvlərini nəzərdən keçirirdi, komada sakitlik idi, sonra onun hərəkətsiz simasına gözlərini zillədi. Birdən onun təntənəli gülüşü sakitliyi pozdu və uca səs-küyə qarşı həssas olan Kinza qorxunc, dəhşətli səslə qışqırdı.

Fatma onu qaldırdı və demək olar ki, anasının dizləri üstə atdı:

— Deməli, kordur, tamamilə kordur və sən bu vaxta qədər bunu bilirdin. Ona görə ərinin evinə gətirmisən ki, ömür boyu hamımıza ağır yük olsun. Axı o heç vaxt nə işləyə, nə də ərə gedə biləcək və sən bunu bilə-bilə bizdən gizlətmisən. Sən qadınların ən yalançısısan! Ərimiz bunu elə bu gün biləcək, indi isə qalx və ona şam yeməyi hazırla, sənsə — Rəhmə kömürləri üfür. Yeyib qurtarandan sonra bilərik, görək nə deyək.

Qız qorxa-qorxa sıçrayıb kömürləri üfürməyə getdi. Alov əmələ gələnə qədər üfürdü və bu alov divarda möcüzəli kölgə yaratdı. Zöhrə bütün vücudu əsə-əsə balaca qızını yellənən taxta çarpayıya qoydu və paxla təmizləməyə başladı. İndilərdə əri gəlməli idi.

Paxla hazır olan vaxtı, ağır ayaq səsləri eşidildi və kandarda ucaboy, qaragöz, tünd qarasaqqallı və ağzının dövrəsinə cızıq çəkilmiş adam göründü. Onun əynində uzun, evdə hörülmüş keçi yunundan libas və başında ağ əmmamə var idi. O, nə arvadı ilə, nə də uşaqlarla danışmadan alçaq kətilin qarşısında türksayağı bardaş qurub oturdu və başı ilə yemək gətirilməsini işarə etdi. Zöhrə isti yeməyi masanın tən ortasına qoydu və bütün ailə onun ətrafına yığışdı. Qaşıq yox idi. Zöhrə iki böyük tikə çörəyi ərinin və Fatmanın qarşısına qoydu, üç kiçik tikəni isə özünə, Həmidə və Rəhməyə götürdü.

— Allahın adı naminə, — öz-özlərinə deyərək, çörəyi kasanın içinə tökə-tökə fikirləşirdilər ki, bu sözlərlə şeytanı qovurlar.

Ancaq bu gün, əlbəttə, onların koması şeytanlarla dolu idi — qara ruhlar paxıllıq, qəzəb, nifrət və qorxu gətirmişdi. Hətta balaca Kinza da öz beşiyində bu iyrənc abi-havanı hiss edir, şıltaqlıq edir və ağlayırdı. Si Məhəmməd qaşqabağını tökdü:

— Səsini kəs onun! — qəzəbli səslə dedi. — Götür uşağı qucağına.

Ana itaət edərək uşağı götürüb, sinəsinə sıxdı və yenidən əyləşdi.

Fatma əri yeyib qurtarana kimi gözlədi, sonra isə əlini uşağa uzadaraq hökmranlıqla dedi:

— Qızcığazı mənə ver!

Zöhrə uşağı verdi və ağlamağa başladı.

— Nə olub? — Si Məhəmməd əsəbi halda soruşdu.

Onun arvadları nə qədər istəyirlər dalaşa bilərlər, bütün arvadlar dalaşırlar. Ancaq xoşlamırdı ki, bunu onun yanında etsinlər.

O, bütün günü tarlada işləyib yorulmuşdu.

— Nə olub? — təbəssümlə Fatma təkrar soruşaraq uşağı lampaya yaxın apardı ki, işıq onun üzünə düşsün. Ancaq o, gözlərini nə qırpdı, nə də üzünü çevirdi.

Si Məhəmməd diqqətlə ona baxırdı:

— Kordur! — Fatma qışqırdı,- Kordur, kordur, kordur! Zöhrə bunu bilirdi və bizi aldadıb.

— Mən aldatmamışam, — göz yaşları içərisində dala-qabağa yellənə-yellənə Zöhrə dedi.

— Aldatmısan! — qarı yenə də çığırdı.

— Kəsin səsinizi! — ərləri sərt səslə onlara qışqırdı və dava həmin dəqiqə kəsildi. Komada yenə də sakitlik yarandı. Rəhmə qorxusundan buz kimi oldu və sönən közə tərəf yaxınlaşdı.

Atalığı diqqətlə qızın üzünə baxdı: işığı onun gözləri qarşısında tutdu, barmaqları ilə sərt hərəkətlər etdi və nəhayət əmin oldu ki, qarı düz deyir.

— Bəli, — bununla razılaşdı, o — kordu.

Ancaq gözlənilən qəzəb partlayışı baş vermədi. O, Kinzanı anasına verdi və uzun tənbəki çubuğunu yandırıb çəkdi. Artıq ev ürəkbulandırıcı iylə dolmuşdu və atalığı astadan dedi:

— Kor uşaqlar böyük mənfəət gətirə bilər. Bu uşağa yaxşı bax. O, bizə çoxlu pul gətirəcək.

— Necə? — qızını sinəsinə daha da bərk sıxaraq, həyəcanla anası soruşdu.

— Dilənməklə — əri cavab verdi. — Düzdür, biz onunla gedə bilməyəcəyik, çünki mən hörmətli adamlardan biriyəm. Ancaq yoxsullar var ki, bazarda onu tutub oturmağa çox sevinirlər. Adamların kor uşaqlara çox yazığı gəlir və həvəslə onlara dilənçi pulu verirlər. Mən hətta bir nəfər tanıyıram, bizə buna görə haqq da verər, ancaq lazımdır ki, o bir az böyüsün.

Zöhrə heç bir cavab vermədi, ancaq Həmid və Rəhmə uzun qəti etirazla bir-birlərinə baxdılar. Onlar atalarının dediyi dilənçini tanıyırdılar, o həmin söyüşkən, çirkli, əzik paltar geymiş qoca idi. Onlar istəmirdilər ki, əziz bacıları Kinza onun əlinə düşsün. Qoca onunla pis rəftar edəcək və onu qorxuda bilər. Atası onların baxışlarını gördü, əl çaldı və əmr etdi:

— Uşaqlar, tez olun gedin yatmağa!

Onlar cəld qalxdılar və „Gecəniz xeyrə qalsın“ deyərək, hərə öz küncünə tələsdi. Həsirə yığılıb yumrulanmış dar miləmil ədyalı özlərinə tərəf dartıb açdılar və tez yuxuya getdilər.

Gecə saat ikidə Həmid qəfildən yuxudan ayıldı. Ay işığı Kinzanın beşiyinin üstünə düşürdü, o, qımıldanır və hər dəqiqə yuxuda nəsə

donquldanırdı. Həmid astaca durdu və ona yaxınlaşdı. Böyük şəfqət və mərhəmət izdihamı oğlanın qəfildən bütün vücudunu bürüdü. O, beşiyi yellədi və bacısının tünd qara saçlarına incəliklə sığal çəkdi. Kinza nə qədər balaca idi, nə qədər səbirli və müdafiəsiz idi. O, ömrü boyu ona nur olacaq, öz sevgisilə onu qoruyacaq və hər bir bəladan xilas etmək üçün onun qayğısına qalacaq. Birdən yadına düşdü ki, hələ balacadır və tamamilə atasından asılıdır. Kinzanı ondan götürə bilərlər, ancaq onun sevgisi daima onu müdafiə edəcək. Bundan da güclü sevgi olarmı ki, onu müdafiə etsin, onu gələcəyə aparsın. Həmid bunu bilmirdi. O ehmalca əyilib Kinzanı öpdü və astaca qayıdıb, öz saman döşəyinə döşəndi. Onun simasında təbəssüm nurlandı. O, barmağını ağzına salıb, sakitcə ay işığı düşmüş beşiyində fısıldayırdı, sarayın balaca şahzadəsi kimi.

III fəsil

Kinzanın iki yaş yarımı tamam olanda atalığı artıq işləməsini qərara aldı. O, Həmidə qızı hər cümə axşamı bazara aparmağı həvalə etdi. O, dilənçilərin ayağı altda oturub, dilənməli idi.

Bir gün Kinza evin astanasında oturub səbirsizliklə qardaşını gözləyirdi. Ancaq hələ tez idi və Həmid də inəkləri indicə naxıra aparırdı, yarım saatdan tez qayıtmayacaqdı. Buna görə də o, hələ ki, azad idi, istədiyi kimi əylənirdi. Günəş çıxanda və hava yaxşı olanda özünü çox xoşbəxt hiss edirdi O, heç vaxt işıq üzü görməyəcəyini və onun ətrafını bu kimi xoş hissiyyatların düşmədiyini hiss etməyib: anasının isti və onu müdafiə edən ağuşu, qardaşının onu qucaqlayan güclü əlləri, keçilərin nəm burnu ilə əllərinə toxunması. Hətta isti günəş şüasının bədənini necə qızdırmasını və sakit küləyin onun simasına necə vurması əlamətlərini də hiss edirdi. Anası taxılı çeşidləyən vaxt hərdən ona da onunla oturmağa icazə verirdilər və o da qabıqları ovcunun içinə dolduraraq barmaqlarının arası ilə buraxırdı. Bu onun ən sevimli əyləncəsi idi. Musiqiyə qulaq asmaqdan da həzz alırdı. İndi Həmidin xüsusi səslə ayaqyalın quru gilin üstü ilə onun yanına gəlməsini o anlayırdı.

Budur, onun yaxınlaşmasını eşidir, əlini ona tərəf uzadıb şən səslər çıxarmağa başlayır. Həmid onu qaldırıb bərk-bərk kürəyinə bağlayır.

— Bazar günüdür, bacım — dedi. — Sən çörək yemisən?

Kinza başını tərpətdi. Yarım saat bundan əvvəl o, bir fincan qəhvə içib və bir tikə qara çörək yeyib. Bu ən məşhur səhər yeməyi idi və o, bunu xüsusilə xoşlayırdı.

— Onda gedək, — Həmid dedi və onlar zeytun ağaclarının kölgəsini tuta-tuta yola düşdülər, çünki artıq saat doqquza yaxın gün hər yeri kifayət qədər qızdırırdı.

Tezliklə zeytunluqlar qurtardı və bazara gedən yol hər bir sünbülün buğda dənlərinin ağırlığından başını yerə əyən məhsul yığımına hazır olan taxıl zəmisindən keçirdi, hava isə lalələrin iyindən mürgü tuturdu. Haçan, harada olur-olsun yatmaq istəyən Kinza, başını qardaşının çiyninə qoydu və yumşaq, ipək kimi olan taxılın külək vuran laylayında gözlərini yumub mürgüləmdi. Həmin gün səhər bu yolda adam çox olurdu, cümə axşamları yarmarka günü idi və kimin satmağa nəyi var idisə, dağlardan keçərək bura gəlir, evkalipt ağacının kölgəsində öz mallarını yerbəyer edirdilər. Satıcılar ayaqlarını çarpazlaşdırıb yerdə oturur, alıcılar isə onların ətrafında sıxlaşırdılar. Kinza buradan qorxurdu. O, sıxlığı, basırığı, səs-küyü, onu asqırmağa məcbur edən toz-torpağı, ayaqlarını dişləyən milçəyi xoşlamırdı. Ən çox xoşlamadığı isə Həmidin onu qoca diləncinin nəzarəti altında qoyduğu məqam idi. Bu ayrılıq ağrısını yüngülləşdirmək üçün Həmid belə bir plan hazırlamışdı; əgər bir həftə ərzində yalvar-yaxar edib, ya da bir qurd (pulun onda bir dəyərində) oğurlasaydı onu cümə axşamına qədər qoruyub saxlamalı idi, həmin gün üstünə qoz ləpəsi səpilmiş yapışqanlı konfet almalı idi. Bu konfeti kim yalasaydı ləzzət alardı.

Həmid bazarda özünü evdəki kimi hiss edirdi, qumluqda Kinza və qoca diləncı əyləşdiyi yerə qədər asanca camaatın arasından özünə yol aça-aça gedirdi. O, qocadan tez gəlmişdi və Kinzanı öz yerində əyləşdirib əvvəlcədən özü yalamış konfeti ona verdi. Qız öz əlində sıxıb yalamağa başladı və sağ əlilə Həmidin paltarından yapışdı ki, kütlə onu itəliyib heç yerə aparmasın.

Onlar çox az vaxt tək qaldılar. Tezliklə qoca diləncı əlində rəngli baramanı yalın ayaqlarına sürtə-sürtə onlara yaxınlaşdı. Qoca iyrənc dərəcədə çirkli idi, paltosu parça-parça edilmiş qurama yorğana bənzəyirdi. Həmid nəzakətlə onun əlini öpdü və Kinzaya görə hər həftə atasına verəcəyi pulu ondan götürdü. Adətən, Həmid o dəqiqə gedərdi, lakin bu dəfə onu buraxmadı və dedi:

— Atana deyirsən ki, haçan yarmarkaya gəlsə, məni görsün, onunla işim var.

Həmid başını yellədi, Kinzanı əlindən buraxıb getdi. Kinza ağlamağa başladı, diləncı isə onu şıppıltı ilə yerə yıxdı ki, səsini kəssin.

Günün birinci hissəsi işi çox da çətin deyildi, ona lazım idi ki, oturub əlini uzatsın, üzünü isə günə tutsun ki, görsünlər kordur. Qoca isə onun

yanında dayanır, hərdənbir diqqəti cəlb etmək üçün barabana vurur. Çoxları üzünün rəngi qaçmış bu balaca qıza baxıb yazıqları gəlib pul verirlər və o da həmin dəqiqə onları sahibinə verirdi. Beləliklə, onlar günortayacan oturdular. Gün adamı yandırır, toz daha da qatılaşır, milçəklər isə lap bezdirirdi və həmin vaxtı qoca Kinzaya bir tikə qara çörək və bir fincan su verirdi. Hərdən səhərlər pul yığanda qoca ona gavalı içkisi alardı. Ah, bu necə də ləzzətli içkidir! Qız on barmağının onunu da səylə yalayırdı ki, bir damcı da içki qalmasın.

Günün ikinci yarısı birinciyə nisbətən ağır idi, çünki Kinzanı yuxu basırdı. Başı get-gedə aşağı əyilir, gözləri isə öz-özünə yumulurdu. Necə də o, anasının dizləri üstə yatmaq istəyirdi. O, hiss edilməz dərəcədə pırtlaşıq saçlı qocanın yanında özünə yer düzəldir və yorğun başı burada bir az sakitlik tapır. Qoca bunu hiss edən kimi təkanla onu qaldırdı. Qoca onu yerdən qaldırdı, şapalaq vurub, kürəyini özünə tərəf söykəyib dik oturtdu. Nəhayət, yarıyuxulu halda dilənmək üçün əllərini irəli uzatdı. Birdən qoca tələsik qalxdı. O, hövsələsiz bağıraraq onu yenidən öz yerində oturtdu:

— Ah, rəzil qız! Otur və mən qayıdana kimi dilən!

Dilənçi kütlənin arasında onu axtaran Kinzanın atasını gördü. Fermer istəmirdi ki, onu dilənçi ilə danışan görsünlər, ona görə də evkalipt ağacının altında görüşdülər.

— Sən məni çağırmısan? — fermer soruşdu.

— Bəli — qısaca cavab verdi. — Mən bu kənddən gedirəm. Çünki bu kəndin camaatı xəsisdir, Məhəmməddən qorxmurlar və vicdanlı dilənçilərə az pul verirlər, ona görə də mən böyük şəhərə, dəniz kənarına gedirəm. Mən və mənim arvadım. Tezliklə orada böyük bayram olacaq və deyirlər ki, o şəhərin küçələrində dilənçilər varlanırlar. Demək istəyirəm ki, kor qızını ver mənə. Sən mərd dilənçilik sənətinə malik deyilsən və ondan istifadə edə bilməzsən, mənə ancaq o böyük gəlir gətirir. Ona mənim arvadım baxacaq, ona görə sənə də yaxşı pul verərəm.

Kinzanın atalığı edilən təklifi fikirləşə-fikirləşə qaşqabağını salladı. O, bilirdi ki, pis iş görür, ancaq ona həddən artıq pul lazım idi. Bu il məhsul çox pis oldu və Kinza evdə artıq ac idi. Ehtimal ki, haçansa zəif vicdanının səsi hərəkətə gəlsin, lakin o buna qulaq asmaq istəmədi. Onsuz da Kinza öz qızı deyildi. Həmidin on bir yaşı var, demək olar ki, kişidir, tezliklə özü qazanıb, özünü saxlaya bilər. Rəhmə üç dörd ildən sonra ərə gedəcək. Bəs Kinza? Bu ola bilsin ki, ondan xilas olmanın birinci və axırıncı şansıdır.

— Sən mənə nə qədər ödəyəcəksən? — nəhayət soruşdu.

Dilənçi az bir məbləğ dedi. Fermer belə alçaqlıqdan qəzəbləndi və böyük məbləğ istədi. Bu dəfə isə qoca belə tamahkarlıqdan qəzəblənib özündən çıxdı və qiyməti əvvəl söylədiyindən bir az yuxarı dedi, fermer isə öz növbəsində bir az da aşağıya razılaşdı. Beləcə bir neçə vaxt mübahisə

etdilər — ehtirasdan gah qışqırdılar, gah da sakitləşdilər. Elə fikirləşmək olardı ki, bu dəqiqə bir-birlərini öldürməyə hazırdılar, yoldan ötənlər isə heç çevrilib onlara baxmırdılar da, çünki kənddə bütün sövdələşmələr bu yolla həll olunurdu, ona görə də heç kim təəccüblənmirdi. Axır məbləğ hər birinin birinci söylədiklərinin tam yarısı oldu.

— Hə, yaxşı, — nəhayət dilənçi dedi, — mən kənddən həftənin birinci günü səhər tezdən gedəcəyəm. Sən qızı mənə verən zaman, mən də pulu sənə verərəm, bütün bunlar hamısı şahidlərin iştirakı ilə olacaq.

Onların hər ikisi biruzə vermədən bu sövdələşmədən razı qaldılar. Qoca dilənçi yenidən öz yerinə qayıtdı, əmin idi ki, o olmayan müddətdə qız çoxlu pul yığıb. Lakin heç nə əldə etməmişdi. O, yumaq kimi yığılıb kölgəlikdə gizlənmiş və oyundan sonra yorulan pişik balası kimi bərk yatmışdı.

Həmid yarmarkanın kənarında gözlərini məscidin minbərinə zilləyib başı yuxarı dayanmışdı, gözləyirdi ki, molla haçan çıxıb ibadətə çağıracaq. Bu saat dörd tamamda olmalıdı, o vaxt Kinzanı götürüb gələn cümə axşamına qədər evə aparacaq.

Bu vaxt camaat azalırdı və Həmid uzaqdan öz bacısını görürdü. Onun yorğun görünüşü Həmidi daha çox təsirləndirir və tezliklə azad olunacağını səbirsizliklə gözləyirdi. O, hövsələsizlikdən ayağının birini götürüb, o birini qoyurdu, sonra gözünü məscidin minbərindən çəkmədən ayaqyalın iki ayağının ikisini də isti quma batırdı.

Özünün ağlığı ilə səmanın göy fonundan seçilən dördbucaqlı qülləsi olan məscidin binası kənd məbədi idi. Qüllənin başında qızıl suyuna salınmış aypara parıldayırdı, — bu Məhəmməd yolunun simvolu idi. Nəhayət, Həmid saqqallı və möhtəşəm ibadət libasında din xadiminin necə zahir olduğunu və özünün uca səsilə ibadətə çağırdığını gördü. Onu bütün bazar meydanında və kəndin o başında eşidiləcək zəng səsləri müşayiət edirdi.

— Allah təkdir və Məhəmməd Onun peyğəmbəridir, — deyərək təntənəli surətdə bildirdi.

Qatı məhəmmədçilər dua etmək üçün izdihamla məbədə axışdılar. Qeyriləri isə ayaqqabılarını çıxarıb durduqları yerdəcə üzləri şərqə tərəf, başları yerə dəyənə qədər əyilmiş vəziyyətdə dua edirdilər. Bu hamı üçün ibadətə çağırış idi. Din xadimini görən kimi Həmid ayaqlarını yerdən üzüb, meydanın içilə Kinzanın oturduğu yerə qaçdı. O yenə də salamlaşmaq mənasında dilənçinin əlini öpdü sonra bacısının əlindən tutub götürdü və ona yumru bublik verdi, qız onu acgözlüklə ağzına basdı. Qardaşının əllərində təhlükəsizliyindən sevinən qız, uzun sürən bugünkü günün aclığını, susuzluğunu, yorğunluğunu yadından çıxarıb, onun kürəyində yerini rahatladı və möhkəm yuxuya getdi.

Həmid onun taqətdən düşmüş bədəninin ağırlığından azca əyilərək geriyə yollandı. Çox isti idi və o dincini almaq üçün əncir ağacının altında bir az oturdu. O, çayın kənarında tənbəlcəsinə yığışan inəkləri seyr edirdi, bir az

ondan yuxarıda qadınlar yorğan-döşək dəyişəklərini daşlara vururdular. Sakitlikdə çaya baxıb fikirləşirdi: görəsən, o hara axır? Bəlkə də onların vadisindən keçərək hələ də onun olmadığı, hansısa naməlum dünyaya axıb gedir. Nə vaxtsa bir gün o da onun axarı ilə gedəcək və aydınlaşdıracaq... Bəlkə o, dənizlərə və böyük okeanlara gedib çıxacaq?

IV fəsil

Axşam düşəndə ailə yenə də gildən hazırlanmış camın ətrafına yığışır, şamın və yanan kömürün zəif işığında şam edirdilər. Kinza möhkəm yuxudan sonra gümrah idi və ac quşlar kimi ağzını açıb anasının dizləri üstə oturmuşdu. Həmid kürəyində onun yorğun balaca bədəninin ağırlığını xatırlayaraq məhəbbətlə müşahidə edir və fikirləşirdi: heç vaxt onu tək qoymayacaq və həmişə müdafiə edəcək...

Zəif külək komanın yanındakı çəlləkdə yetişən dərman bitkilərinin iyini açıq qapıdan içəri doldururdu. İstidən yoldan yorğun gəlmiş Həmid öz həsirinin üstündə yatmağa getdi. Yuxuda o vahiməli dərəcədə günü-gündən daha da böyüyən zorba boyda dilənçini gördü və özü onunla Kinzanın arasında durmuşdu. Qorxu içərisində yuxudan ayıldı. Sakitcə ay işığı şölələnirdi, böyüklər isə hələ də sönmüş kömürün yanında masa arxasında oturub söhbət edirdilər. Ayın gümüşü şöləsində onların simasını aydınca görürdü: atasının qəddar və qəti, Fatmanın bədxah-razı, anasının rəngi qaçmış və yalvarıcı simasını.

— Bu yeganə təklifdir ki, nə vaxtsa, biz bunu onun üçün almalıydıq, — Si Məhəmməd inadcıllıqla dedi. — O bütün ömrü boyu hər şeylə təmin olunacaq.

— Bütün ömrü boyu? — acı uca səslə anası soruşdu. — Həyatı olmayacaq! O öləcək, axı o balaca və zəifdir.

— Kor uşağın ölməsi yaxşıdır, — deyə Fatma qeyd etdi.

Anası incik halda qarıya tərəf döndü, lakin atası əlini qaldırıb hər ikisini sakitləşdirdi.

— Kəsin səsinizi, axmaq arvadlar! — o əmr etdi. Daha bu haqda danışmayacağıq. Üç gündən sonra uşaq mənimlə getməlidir.

O, əzəmətlə qalxdı, Fatma da ayağa durdu, lakin Zöhrə sönmüş odun yanında bükülü oturub, ay işığında dala-qabağa yellənirdi. „Mənim balaca qızım! Mənim balaca qızım!“ pıçıltıyla onu oxşayırdı.

Həmid sakitcə uzanıb anasına baxırdı. O nə danışa bilir, nə də ona yaxınlaşa bilirdi, qorxurdu ki, atalığını oyada bilər. Lakin onun isti balaca ürəyi tez-tez vurur, fikrində isə qətiləşdirirdi. „Bu olmayacaq! Mən onu aparmağa izin vermirəm! Bu heç vaxt olmayacaq!“ O, gördü ki, ay işığı necə qapının arasından çəkilib öz uşaq yuxusu ilə uzanıb yatan Kinzanın beşiyini bürüdü. O, sübh şəfəqlərinin necə zəif işıqlandığını seyr etdi. Xoruzların ilk banını və inəklərin tövlədəki hərəkətlərini eşitdi. Bütün bu müddət ərzində o uzanıb, elə hey fikirləşir, fikirləşir, fikirləşirdi... Ancaq heç düşünüb tapa bilmirdi və səhərə yaxın elə möhkəm yatdı ki, adətən durduğu vaxtdan gec oyandı. Atalığı onu saymazyana təpiklə vurub oyatdı:

— Oyan, tənbəl! Çoxdan keçiləri otarmağa qovmaq lazım idi.

Həmid həsirin üstündən sıçrayıb durdu, tez yuyundu və tələsik səhər yeməyini yedi. O, çörəyini çeynəyə-çeynəyə və xırda qurtumlarla fincandan qəhvə içə-içə, gizlincə anasına baxırdı. Onun rəngi həmişə olduğundan daha da ağarmışdı, ancaq onun gözlədiyi qədər də bədbəxt görünmürdü. Onun sifətində qəti qərarlaşmış cizgilər var idi, elə bil ki, hansısa müəyyənləşdirilmiş qərara gəlmişdi. Bir dəfə Həmid onun baxışlarını tutdu və həmin müəyyənləşdirilmiş və qətiləşdirilmiş baxışlara cavab verdi. Qaşlarını qaldırdı və Həmid başı ilə astaca işarə etdi. Onlar ən kiçicik ehtimalda belə bir-birlərilə məsləhətləşəcəklər.

V fəsil

Onlar çox gözləməli olmadılar. Həmid keçiləri qovub, gözdən uzaq canlı çəpərin yanına qovdu. Səhər yeməyindən qənaət etdiyi çörək parçası ilə dostunu ələ aldı ki, keçilərə baxsın və özü gizlincə evin arxa tərəfinə keçib hasarın yarıq olan hissəsindən müşahidə etməyə başladı.

Bir azdan gördü ki, anası dəyirman daşı olan anbara keçdi. Bir neçə dəqiqədən sonra o özü də hiss olunmadan ora tərəf süründü. Anası bardaş qurub ağır dəyirman daşını fırladırdı, anbardan isə döyülmüş taxılın xoş iyi gəlirdi. Həmid anasının yanında oturdu və əlini onun çiyninə qoydu.

— Ana, — o pıçıldadı, — mən dünən axşam hamısını eşitdim. O, həmin qoca dilənçidir ki, Kinzanı almaq istəyir?

Anası diqqətlə ona baxdı və sakit baxışlarını bir dəqiqəliyə onun üzərində saxladı, elə bil oğlunun gücünə qiymət verirdi. Demək olar ki, arıq balaca oğlan idi və Kinzanı da çox istəyirdi.

— Mənim ərim belə istəyir, — cavab verdi, — ancaq mən deyirəm ki, bu heç vaxt olmayacaq! Mən istəmirəm ki, Kinza küçələrdə ac qalsın. Yox, Həmid sən onu harasa aparmalısan. Sən istəsən, onu xilas edə bilərsən.

— Mən? — təəccüblə Həmid ucadan soruşdu. Ancaq anasına baxan baxışları cəsarətli və qətiyyətli idi, hətta bir az da şən idi.

— Qulaq as, — anası dedi. O işini saxlayıb oğluna tərəf döndü və əlini onun dizləri üstə qoydu.

Sərin, zəif işığı olan anbarda onun səsi Həmid üçün qəribə təsirlə səsləndi, elə bil onun sözləri ürəyində möhürlənmişdi. Anası danışıb qurtarana qədər gözlərini onun üzündən çəkmədi və sonra bütün həyatı boyu onun sözlərini yadında saxladı.

— Dörd il bundan əvvəl müqəddəs məzara böyük ziyarət vaxtı atan özü ilə məni də aparmışdı. Çox uzaqda idi, dağları aşaraq getmək lazım idi, sizi nənənizin yanında qoymuşduq. Təkcə Avessalomu özümüzlə götürmüşdük, çünki o hələ südəmər uşaq idi, onu kürəyimdə aparmışdım. Ziyarətdən sonra atan oradan iyirmi mil aralı olan şəhərdə alver etmək üçün gün çıxandan-batana qədər yol getdik. Günəşin şüaları adamı lap yandırırdı, maşınlar yanımızdan toz qaldıra-qaldıra sürətlə keçib gedirdilər, bundan demək olar ki, boğulurduq. Çətinliklə gəlib şəhərə çatdıq. Ayaqlarım qabardan yaralanmışdı. Avessalom isə istidən bütün günü ağlayırdı. Onun gözləri şişirdi və açılmırdı. Mən onun gözlərini təmiz su ilə yudum, bu da kömək etmədi. Mehmanxananın həyətində açıq havada gecələməli olduq. Yuxudan ayılanda mən özümü çox yüngül hiss etdim, lakin Avessalomun gözləri daha da şişmişdi. Atan yarmarkaya çıxıb getdi. Həyətdə çoxlu ulaq olduğundan xeyli milçək var idi. Mən əlimdə uşaq oturub, onun gözlərini günəş şüasından qoruyur və milçəkləri qovurdum ki, birdən hansısa bir arvad gəldi və mənimlə danışmağa başladı. Söhbət zamanı təsadüfən o uşağı gördü:

— Sənin uşağın xəstədir? — soruşdu.

— Bəli, — mən cavab verdim və onun üzünü ona göstərdim.

O, cəld ayağa durdu və dedi:

— Vaxt itirmədən mənimlə gedək. Mən səni bir ingilis tibb bacısına apararam. O sənin uşağına dərman verər və müalicə edər. Mənim kiçik oğlumun gözünə tikan batanda da o müalicə etmişdi.

Mən bir az uzatdım.

— Mənim pulum yoxdur, — başa saldım.

— Bu vacib deyil, — arvad cavab verdi.

— O, müqəddəs qadındır və öz müqəddəsliyinin məhəbbəti naminə pulsuz müalicə edir. O, çox mərhəmətli və kasıblara qarşı rəhmli və şəfqətlidir.

Lakin, mən etiraz etdim, — ingilislər varlıdılar və qəşəng evlərdə yaşayırlar. O məni qəbul etməz.

— Yox, o da bizim kimi belə evlərdə yaşayır və şəfa üçün yanına gələnlər də kasıblardır. O, heç kimdən imtina etmir, deyirəm sənə, hamını müqəddəsliyi naminə qəbul edir.

Beləliklə, qorxsam da, yenə də onunla getdim, lakin çox həyəcanlı

idim və ümid edirdim ki, oğlumun şəfası üçün ondan dərman alacam. Arvad məni dar küçənin kənarındakı evə apardı. Qapı açıq idi və evdən çoxlu adamlar çıxırdı, hamısı da mənim kimi uşaqlarını kürəyinə bağlamış kasıblar. Bəziləri əllərində dərman şüşələri aparırdılar və hamısının üzündə sevinc var idi.

Biz vaxtında gəlib çıxmışdıq, çünki otaqda demək olar ki, heç kim yox idi və bir az da gec getsəydik tibb bacısını evdə tuta bilməzdik. Bu hündür, sarışın, göygöz qadın idi. Mən ona bənzər qadın heç vaxt görməmişdim. Gördüm ki, o, hamıyla mülayim danışır və bütün uşaqlarla elə rəftar edir ki, elə bil öz doğmaları idi. Onu müşahidə etdikcə məndəki qorxu hissi keçib gedirdi və hamı gedəndən sonra mən ona yaxınlaşıb Avessalomu göstərdim. O məni həsirin üstünə apardı və birlikdə oturduq. O, Avessalomu dizləri üstə oturtdu və gözlərinə baxdı. Onun əlləri o qədər zərif idi ki, o hətta ağlamadı da. Onun haqqında o mənə çoxlu suallar verdi, sonra qızdırma üçün dərman və gözləri üçün maz verdi.

Hələ ki, o, bunları gətirməyə getmişdi, mən divardakı şəkilə baxırdım. Bu şəkildə üzündən mərhəmət yağan insan təsvir edilmişdi, o, əllərində balaca uşağı tutub saxlamış, qalan çoxlu uşaqlar isə paltarlarından yapışıb ona baxırdılar. Mən arvaddan soruşdum ki, bu kimin şəkilidir və o da cavab verdi ki, Onun adı İsadır, Onu yer üzünə Allah göndərib ki, Göylərin Padşahlığının yolunu bizə göstərsin. Onun haqqında çox şeylər danışdı: xəstələri necə müalicə edib, korların gözünü necə işıqlandırıb və bütün insanları sevib — kasıbları da, varlıları da, böyükləri də, uşaqları da. Mən indi hər şeyi yadıma sala bilmirəm, o nələr danışmışdı, lakin onu bilirəm ki, şəkildəki bu insanı necə sevirdi və necə istəyirdi ki, Ona oxşasın. Bax buna görə də o, bütün xəstələri qəbul edir, dərman verir və onlara qarşı mərhəmətlidir. Bax buna görə də o mənim Avessalomumu qəbul etdi...

Zöhrə susdu, sonra astaca davam etdi:

— Mənə elə gəlir ki, şəkildəki İnsanın xatirinə o, Kinzanı öz yanına sığındırar. Sən gərək Kinzanı onun yanına aparasan. Bu gün axşam yola düşməlisən və gündüz gizlənməlisən ki, Si Məhəmməd səni görməsin, əlbəttə, sabah axşamacan olmayacaqsan. Sabah səhər tezdən keçiləri otarmağa Rəhməni yola salaram, hələ ki, o vaxta kimi o yatmış olacaq, Kinzanı isə heç vaxt soruşmur, ehtiyat üçün mən onun balışını nənnisinin içinə qoyaram, əgər Fatma baş çəkməli olsa heç nə hiss etməsin. O, işdən evə qayıdana qədər qaranlıq olacaq və səni axtarmalı olmayacaq. Bir gündən sonra isə sən demək olar ki, şəhərdə olacaqsan.

Həmidin gözlərində qorxu və həyəcan alovlanırdı, lakin o təkcə bir şey soruşdu:

— Yolu necə tapacam?

— Mən bu haqda fikirləşmişəm — anası cavab verdi. — Təkcə bir yol var, ancaq oraya gedə bilərsən. Əgər əsas yolla getməli olsan, səni görərlər və həm də ora çox uzun yoldur. Dağların arası ilə düz yol kolluqdur, orada

aza bilərsən. Üçüncü yol var ki, onu seçməlisən. Çay boyunca vadinin axırınacan getməlisən. O, hündürdür, lakin onu keçmək lazım deyil. Dağın təpəsində sən o biri çayın enini-uzununu görəcəksən. Əgər bu çay boyu yolu tutub getsən, tezliklə meşədən yüklənmiş yük maşınları gedən əsas yola çıxarsan. Bəlkə, səni kimsə maşınla apardı, çünki oradan şəhərə əlli kilometrdir. Əgər heç kim aparmasa gərək ayaqla gedəsən. Allah sənə kömək olsun!

— Sonra, bəs mən nə vaxt orada olacağam? — oğlan sakitcə soruşdu.

— Haçan orada olsan — anası cavab verdi, — onda həmin o ingilis bacının evini tapmalısan. Heç kimdən soruşma, özün axtar. O, bazarın arxasındakı mehmanxana ilə üzbəüz olan küçənin lap axırında olan evdə yaşayır. Onun yanına çatan kimi başımıza gələnləri danış və Kinzanı ona ver. Qalanını o özü həll edər.

Həmid şübhə ilə anasına baxdı.

— Əgər o, Kinzanı götürmək istəməsə? — soruşdu.

Anası inamla danışdı:

— Onu götürməkdən imtina etməyəcək. O mənə demişdi ki, onun Müqəddəsi heç kimi geri qaytarmır. Mən bilirəm, öz Müqəddəsi naminə o, Kinzanı özünə sığındıracaq. İndi isə sənə keçilərin yanına qayıtmaq lazımdır, mən isə taxılı döyüb qurtarım, yoxsa Fatma hirslənər. Mən isə sənin yoluna bir neçə kökə bişirim.

Həqiqəti olduğu kimi anlamayan Həmid keçilərin yanına getmək üçün ayağa qalxdı. Onlar söhbət edənə qədər günəş artıq dağların başına qalxmışdı. Heyvanlar sakitcə otlayırdılar, çay günəş şüasından parlayırdı, sünbüllərin yetişmiş taxıl zəmisi zəif əsən küləkdən sakitcə yellənirdi — hər şey tamamilə dünənki kimi idi, lakin oğlanın gözündə hamısı başqalaşmışdı. İndi dostları, dağlar tamamilə ona yadlaşdı və onların arasında tək qaldığından vahimələndi, o artıq çayın hara axıb getdiyini də bilmək istəmirdi. Lakin heç bir qorxu hissinə baxmayaraq, ağlına da gəlmirdi ki, anasının təklifindən imtina etsin.

Həmid astadan fit çaldı. Yaxınlıqda otlayan bir neçə keçi balası onun yanına gəldi və burunlarını dizlərinə sürtüşdürdülər. O, birdən hiss etdi ki, onları istəyir və onlarsız darıxacaq. Bu həmin keçiciklərdir ki, onlara yeriməyi öyrətmişdi, yorulanda qollarında daşımışdı və hətta taxıl zəmisinə girəndə onları çubuqla vurmuşdu. Oğlan onların balaca üzünün yanındakı qulağının dalını zərifliklə qaşıdı və fikirləşdi: onları yenə də görəcəkmi? İlk dəfə idi ki, o, gələcəyi haqda düşünməyə başladı. Əlbəttə o tezliklə evə qayıda bilməyəcək, çünki atalığının ona qarşı güclü nifrəti olacaq. Həmin axşam o, keçiləri evə tez gətirdi və bütün axşamı sakitcə anasının yanında oturub Rəhmə ilə onun necə yumaq yığmalarını müşahidə edirdi. Hər ikisi cəld işləyirdi, çünki Fatma onlara nəzarət edirdi. Oğlanın ürəyi kədər və qüssədən dolmuşdu ki, anası ilə danışa bilmədi. Təkcə beş günlük ziyafəti çıxmaq şərtilə, o heç bir gecəsini də onsuz keçirməzdi. Ancaq indi uzun

müddətə ondan ayrılmalı idi. O onun dinməz-söyləməz təsəlliverici və ruhlandırıcı məhəbbətini özündə hiss etdi.

Axşam beləcə düşgünlüklə keçdi. Səma qürub zamanı alışdı və yenidən söndü. Gecə düşdü. Həmid bunların hamısına azı bir min dəfə baxıb, bu dəfə hər şey başqa cür idi. Ömründə birinci dəfə idi ki, ailə masa arxasında yığışanda o yemək istəmirdi, lakin atası heç nə hiss etməsin deyə özünü məcbur etdi. Sonra heç nə demədən çıxıb qapı ağzında uzandı, fikrində qorxu hissi ilə mübarizə apararaq gözləyirdi ki, haçan ay çıxacaq və atalığı yatacaq. Nəhayət, atası uzandı və o hələ ki, nəfəsini müntəzəm və dərindən alana qədər qulaq asdı və xoruldayana qədər gözlədi. Həmid ehmalca həsirin üstündən sürüşdü və eşidilməz addımlarla gizlincə anbara girdi. Qoca köpək qulaqlarını şəklədi, zəncirilə səs saldı. Həmid nəfəsini uddu, əgər köpək hürsə bütün planlar pozulacaq. O, itin yanında oturub, əzizləyə-əzizləyə lalcasına onun susmasını yalvarırdı. İt anlaşılmaz, lakin sədaqətlə oğlanın sifətini yaladı.

Beləcə iti qucaqlayıb anasının gəlməsini gözləyirdi. Keçilərin və döyülmüş taxılın tanış iyi onu əhatə etdi, lakin ay işığında ağ zolağa bənzəyən cığır onu xəyallara və naməlum yerlərə çəkib apardı. Anası qucağında Kinza sakitcə kölgə kimi anbarda peyda olanda yerindən sıçradı. Tam sükutla Kinzanı onun kürəyinə bağladı. Uşaq başa düşmürdü ki, nə baş verir, lakin inamla başını onun çiyninə qoydu və yenidən möhkəm yatdı. Anası iki çörək kökəni Həmidin çiyninə bağladı, hər iki əlini əllərinə götürdü və onları öpdü. O da öz növbəsində onun barmaqlarını dodaqlarının üstünə qoydu və bir anlığa onları sıxdı. Aralarında heç bir söz olmadı. Anası mülayimliklə onu özündən araladı və o darvazdan çıxıb gözdən itənə qədər dayanıb gözlədi. Sonra etdiyi hərəkətdən razılıqla boş komaya nənninin və ərinin qəzəbinin yanına qayıtdı. Həmid isə lövbər zəncirlərindən azad olmuş naməlum üzən balaca gəmi kimi öz gümüşü yol cığırı ilə yola düşdü.

VI fəsil

Bu cığır gümüşlüyündə çox qalmadı. Zeytun ağaclarının qara kölgəsində gözdən itdi, Həmidin ayağı rişələrə dolaşdı və səksəndi, amma o tez-tez irəliyə doğru getməyə davam etdi. Səliqəsiz, dağılmış kolların yanından keçərək kürəyindəki ağırlıqdan tövşüyə-tövşüyə təpənin zirvəsinə çatıb dayandı ki, axırıncı dəfə evlərinə baxsın. Buradan həyətə enmiş canlı çəpəri və bu vaxta qədər onun dünyası olan hər şeyi aydın görürdü. Nə qədər ki, hava isti idi və atalığı evdə yox idi, o, dünyada çox yaxşı yaşayırdı. Sonra o, dağ keçidini keçdi və ev gözdən itdi. Bunun əvəzində oğlanın qarşısında əyri-üyrü yollarla dağlara gedən yeni, naməlum dünya döşənirdi.

Həmid kənd qəbiristanlığının yanından keçəndə, onun vücudunu qorxu bürüdü. Bir yerdə ki, ölüm var, orada mütləq cinlər sakin olublar. O qaçmaq istədi, lakin yadına düşdü ki, yaxınlıqda üç balaca qardaşının qəbiri var, uşaqların ruhu isə hər halda kinli olmur. Birdən o fikirləşdi: bəs onlar harada yerləşir? Bəlkə balaca uşaqları qucağına götürən, o Müqəddəs sayılan İsanın onların oğrun ölümündə mərhəməti var? Bu adı o, tilsim kimi

astadan tələffüz etdi ki, birdən bu ona zərər vura bilər, anasının sözlərini yadına saldı və tezliklə sağ-salamat çaya qədər qaçdı.

Oğlan daşlıqla irəliyə doğru yoluna davam etdi. Ayaqları sıyrılmışdı və ağrıyırdı. Göz qapaqları ağırlaşmışdı və yuxulu vəziyyətdə gedirdi. Kinza kürəyində ağır yük kimi uzanmışdı və elə bil ki, hər addımda ağırlaşırdı.

Gecə başa çatmaq üzrə idi. Dağların arxasından gün işıqlaşmağa başlayırdı. İndi ona ancaq yuxarıya dırmaşmaq qalırdı. Gözləri yorğun, ayaqları yaralı, rəngi qaçmışdı və donmuş oğlan çevrilib arxaya baxdı. Bir gecəyə xeyli yol getmişdi, belə ki, axşamacan atalığı onun qaçmağını aşkar etməyəcəkdi və o, əmin-amanlıqla hələ gün işığına dağları aşa bilər, sabah isə günbatana qədər gizlənməlidir.

Bir azdan Kinza yuxudan ayıldı. Həmid iki tikə çörək kəsdi və səssizcə onu yedilər. Sonra onu kiçik çaya aparıb əl-üzünü yudu və ovcu ilə su içdi. Həmid istəyirdi ki, naməlum dostlarının yanına çatanda o, təmiz və səliqəli görünsün. Bu çox vacib idi! Çox təəssüflər olsun ki, ailəyə məxsus darağın bir hissəsini götürməyib, yoxsa indi onun saçlarını darayardı ki, baxımsız kuklaya oxşamasın. O, barmaqları ilə onun saçlarının düyününü açmağa çalışdı, lakin bu Kinzanın xoşuna gəlmədi və ona şappıldatdı. Yorğun və pis əhval-ruhiyyədə olan Həmid də eyni cavabla ona şappıldatdı, axırda qız anasını və səhər içdiyi qara qəhvəsinin verilməsi tələbi ilə ucadan bağırdı. Bir müddət onlar kiçik çayın qırağında tutqun, qaşqabaqlı, taqətsiz oturdular.

Bir azdan Kinzanın kini keçir, o əli ilə axtara-axtara özünü qardaşına çatdırır, onun dizləri üstə özünə rahat yer eyləyib barmağını ağzına soxur və onu bağışlayır.

Oğlan ümidsiz baxışlarla ona baxdı. O, çox ağır idi, Həmidin isə kürəyi yaman ağrıyırdı. Lakin getmək lazım idi, hələ ki gün o qədər də qızdırmırdı. Üzünü, əllərini və ayağını sərinlətmək üçün hər on dəqiqədən bir əyilirdi. Artıq kiçik çay arxada qalmışdı və Həmid alçaqboylu zeytunluqlardan keçməli idi. Kinza gecəni yaxşı yatdığına görə indi onun kürəyində atdanır və sürtülmüş kürəyinə bərk-bərk vururdu, gün isə daha da yuxarı qalxır, adamın başını yandırırdı. Oğlan bilirdi ki, dayanmaq lazım idi. Əgər indi harda olur-olsun uzanmasa, onda ayaq üstə yatacaq. Onun gözləri qarşısında hər şey üzürdü. Lakin harada? Qabaqda sarı ləkə gördü, ora taxıl zəmisi idi. O, yada sala bilmirdi ki, necə gəlib ora çatıb və əlbəttə, hiss etmirdi ki, tarladan yaxınlıqda təhlükəli kənd yerləşir. O, sürünə-sürünə düz tarlanın ortasına qədər gəlib çıxdı, sünbüllərin arasında uzanıb möhkəm yuxuya getdi. Sıx zəmilər onu sədaqətlə gizlətdilər.

Hər şeylə maraqlanan qıvraq Kinza belə narahat yerdə uzun-uzadı oturmağın səbəbini anlamırdı. O, evdə istədiyi yerdə gəzirdi, burada isə hər şey tikanlı kolluqdur. Bundan başqa Kinza çox acmışdı. Əvvəllər anası onu heç vaxt atmamışdı, yəqin ki, o haradasa buralardadı. Təki bu qəribə yerdən çıxaydıq. O, böyük dəsmalı özündən dartıb götürərək, gizlincə

qabağa keçib və xatasız instiklə işığa doğru irəliləməyi qərarlaşdırdı. Asanlıqla taxıl zəmisinin axırına gəlib çıxdı. Sevincindən qulaqları dəyirman daşlarının zəif səsini tutdu. Dəyirman daşı — bu ana deməkdir, ana isə — bu qan və qida, rahatlıq və təhlükəsizlik deməkdir.

Qız sevincindən qışqıraraq əllərini irəli uzadıb o səmtə yönəldi. Komanın qapısında oturmuş arvad bu qışqırığı eşidib başını qaldırdı və qorxudan dondu, elə bil qarabasma görürdü. Qətiyyətsiz addımlarla şübhəli adam ona tərəf gəlirdi. Bu əynində çirkli çitdən paltarı olan, əllərini irəli uzadıb və üzünü işığa doğru tutub gələn körpə uşaq idi. Onun saçları qalın qara kola bənzəyirdi və sarı saman qıçalarından başına çələng qoyulmuşdur. O, bütün buğda samanına bürünmüşdü və birdən asqırmağa başladı, qadın isə hələ də gözlərini ona dikib otururdu.

Dəyirman daşının hay-küyü kəsilən kimi və istiqamət verən səs eşidilməyəndə Kinza qətiyyətlə dayandı. Sonra əlini uzadıb, bircə kəlmə söz tələffüz etdi: „Ana!“

Bu gənc qadının keçən qış yeganə oğlu ölmüşdü və onu qarın altında basdırmışdı. Altı aydır yana-yana eşitmək istədiyi sözü, budur, indi uşaq qətiyyətlə dayanıb dili dolaşa-dolaşa dedi, o fikirləşmədən uşağı öz ağuşuna qamarlayıb onu əzizlədi və öpüşlərə qərq etdi. Kinza əvvəlcə müqavimət göstərdi və ağladı. O, başa düşdü ki, bu anası deyil, lakin onun əzizləyən əli güclü, etibarlı və zərif idi. Onun bədəni taqətdən düşdü və sakitcə uzanıb su istədi. Təzə anası ona bir fincan süd gətirdi və o, iki əliylə tutub axırıncı damlasına qədər ləzzətlə içdi. Sonra kömbə kimi yumurlanıb qadının dizləri üstə yuxuya getdi.

Həmid axşamüstü oyandı və uzanıb harada olduğundan təəccübləndi. Ona elə gəldi ki, o haradasa, qızılı damın altındadır, belə ki, saralmış sünbüllərin arasından günəş şüaları şəfəq saçırdı. Bütün bədəni ağrıyırdı, lakin hiss edirdi ki, yorğunluğunu alıb. Tədricən yaddaşı özünə gəlincə o tələşlə sıçradı: „Kinza hanı?“ Lakin, baxmayaraq ki, o qorxdu, bildi ki, ehtiyatlı olmalıdır. O, tarlanın axırınacan süründü və sünbüllərin arasından gizlincə Kinza gedə biləcək səmtə baxdı. O, gördüyünə çox təəccübləndi.

Gizləndiyi yerdən əlli metr aralıda bir koma var idi, kandarda isə özünü evdəki kimi hiss edən və demək olar ki, hər şeyi unudan Kinza oturub gilas yeyirdi. Onun təzə anası yanında oturmuşdu və gülümsəyərək saçlarını səliqəyə salmağa çalışırdı. Bu komanın dövrəsində bütün balaca kənd yerləşirdi.

Həmid tamamilə hərəkətsiz uzanmışdı, lakin gilasların görünüşü onun aclığını yadına saldı və o əlini çörəyə tərəf uzatdı. Çeynəyə-çeynəyə fikirləşdi ki, indi necə hərəkət edim. Oğlan utanırdı: onlar bütün günlərini itirmişdilər və Kinzanın düşmən düşərgəsinə gedib çıxması daha da pis idi, çünki hamı eşidəcək ki, qonşu kənddən qız itib. O gərək onların gözünə görünməsin.

Günəş üfüqdə zahir olanda, ay balaca kəndi işıqlandırdı və hər şey tamamilə sakitləşdi, təkcə buğda zəmisindən xışıltılar eşidildi. Səssiz

addımlarla Həmid açıq sahədən keçib komaya boylandı. Qadının əri həsirin üstündə uzanıb ucadan xoruldayırdı, özü isə onun ayaqlarının altında yatmışdı. Kinzaya həsirin üstündə yer yox idi, onu qapının yanındakı çarpayıya qoymuşdular və üstünə də keçi dərisi örtmüşdülər. Həmid əyilib onu götürdü. O, zəif nəfəs aldı və gözlərini açdı. Oğlan sakitcə onun adını çəkdi və hesab etdi ki, hər şey öz qaydasındadır: qız ona qısıldı, nə südün, nə də gilasın gücü çatmaz ki, onu qardaşına olan bağlılıqdan məhrum etsin. Baxmayaraq ki, o gününü burada yaxşı keçirmişdi, yenə də nəsə belə deyil. İndi o, qardaşının əlində təhlükəsizdir.

Beş dəqiqə bundan əvvəl qorxan oğlan bacısını özünə sıxıb, ürəyi döyünə-döyünə dik yamacla yuxarıya qalxmağa tələsirdi. Səssizcə, xəyal kimi onu xilas etdi və Kinza da özünü əla apardı. Onu kürəyinə möhkəm bərkidib, oğlan qətiyyətlə yoluna davam etdi.

VII fəsil

Dan yeri ağaranda Həmid zirvəyə çox yorğun və axsamış halda çatdı. Hətta yayda da gecələr hündür dağ aşırımında soyuq olur, Həmidlə Kinza da çox yüngül geyinmişdilər. Qız öskürməyə və asqırmağa başladı. Qardaşı o qədər yorğun idi ki, gücsüz halda külək tutmayan ispan istehkamı tərəfə sallağı çöməldi, haradan ki, növbətçilər vadini izləyirdilər və səhərin açılmasını gözlədi. İstehkamın özü və növbətçi yeri onun başının üstündə yerləşirdi. Yolun xeyli məsafəsi daraqşəkilli gedirdi, sonra üzüaşağı enirdi. Hara baxırdısa, hər yerdə dağları görürdü — günəş şüasından çəhrayı rəngdə yüksələn qayalıqlar təpə kimi cərgələnmişdi. Həmidə elə gəlirdi ki, dünyanın elə bir zirvəsindədir ki, ora insan ayağı dəyməyib.

Amma hər tərəfdən mənzərə ilə əhatə olunmuş bir yer onu qorxudurdu və hansı yolla olursa-olsun burdan qaçmağı qərara aldı. Darağın ən uzaq kənarında əsgər və müşahidə məntəqəsi olan ispan köçkünləri ağ tikili binalarda olurdular. Əgər atalığı necə də olursa polisə xəbər veribsə, axşam tərəfi sözsüz ki, onlar da bu məntəqəyə bildirərdilər ki, yolu izləsinlər. Aydındır ki, belə halda o yoldan çəkilməmişdir və kolların arası ilə düz çay

boyunca gizlincə getməlidir. Orada zeytunluqlarda bir yerdə o bir az istirahət edə bilər, günbatandan sonra isə yoluna davam edər.

Kinzanı kürəyinə bağlayıb, öz gizləndiyi yerdən yola düşərkən az qala digər istehkama doğru qalxan iki atlı ilə qarşılaşdı. Həmid key-key gözlərini onlara dikib elə bil yerə sancılmış kimi dayandı. Onların hər ikisi də onun kəndindən idi və oğlanı üzündən tanıdılar. Atlılar da gözlərini ona dikdilər. Onlardan biri yəhərdən tullanıb Həmidi tutdu və ucadan dedi:

— Bu Si Məhəmmədin oğludur! Srağagün ondan qaçan oğlandır.

Həmid fürsət tapıb onun əlindən sürüşdü və dağlardan üzü aşağı qaçdı. Onun sərt hərəkəti atı hürkütdü və o şahə qalxdı.

Atlı atı sakitləşdirənə qədər oğlan artıq uzaqlarda idi. Dala baxmağa cürət etmədən, heç bir rişələrə və tikanlara fikir verməyərək, kəsilib qanı axan ayaqları irəli daşıyır və hər an intizar içində idi ki, kiminsə ağır əli onun çiyinlərinə düşüb Kinzanı ondan zorla alacaq.

Ancaq həmin adam əlində yüyən daraqlıqda dayanıb Həmidi izləyirdi. O, əlindən gələni etdi və burnu dar, təzə sarı çəkmələri ilə tikanlı kollarla onun dalınca qaçmağa hazırlaşırdı. Əvvəl-axır bu onun işi deyildi. O çiyinlərini çəkib ata oturdu və yoluna davam etdi, ispan düşərgəsindəki polisə məlumat apardı. Qaçanı qovmaq heç də onun işi deyil, bu onların işidir.

Ancaq zavallı Həmidə elə gəlirdi ki, onu qovub tutacaqlar və o, böyük səylə qaçırdı, Kinza isə silkələnməkdən tamamilə yorulmuşdu və onun kürəyində qırıq-qırıq səslərlə inildəyirdi. Həmid qurtulduğunu bilmirdi ki, xilas olub və dayanmağa qorxurdu, lakin birdən ayaqları rişələrə ilişdi və üzüqoylu yıxıldı. Heç bir saniyə də keçməmiş başdan-başa bulaşmış və göyərmiş halda tez sıçrayıb durdu, həmin dəqiqə də qarşısındakı qayalıqda çıxıntı gördü. O, kor kimi səndələyə-səndələyə ora tərəf istiqamət götürdü və dövrə vurub keçilər üçün tikilmiş damın yanındakı qamışdan hörülmüş komada oldu. Həmid onu izləyənlərin hər dəqiqə qayalıqların arxasından çıxacağından qorxaraq, yeganə sığınacaq olan bu damın qaranlığında cəld gizləndi. Həmid divarın bir tərəfində üst-üstə yığılmış saman qalaqlarının arasında gizləndi. Qovulmuş dovşan kimi ağır-ağır nəfəs alaraq və qorxudan titrəyə-titrəyə yarım saata qədər orada uzandı.

Nəhayət, onun ürəyi nisbətən sakit döyünməyə başladı və o, samanlıqdan çıxıb vəziyyət barədə düşündü. Bayırda sakitlik idi. Yalnız yaxınlıqda yerləşən evdən balaca uşaqların şən səsləri və vedrə taqqıltıları eşidilirdi. Ancaq oğlan özünü çox xəstə hiss edirdi: onun bütün bədəni istidən yanır, başı dəhşətli ağrıyırdı, qolları və ayaqları ağırlaşmış və keyimişdi. Dili ağzında qurumuşdu və güclü istilik canını üzürdü. Zavallı görünən Kinza da su içmək istəyirdi. O, ac pişik balasının acınacaqlı miyoldamasını xatırladan səslər çıxarırdı və qardaşının heç bir yalvarışları onu səsini kəsməyə məcbur edə bilmirdi. Əgər kimsə dama girmiş olsaydı, əlbəttə, onun səsini eşidərdi. Oğlan naümid dönüb arxasına baxdı və keçi ilə balasını gördü. O dəqiqə əhval-ruhiyyəsi qalxdı: o, problemin həllini tapdı. Həmid keçilərlə işləməyə

adət etmişdi, balası olan ana keçinin isə çoxlu südü olmalıdır. Həmid xəlvətcə qapıya tərəf keçib, ehtiyatla başını çıxarıb baxdı və gildən olan saxsı qırığını götürdü. Sonra komadan gözünü çəkmədən keçinin qulaqlarını sığalladı, o da ona peşəkar kimi inanaraq əllərini yaladı. Beləliklə onlar dostlaşdılar. Sevinclə təzə, isti, köpüklü südü bacısına gətirdi. Kinza başını samanlıqdan çıxarıb axır damlasına qədər südü içdi və yenə də istəyərək zarıldadı. Saxsı qırığına süd az yerləşdiyindən Həmid bu üsulu bir neçə dəfə təkrar etdi və həm də ikisi də çox ac idilər və dodaqları susuzluqdan qurumuşdu. Səxavətli keçi də bolluca süd verir, onlar quru çörəyi südə batırıb yeyir və qarınlarını doydururdular. Belə ki, bu vaxt balaca bir qız keçilərə ot vermək üçün dama girdi. Həmid nəfəsini udub Kinzanı azca yerə əydi və qız alaqaranlıqda heç nə hiss etmədi.

Keçini sağarkən yayılan həyəcandan ayaqlarındakı ağrı, vücudundakı titrəmə yatmağa imkan vermədi və Həmid səhərəcən gözü açıq uzandı. Bundan başqa o, Kinzanın gəzintiyə meyilli olduğundan yatmağa qorxurdu. Onu özünə bağlamaq üçün bir şey axtarırdı, lakin heç nə tapmadı və bayıra çıxmağa da cürət etmədi.

Birdən onun fikri dumanlandı, qorxu hissləri dağıldı və onu mürgü bürüdü. Bacısını özünə sıxıb yatdı.

O, yuxuda dincəldi. Kinza onun dərin, müntəzəm tənəffüsünü eşitdi, başa düşdü ki, indi nə istəsə onu edə bilər və qardaşının ağuşundan azad oldu. O, özlüyündə anlamırdı və qətiyyən hesablaşmırdı ki, qardaşını bu havasız və narahat dama bağlayan nədir. Qəzəblə ayaqlarını sürüyə-sürüyə buradan uzaqlaşdı. Onun dünənki səyahəti bilavasitə onu anasına aparırdı. Buna baxmayaraq, bu gün onun bəxti gətirdi. Bir neçə qətiyyətsiz addım atıb, keçilərlə qarşılaşdı. Tanış iydən və kobud tükündən onun heyvan olduğunu bildi. O özünü evdəki kimi hiss etdi. O, keçini sığallamağa başladı, qulaqlarını əlilə yoxlayıb tapdı və onları qaşıdı, sonra balaca əlləri keçinin burnuna tərəf hərəkət etdi. Belə ki, axtardığını tapdı — səmimi mühit və uzanmağa yumşaq yer — o, keçinin saqqalının altında özünə yer elədi və kömbə kimi uzanıb yatmağa hazırlaşdı. Əlbəttə, balaca çəpiş də qısqanclıqla anasına sıxılaraq, burnunu onun burnunun altına soxdu. Beləliklə, yeni doğulmuş çəpiş və itmiş uşaq, hər ikisi də vəziyyətlərindən razı qalaraq birlikdə uzandılar.

Vaxt gedirdi. Çox keçmədi əlində vedrə ev sahibi dama girdi ki, keçini sağsın. Əvvəl o, fikirləşdi ki, keçinin ikinci balası olub, lakin diqqətlə baxandan sonra balaca qızcığazı gördü.

— İlahi, əfv et! — deyə ucadan qışqırdı. — Bu ki, uşaqdır!

O, təəccüblə ətrafa boylandı və Həmidi gördü.

— İlahi, əfv et! — təkrar dedi. — Burada yenə də bir nəfər var.

O, qətiyyətlə ona tərəf getdi və yalın ayaqla ora soxuldu. Həmid oyandı qorxudan oturmağa çalışdı. O, hələ tam oyanmamışdı, lakin dərhal başa düşdü ki, tələyə düşən siçan kimi tutulub. Onun başı hələ də ağrıyırdı və özünü saxlaya bilməyib ağladı.

— Qurtar! — deyərək, qadın onun kürəyinə vurdu. — sən bizim kənddən deyilsən. Kimsən sən və haradan gəlmisən?

Həmid göz yaşlarını saxlamağa çalışaraq ona baxdı. Düzünü demək istəmədi, ancaq indiki şəraitdə aldatmaq yaxşı olmazdı və o, təmiz ürəklə hər şeyi olduğu kimi danışdı. Qadın diqqətlə ona qulaq asır və başını yelləyirdi. O danışıb qurtarandan sonra, qadın razılıqla ona baxıb, danışdıqlarında həqiqətə uyğunluq gördü. O özü iki dəfə ərdə olmuşdu, birinci əri ona və uşaqlarına qarşı çox zalım olmuşdu. Onun on beş yaşı olanda onlar ayrılmışlar, ona görə də o, ümumiyyətlə bütün kişilərin qanmaz olması haqda çıxış etməyə hazırdı. Öz uşağının xilası üçün qorxmadan çox şeyə risk edən bu zavallı tanınmaz qadının halına acıdı. Bundan əlavə, onun xeyirxah ana ürəyi var idi, oğlan isə şübhəsiz xəstə idi.

Qadın keçini sağdı və sağ əlində vedrə və sol əlində Kinza evə yollandı, Həmid isə axsaya-axsaya onların ardınca gedirdi.

Komanın içərisi çox qaranlıq idi. Üç kiçik uşaq qaynar gil qazanın ətrafında oturub həsrətlə analarını gözləyirdilər. Bir azdan əri gəldi və hamısı masa arxasında şam yeməyinə yığışdılar.

Çörək və süddən başqa iki gün heç nə yeməyən Həmid böyük iştahla yeməyin üstünə atıldı və hər şey ona olduqca dadlı gəlirdi. O, hiss etdi ki, necə gücü özünə qayıdır. Heç olmasa bir gecə, hər halda təhlükəsiz və himayə altında olacaq. Bü düşüncədən hətta başının ağrısı belə dayandı. O, qarşısında duran qadına göydən düşmüş mələk kimi baxırdı.

Şam yeməyindən sonra üç qızcığaz keçi dərisinə bürünüb uzandılar və o saat yuxuya getdilər.

Ataları keçiləri sağmaq üçün həyətə çıxdı, arvadı da danışmaq üçün onun ardınca çıxdı. Geri qayıdanda Kinza ilə birlikdə odun yanında qısılıb oturmuş Həmidə yaxınlaşdı və dedi:

— Mənim ərim məmmuniyyətlə sənə kömək etmək istəyir. O, sabah ərikləri bazara aparmaq üçün hazırlaşır, yük maşını tutub sizi də özü ilə götürəcək. Əgər kimsə soruşsa, de ki, mənim bacım uşaqlarısınız. Mənim bacımın sən boyda oğlu və Kinza kimi qızı var. Yük maşını sizi baş yolda şəhərin iyirmi kilometrliyində düşürəcək, bəlkə sizi daha kimsə apardı, əgər aparan olmasa, onda piyada getməlisiniz — bu da çox uzaq deyildir.

O onun razı, alovun istisindən qızaran sifətinə baxıb, birdən ona yazığı gəldi, o necə balaca və köməksizdir! Çox illər bundan əvvəl, Allahın etdiyi kimi, o, bir cam su və dəsmal götürdü və əyilib onun yaralı ayaqlarını yudu. Sonra təmiz ensiz əsgi parçası cırıb, zeytun yağında islatdı və onun ayağını sarıdı. Bunlar hamısı qurtarandan sonra, keçi dərisinə bürünmüş bacısı ilə bir yerdə uzandı və onun da üstünə bir dəri örtdü. Həmid heç nədən qorxmadan, minnətdarlıqla o dəqiqə yatdı.

„Mənim adım naminə kim bu uşağı qəbul edərsə, Məni də qəbul edər“ — deyən Allahı tanımayan və Allah məhəbbəti barəsində bilməyən bu qadın ürəyinin çağırışına əməl etmişdi.

VIII fəsil

Ertəsi gün axşamüstü Həmid uzun müddət yol gedib yetişdiyi şəhərin divarları arasında dayandı. O özünü heç vaxt bu qədər atılmış və tənha hiss etməmişdi. Səfəri zamanı da o tənha idi, ancaq belə kəskin dərəcədə bunu hiss etməmişdi, çünki o, dağlara sığınmağa adət etmiş çoban idi.

Səma və adamsızlıq heç bir dəhşəti özündə əritmirdi və o öz mühitilə zənginliyə adət etmişdi. Lakin insanların çoxluğu şəhər qapısında bir-birini itələyən qatırların, keçilərin, cındır paltarlı uşaqların izdihamı onu qorxudurdu.

Həmid bundan sonra necə hərəkət edəcəyi barədə düşünərək, ətrafındakıları seyr edə-edə şəhər qapısının sərin kölgəsində dayanmışdı. O, anasının: „heç kimdən heç nə soruşma“ məsləhətini yadına saldı. Beləliklə, qərara aldı ki, anasının kifayət qədər başa saldığı evin yerini heç kimə müraciət etmədən tapacaq. Bir də fikirləşdi ki, qaranlıq düşəndə gözə görünmədən şəhərə girmək daha çox məsləhətdir. Lakin qaş qaralanda dükan sahiblərinin küçənin iki tərəfində də yanan işıqları söndürməsinə baxmayaraq, küçəni qət edənlərin hamısının gündüzdəki kimi görünməsini

müşahidə etdi. Görünür bu dəhşətli yerdə qaranlıq və gizli sığınacaq olmur. Ancaq nə qədər tez Kinzadan azad olarsa, o qədər yaxşıdır.

Beləliklə, Həmid dükanların vitrinlərindəki heyranedici mallara: al ipək və yun parçalara, rəngbərəng nabatlara, müxtəlif çeşiddə meyvə və çörək məmulatlarına həsədlə baxa-baxa cəsarətsiz, daş döşənmiş küçə böyunca gedirdi. Ona elə gəlirdi ki, bunlar hamısı nağıldır.

Məftunluqla, parıltılı gözlərilə bütün bu gözəlliyə diqqətlə baxdı, doğrudan da bu sehirli şəhər hər yerə şəfəq saçır və öz cəlalı ilə hamını heyran edir, burada heç kim xəstələnmir, əzab çəkmir, aclığın nə olduğunu bilmir, soyuqdan donmur. O, tənhalığı və qorxunu unudub, diqqətlə yol keçənlərin üzünə baxırdı, lakin bir nəfər də olsun onun üzünə gülmədi, heç kim onun bu şəhərə girməsini alqışlamadı.

Beləcə, o, sularını hər tərəfə sıçradan fəvvarəyə gəlib çatdı. Orada əlində vedrə olan bir qızla rastlaşdı və onun çox xeyirxah olduğunu zənn edib, ondan bazarın arxasında yerləşən mehmanxananın yolunu öyrəndi. Qız da ona o istiqaməti göstərib, evlərinə yollandı.

Mehmanxana çox da uzaqda deyildi. Alaqapıdan keçən yol çoxlu qatır və eşşəkləri olan həyətə aparırdı. Həmid burada bazara mal gətirən çoxlu adam gördü. O, çox istəyirdi ki, keçib həsirin üstündə istirahət etsin, lakin mehmanxanada yer pulu ödəməyə heç nəyi yox idi. Bundan əlavə o duydu ki, bu axşam işlərini qurtarmalı idi.

O, mehmanxana ilə üzbəüz küçə ilə keçməli idi. Bu maneəyə rast gələn bütöv divarları olan kəsə yol idi, ev isə anasının dediyi kimi soldakı ən axırıncı idi. Tapmaq çətin deyildi və Həmid inamlı addımlarla irəliləyirdi. Küçə bir az döngəli idi və o dayandı. Küçənin axırında gördükləri onu çox təəccübləndirdi. Küçə işığının zəif fənərində soldakı axırıncı evin qabağında onun kimi çirkli və cırıq paltarlı bir dəstə oğlan uşağı dayanıb nəsə gözləyirdilər. O onları seyr edənə qədər evin qapısı açıldı və işığın al şəfəqləri küçənin döşənmiş hissəsinə düşdü. Uşaqlar bir-birlərini itələyərək irəli cumdular və arxası zərli olan qapıda yox oldular. Bu vaxt o arxasında addım səsləri eşitdi və evdə gizlənmiş daha üç səfil yanından sürətlə ötüb keçdilər.

Bu vaxt hələ də baxışlarını küçədə şəfəq saçan işıqlardan çəkmədən, kölgə kimi qabağında dayanıb durduğu evdən nəğmə səsi eşidildi. Əksər oxucular üçün qulaq batıran və musiqisiz görünən bu nəğmə, Həmid üçün nə qədər ahəngdar səslənirdi.

Nəğməyə aludə olan Həmid, artırmaya tərəf daha da yaxınlaşdı və ehtiyatla içəriyə boylandı. Qucağında balaca uşaq, ətrafında isə əlləri yuxarı qalxan qız və oğlan uşaqları çəkilmiş balacaları sevən həmin adamın divarda rəsmini görüb sevincdən və həyəcandan nəfəsi kəsildi. Rəsmə baxıb gülümsədi və küçədə gedən qaraqabaq simaları yadına salıb, bu Adamın onların heç birinə oxşamadığını gördü. Fikirləşdi ki, əlbəttə, o, Kinzanı da şəkildəki uşaqlar kimi qarşılayardı.

Bəs, bu səfil oğlan uşaqları kimlər idi, nə üçün bura gəlmişdilər, nə oxuyurdular? Onları görmürdü, lakin qadının səsini eşidirdi. O var qüvvəsilə musiqini qavradı ki, sözləri ayırd etsin. Bu vaxtı müsəlman məktəblərində Quranın ayələrini necə əzbər öyrədirdilərsə, burada da uşaqlar onlar kimi nə isə xorla deyirdilər. Nəhayət, onların son dərəcə gözəl, hərarətli sözlərini ayırd etdi və hətta Quranda da belə kəlmələrin olmadığını anladı! „Mən dünyaya işığam, kim Mənim ardımca gələrsə, o qaranlıqda gəzməyəcək, daima həyatda işığı olacaq.“ Bu nə demək idi? Onlar bu ayəni üç dəfə təkrar etdilər. Həmid də onlarla birgə kəlmələri pıçıldadı və yaddaşında həkk etdi ki, onlar haqqında sonra dərindən düşünsün. İndi onun qarşısında Kinza ilə nə etmək problemi dururdu. Əgər bu uşaqların hamısı ingilis bacısına məxsusdularsa, onda, əlbəttə, daha artıq heç kimi istəməz və heç bir qızın bu evə girmədiyindən, ingilislərin ancaq oğlan uşaqlarına üstünlük verməsini yəqin etdi. Əgər o, qapını döyüb Kinzanı hədiyyə kimi verməli olsa, onun şansı çox azdır.

Qəfildən başına belə bir plan gəldi və sözsüz, bunun uğurlu olacağına inandı, çünki anası demişdi ki, şəkildəki Müqəddəs indiyə kimi heç kimi rədd etməyib. O, sadəcə olaraq, Kinzanı gözlənilməz sürpriz kimi dəhlizdə qoyacaq və necə bacarır qoy özünü elə təqdim etsin. Əgər bu bacı həqiqətən öz Müqəddəsinə oxşayırsa, hələ gecə ikən belə balaca, köməksiz canlı vücudu küçəyə atmayacaq.

Həmid narıncı işıq şüalarının üstündən sıçrayaraq, yaxındakı zibil topalarının yanında özünə yer elədi. Orada Kinzanı oyatmağa başladı, hələ ki, o tamamilə ayılmamışdı, ciddiyyətlə ona dedi:

— Kinza, mənim balaca bacım, mən indi səni burada oturdub tək qoyacaqam, sən isə çox sakit otur və ağlama, əgər ağlasan, xala gəlib səni döyəcək. Əgər ağlamasan, o, tezliklə gəlib sənə şirin konfet verəcək.

Belə danışığı Kinza yaxşı başa düşürdü. O biliridi ki, döyülmək nə deməkdir, sakit oturmaq istəməyəndə və istədiyini nadir hallarda alanda ağlayırdı. Çox ac olduğundan ondan tələb olunan hər şeyə tabe olurdu. Həmid onun saçlarını sığalladı, üst-başını bacardığı qədər səliqəyə saldı, sonra solğun çiçək çələngini onun əlinə verdi və onunla birlikdə artırmada gizləndi. O bir az da qapını açıb onu dəhlizdə oturtdu. Evin içərisində tam sakitlik idi. Onun boğazı qəfildən qurudu, gözləri isə yaşla doldu. Kinza artıq heç vaxt ona məxsus olmayacaq və o indi başa düşdü ki, necə güclü məhəbbətlə onu sevir. Öz sevgisinin sonuncu nişanəsi olaraq, cibindən axırıncı çörək tikəsini çıxarıb onun əlinə verdi. Beləliklə, onu ayaqlarını bardaş qurub oturmuş vəziyyətdə, saçları dağınıq, paltarı əzik, əlində solmuş lalələr və köhnə, quru çörək tikəsi orada qoydu. Göz yaşları içərisində o yenə də rəsmdəki həmin Adamın üzünü gördü və deyəsən O, Kinzaya baxır və gülümsəyirdi. Bu onu sakitləşdirdi.

Küçəyə aparan cığır boyunca oğrun-oğrun getdiyi zaman üç dəfə eşitdiyi sözləri yadına salmağa çalışdı: „İsa demişdi: Mən dünyaya işığam...qaranlıq

əvəzinə siz həyatda işıq əldə edəcəksiniz.“ Nəsə, bu səpkidə və bu nə demək idi? Dünyaya işıq nə idi? O, komalarındakı lampanı və divarda alovlanan kölgəni təsəvvürünə gətirirdi. O, ay işığını, axan ulduzları və dağların ucalığından dan yerinin necə sökülməsini yadına saldı. Ay, ulduz, günəş, şəhər küçələrinin narıncı işıqları — indi bunlar hamısı sönmüşdür. O, qaranlıq xiyabanda tənha və biçarə oturmuşdu. Amma İsa demişdir ki, qaranlıq əvəzinə işıq əldə edə bilərsiniz „Mən dünyaya işığam“. Daima qaranlıqda olan Kinzanı yadına saldı. Bəlkə bu işıq ona müvəffəq olacaq? Bunlar hamısı nə deməkdir? Nə olardı, ətrafı belə qaranlıq, özü də belə ac olmayaydı. Nə olardı, Kinzanı qoruya biləydi və indi evə, anasının yanına qaça biləydi.

Birdən onun fikirləri dağıldı. Küçədə bir-birlərinin sözlərini kəsən, ehtiraslı, ucadan danışa-danışa gedən bir dəstə oğlan uşaqlarını gördü və Həmid təkcə onların qırıq-qırıq cümlələrini tuta bildi: „O kimdir, belə balaca? Bəs, anası haradadır?“ Tezliklə onlar gözdən itdilər və küçədə yenə də sakitlik yarandı.

Orada nə baş verdiyini öyrənmək məqsədilə, gizləndiyi yerdən çıxdı və xəlvətcə geriyə, zibil komasına tərəf keçdi. Onu ötürdüyü qapı bərk-bərk bağlı idi və içəri sakitlik idi. Təkcə yuxarı pəncərələrdən işıq düşürdü. Görəsən, nə baş verib?

Həmid küçəni keçdi, üzbəüz binanın divarına söykənib diqqətlə pəncərəyə baxdı. O dayanan vaxt işıq düşən pəncərədən uşağı sinəsinə sıxıb dayanan qadın qaməti göründü. Uşaqda heç bir qorxu əlaməti yox idi, o nə dartınır, nə də qışqırırdı. Ona tərəf əyilmiş simanı yoxlamaq üçün əllərini yuxarı qaldırıb sakitcə yatmışdı.

Həmid ona verilən tapşırığı və öz andını yerinə yetirdi. Kinza xeyirxah əllərə düşmüşdü və bura onun üçün çox yaxşı idi.

Hara getməyi bilməyərək o, oğrun-oğrun zibil komasına tərəf geriyə gəlir, divara sıxılıb öz köhnə cındırlarına bürünərək, balış əvəzinə əlini başının altına qoyur və bərk yuxuya gedir. Yuxuda görür ki, güclü əllər inamla Kinzanı qaranlıqdan çıxarıb naməlum istiqamətə aparır. Bu həmin qadının, yoxsa şəkildəki Müqəddəsin əlləri idimi, bunu başa düşə bilmədi. Yalnız bir şeyə tam əmin idi ki, yanan işığı heç vaxt sönməyəcək və etibarlı əllər Kinzanı artıq heç vaxt buraxmayacaq.

IX fəsil

Ertəsi gün səhər tezdən uzun müddət narahat vəziyyətdə uzanıb yatan Həmid donmuş halda oyandı. O özünü ehtiyatsızlığına görə danladı ki, bu evə yaxın yerdə yatıb qalıb. Düşünəndə ki, Kinzaya yaxın olub sakitləşirdi. Maraqlıdır, görəsən oyanıb və nə ilə məşğuldur?

Həmid səhər tezdən küçəni bir az keçib boş bazar meydanına çıxdı. Nə etməli, hara getməli? Şübhəsiz, Kinzanı orada yedizdirəcəklər və axırıncı tikə çörəyi ona verməyinə heyfsləndi. Şəhər artıq ona sehirli görünmürdü. Bir neçə avara məbədin pilləkənlərində möhkəm yatmışdı. İndi hər şeyi yerinə yetirən oğlan fikirləşdi ki, daha nə etməlidir və özündə zəiflik və yorğunluq hiss etdi. O, ev həsrətilə bazar meydanının ortasında durmuşdu.

Birdən onun qulağına tanış səslər — leyləklərin kəskin harayı və böyük qanadlarının cəld hərəkəti gəldi, vaxtilə doğma, əziz dağlarında sürünü naxıra qovan zaman gəlib başları üzərindən belə keçərdilər. Quşların bu görünüşü onun tənhalıq hissini bir az yumşaltdı, çünki leyləklər onun doğma evinin bir hissəsi idi. Yalnız onun kəndində özlərinə damda samandan

yuva qurardılar, burada isə — köhnə boz istehkamın qülləsində yuva qurmuşlar.

Həmid gözünü quşlardan çəkib, iri qədim hasara baxdı. O, bağa aparan yolun alaqapısının keçidi ilə üzbəüz dayanırdı. Darvaza geniş açılmışdı və elə bil ki, onu saxlayacaq bir adam yox idi. Həmid meydanı keçib, pilləkənlərlə qalxaraq ayaqlarının ucunda qapıya tərəf getdi. Həyatında görmədiyi gözəl bir yerdə dayandı. Bu boz darvazaları olan dörd tərəfi də sarmaşıqla əhatə olunmuş dördkünc bağ idi. Bağın ortasında ətrafı yaşıl çəmənlik və çoxlu ətirli gülləri olan rəngarəng çiçək ləki ilə əhatə olunmuş fəvvarə var idi. Antirrium, alabəzək bənövşə çiçək ləklərində yetişmiş, onların arxasında isə qızılgül kolları və naringi ağacları çiçəklənmişdi. Hava ətirli iylə dolmuşdu. Həmid qolları çarpazlaşdırılmış halda və bu gözəlliyi özündə mənimsəməyə çalışaraq yarım saata qədər ovsunlanmış kimi dayandı.

Təzəcə günəşin ilk şüaları görünməyə başladı və bağ bir anda şəklini dəyişdi: qızılgüllərin üstündəki şeh damcıları gümüşü rəngə boyandı, naringi ağaclarının çiçəkləri isə daha da əlvanlaşdı. Gözqamaşdırıcı görünüşdən Həmid gözlərini sildi və dünən axşam eşitdiyi, demək olar ki, yaddan çıxmış sözləri bu səhər ilk dəfə yadına saldı: „İsa dedi: Mən dünyanın nuruyam... heç bir qaranlıq... həyat işığı“. Sevinc dalğaları oğlanı bürüdü. O, hətta yüksək əhval-ruhiyyədən ucadan qışqırdı.

Lakin təəssüflər olsun ki, şəhər qapısından xəlvəti gələn keşikçilər onun bu şad vəziyyətini dağıtdılar. Belə ki, bu bağ şəhər zadəganlarına məxsus olduğuna görə Həmidin orada durmağa ixtiyarı yox idi. O hələ bilmirdi ki, şəhərdə bütün üst-başı tökülmüş, hətta fağır uşaqlara da şübhə ilə baxırlar.

Pərt halda yavaş-yavaş gedib çıxışın o biri qapısından çıxdı və meydanda dayandı. Onun arxasında hansısa bina ucalmışdı. Bu adi mehmanxana Həmidin təsəvvüründə saraya bənzəyirdi.

Şəhər oyanmağa başlayırdı: köşk sahibləri bənd qapılarını açır, çobanlar isə keçi südü satırdılar. Həmid dayanıb onların hamısını seyr edən vaxt burnuna çalınıb qızardılmış xəmirin və isti yağın iyi gəldi. O, elə ac idi ki, elə bil içərisində nəsə qıvrılırdı və səbirsizliklə boylanıb iyin haradan gəldiyini öyrənirdi. O, qabağında dayandığı çadırın içərisində, bir nəfər dərin daş tiyanın içində yağda xəmirdən halqalar qızardırdı. Həmid cəlbedici iy gələn tərəfə bir az da yaxınlaşdı və qəfildən ağlına bir fikir gətirdi. O, cəsarətlə həmin adama yaxınlaşıb kömək lazım olub-olmadığını soruşdu. O adam başdan ayağacan onu süzdü. Onun bu səhər nədənsə köməkçisi gəlməmişdi və o, kömək üçün rastına gələn hər hansı ilk oğlanı götürməyə hazır idi, lakin bu oğlanı o heç vaxt görməmişdi. Bəlkə oğrudur və yaxud nəsə bu səpgidəndir? Hər halda taxta hasarı qaldırdı və Həmidə içəri girməyə icazə verdi.

— Bu körükləri götür və od qala! Əgər sənə məxsus olmayan şeyləri götürsən, bil ki, polis şöbəsi üzbəüzdür.

Həmid çömələrək üfürməyə başladı. O, özünü çox yaxşı hiss edirdi. Hava isti idi, alovun şölələri isə üzünü yandırırdı. Zavallı bilmirdi ki, ona qədər çoxları bu cəzaya dözməyiblər və onun səbirli və dözümlü olmasından ev yiyəsi razı idi. Od qızışırdı və tiyandakı yağ qaynayır və çırtlayırdı. „Bəsdir“ — sahibinin səsini uzaqdan eşidib, çətinliklə ayağa durdu və yorğunluqdan yırğalana-yırğalana ona tərəf getdi.

— İndi gəl burada dayan və bu bublikləri qamış çöpünə keçirt — deyə sahibi əmr etdi.

Həmid masaya söykəndi və məmnun oldu ki, indi heç olmasa təmiz hava uda bilər. Onun üçün bu tənəffüs böyük yüngüllük idi. O, barmaqlarını yandıra-yandıra, lakin buna əhəmiyyət vermədən olduqca cəld işləyirdi. O, həddən artıq ac idi və aclıqdan mədəsində ağrıdan başqa heç nə hiss etmirdi. O, cır-cındır içində onun yanında avaralanan bir dəstə oğlanların xəbis gözləri ilə ona necə baxdıqlarını görmürdü.

O, artıq iki saata yaxın idi ki, işləyirdi və gözlənilmədən sahibi soruşdu:

— Bu gün səhər yeməyi yemisən?

— Yox, nə bu gün, nə də dünən axşam heç nə yeməmişəm — deyərək cavab verdi.

Sahibi ona bir neçə dənə qızılı rəngə çalan isti bublik verdi. Dərindən ah çəkib onlardan birini dişlərinin arasına soxdu. Oy, necə də dadlıdır!

Lakin körpüdə oturan oğlanların qara gözləri birdən düşmənçiliyə çevrildi. Onlar da ac idilər, arzu olunan yeri isə bu gəlmə tutmuşdu.

Yağda qızardılmış bubliklər səhər yeməyi olduğu üçün sonra çadır bağlanırdı. Sahibi Həmidə dedi ki, yaxşı işlədi və istəsə sabah səhər tezdən yenə gələ bilər. O ona xırda pul verdi və Həmid özünü balaca padşah hesab edərək, öz varını nəyə xərcləyəcəyini qərarlaşdırmadan xüsusi görünüşlə bazara getdi. O, bir topa yaşıl yapışqan gördü və birini Kinzaya almaq istədi. Lakin ola bilsin ki, onun artıq yaşıl yapışqanlara ehtiyacı yoxdur və özünün təzə, rahat yerləşdiyi evdə bəlkə də onları tamamilə unudub. Göz yaşlarından boğularaq nəfəsi kəsilirdi. O, qətiyyətlə onun haqqında düşünməyi özünə qadağan etdi və diqqətini bulka bişirilən yerə yönəltdi. Bu vaxt yanında səs eşitdi:

— Sən kimsən?

Həmid çevrildi və təqribən özü yaşında başı qırxılmış və çirkli paltarı isə hansısa ağ qənd kisəsindən tikilmiş bir oğlan idi. Balaca, qara qaməti vardı, lakin qara gözləri aydın və ağıllı görünürdü və Həmidə dostyana baxırdı.

Həmid cəsarətlə onun üzünə baxıb, — mən kənddənəm, — deyə cavab verdi

— Şəhərə nə üçün gəlmisən, valideynlərin hanı, harada qalırsan?

— Bura iş axtarmağa gəlmişəm, valideynlərim rəhmətə gedib, özüm isə küçədə qalıram.

Ayşi adlı balaca vətəndaş razılıqla başını yelləyib, şən səslə dedi:

— Mənim də anam yoxdur, atam isə dağlara gedib. Mən də küçədə

qalıram. Sahibinin verdiyi pullara çörək al və tikələrlə bizə payla. Onda sən bizim dəstədə olarsan və biz sənə şam yeməyinə hara getməyi göstərərik.

Onun inandırıcı tonu və yurdsuzluğunu belə şən etiraf etməsi Həmidi məyus etdi. „Sən bizim dəstədə olacaqsan“, — gözəl sözlərdir. Həmid çörək aldı və pulun qalan hissəsini də turş qara gavalı qurusu almağa xərclədi. Sonra himayəsində olanları meydanın ortasındakı evkalipt ağacının altına yığıb, bütün dəstəni kölgəlikdə yerləşdirdi. Onlara yemək payladı və onlar acgözlüklə onun üstünə atıldılar. Həmid utancaqlığından öz nailiyyətindən bir az aralı oturdu və bir nəfər də olsun ona „sağ ol!“ demədi, onun bu ənamı öz təsirini göstərdi; həmin gündən o həqiqətən, onların dəstəsinin üzvlərindən biri oldu.

Bu çox qəribə uşaq yığıncağı idi və o, həmin gün onlara sadiq olacağına ürəyində and içdi. Bu heç vaxt, heç kim tərəfindən sevilməyən uşaqların ümumi düyünlə bərkidilmiş yığıncağı idi, burada evsizlik, səfalət, yoxsulluq var idi, onların paltarları cındır və əzik formadadır. Onlar kobud, cürətli və hiyləgər olub, taleyin ixtiyarında qalmışlar. Oğurluq, riyakarlıq, söyüşkənlik — bunların hamısı onların adəti olmuşdur. Azca əldə etdikləri hər şeydən ləzzət alırdılar.

Həmid səssizcə onları müşahidə edir və məğrurluqdan şişib çatlayırdı ki, onların arasında oturmuşdu. O heç vaxt bu cür oğlanlarla qarşılaşmamışdı və hesab edirdi ki, onlar sadəcə olaraq qəribədirlər — qoçaq və azaddırlar. Dəlicəsinə istəyirdi ki, onlar kimi olsun və onlara yaxın gəldi. O öyrəndi ki, onlar yaşamaq üçün müxtəlif yollarla pul qazanırlar. Bəziləri həftənin müəyyən günlərində dəzgah arxasında işləyir, digərləri onun kimi, çadırlarda bublik bişirənlərə kömək edirlər. İmkan düşəndə dilənçiliklə və ya mehmanxanaya gələn turistlərin yükünü daşımaqla, ya da avtomaşınları qorumaqla məşğul olmuşlar. Bəziləri ev sayılan daxmalarda yatır, digərləri isə məscidə gizlincə girirdilər. Həyat dəyişkən və darıxdırıcıdır. Gün ərzində həqiqətən güvənməli olan yeganə hadisə ingilis bacısının evində şam yeməyidir.

İndi onlar qızğınlıqla axşamüstü nə baş verdiyini müzakirə edirdilər. „Bu balaca tanınmaz qız idi“ — onlar deyirdilər, — „və heç kim bilmir ki, o haradan gəlib. Qız əlini ingilis bacısına uzadaraq, anasını çağırır və başqa heç nə demək istəmirdi. İngilis bacısı onu evinə götürdü, sabah isə valideynlərini axtaracaq.“

— Bəs, əgər onları tapmasa? — balacalardan kimsə soruşdu, — yəni onu küçəyə atar?

Ayşi tez etiraz etdi:

— O bunu etməz!

— Niyə, sən bilirsən? Niyə atmaz? Bu ki, onun uşağı deyil! — yerdə qalanlar da danışdılar.

— Ona görə ki, onun təmiz ürəyi var! — Ayşi sadə və təəccübləndirici cavab verdi.

X fəsil

Günün qalan hissəsi kifayət qədər xoş keçdi. Ayşi məmnun və məftun olduğu Həmidi şəhərdə gəzdirir, diqqətəlayiq yerləri göstərirdi. Yüksəkliyin birindən Həmid qayalıqdan şırıldayaraq çıxan çeşmənin yarğanlardan axmasını gördü. Quraqlıq vaxtı başqa qaynaqlar qurumuşdu, çox dərinlikdən çıxan bərabər şırıltılı, kifayət qədər soyuq olan bu su isə insanları sevindirirdi. O bütün ətrafı suvarır və şəhərin çoxsaylı quyularını su ilə təmin edir. Həmid indi başa düşdü ki, burada nəyə görə çəmənliklər yaşıl, taxıl zəmiləri isə qızılıdır.

Günorta onlar mehmanxananın yanında fırlanırdılar. Bir qədərdən sonra ofisiant müştərilərin boşqablarında artıq qalan ət və bulkanı onlara atdı və onlar da ac itlər kimi, yeməyin üstünə cumdular. Günün istisindən çox qəşəng budaqları olan köhnə evkalipt ağacının altında gizləndilər.

Axşam düşdü. Günəş qalanın arxasında gizlənmişdi. Həmid Ayşidən tutmuşdu. Bir neçə başqa oğlanlarla daş pilləkəndə oturub şəhərə gələnləri seyr edirdilər. Sabah bazar günüdür. Uzaqdan gələn kəndlilər divar boyunca yerləşib, malların və ya kisələrin üstündə uzanaraq gecəni keçirəcəklər.

Qaranlıq düşən kimi dükanların və köşklərin işıqları yanacaq. Lakin qaş qaralanda gün ərzindəki məşğuliyyətlərindən sonra hamısı bir yerə yığışdılar və başçıları sayılan Ayşin dedi:

— Gedək, tezliklə o, qapını açacaq.

Əl-qol hərəkətilə Həmidə də onlarla getməyi işarə etdi, o isə tərəddüd edirdi. Elə bil onu iki yerə parçalayırdılar: aclıq və bacısında hər şeyin yaxşı olub-olmadığını görməyin ən böyük arzusu onu getməyə məcbur edirdi, lakin ehtiyatsızlıq onu saxlayırdı. Birdən Kinzanın iştirakı zamanı danışar və o, əlbəttə, onun səsini tanıyıb yanına qaçar və bu hamının şübhəsinə səbəb olar.

— Gəl gedək də, — səbirsizliklə boylanıb çağırdı.

Həmid inkar etməklə başını yellədi:

— Mən getmirəm.

O, pilləkəndə oturub, başını əlləri arasında sıxıb qaşqabaqla nəzərlərini bazar meydanına dikdi. Bütün günü Ayşinin əhatəsində özünü xoşbəxt sanırdı, lakin indi əlçatmaz dərəcədə anasını və Kinzanı görmək arzusu ilə onu yadından çıxartdı.

Təzə fikir ağlına gələrək birdən ayağa durdu. O, içəri girməyəcək, keçən dəfəki kimi qapının dalından oğrun-oğrun çatların arasından baxacaq. Bəlkə ona Kinzanı görmək nəsib olacaq. Cinayətkar kimi, gözə görünmədən gizlincə yandakı küçədən keçərək, divar uzunu topa işıq düşən açıq qapıya tərəf gəldi. O, ehtiyatla baxdı, lakin bacısının heç kölgəsi də yox idi, yalnız oğlanların qulaq batıran kobud, ahəngsiz səslə nəğmə oxumaları eşidilirdi. O, zibilliyə yönəldi və sakitcə ağlamağa başladı ki, işıq və azuqə olan bu açıq qapıdan dostları və bacısı içəri giriblər, o isə bayırda tək qalıb.

Sonra isə belə bir şey baş verdi: qapı bir az geniş açıldı və bir bacı küçəyə çıxıb baxdı ki, görsün dərs başlayana qədər daha kimsə gəlir ya yox. O, səssizcə peyda oldu və Həmid onu görmədi.

Yanında xırıltılı, zavallı bir səs eşitdi, o, yan-yörəsinə baxmağa başladı və gözlərini yumruğu ilə sıxıb atılmış balaca evsiz uşaq gördü və ona tərəf addım atdı. Həmid səs eşidib qorxaraq başını yuxarı qaldırdı. O qaçmaq istədi, lakin qız onunla „azadlıq“ın arasında dayanmışdı və sürüşmək mümkün deyildi, ona görə də göz yaşlarını silib, qorxa-qorxa gözlərini ona dikdi. Heç vaxt, heç yerdə onun kimisini görməmişdi.

— Nə üçün içəri girmirsən? — bacı soruşdu.

Mehriban diqqətə tabe olaraq, o ayağa durdu və ona tərəf getdi. Onu qorxutmamaq üçün qız sakit dayanmışdı və o yaxınlaşanda qız əlini ona uzatdı. Oğlan ondan tutub ümidlə kandara addımladı. Onlar birlikdə işıqlı otağa daxil oldular və Həmid qapıda dayanıb hər tərəfə baxdı.

Bu ağ rənglə ağardılmış uzun otaq idi. Bir küncə masa və içərisində çoxlu şüşə qab olan bir neçə rəf qoyulmuşdu. Döşəmə kobud həsirlərlə örtülmüşdü, divar boyu isə döşəklər düzülmüşdü. Otağın digər küncündə ayaqlarını türksayağı qatlayıb qövs şəklində oturan öz dəstəsini gördü.

Qapı ilə üzbəüz divarda mehribancasına bu evsiz uşaqlara vaxtı ilə eyni təbəssümlə Kinzaya gülümsəyən o Müqəddəs İnsanın şəkli asılmışdı.

— Keç içəri və onlarla otur, — bacı dedi. — Mən sizə nəsə göstərmək istərdim.

Xoşhal Ayşin gülümsədi. Həmid cəsarətlə otağa keçdi və onların yanında oturdu. O, ümid edirdi ki, onların yenə də nə haqda oxumalarına qulaq asacaq, lakin çox təəssüf ki, nəğmə dərsi qurtarmışdı və onlar səbirsizliklə bacının nə gətirəcəyini gözləyirdilər. Həmid onların intizarlı simalarındakı sitayişlə çəkdikləri acıya nəzər saldı və gün ərzində çəkdiyi acını bununla müqayisə edilməz hesab etdi. Onlar gənc idilər, lakin cəsarətli, mərd, qoçaq və s. bu kimi kişilərə bənzəmirdilər.

Bacı onların qarşısında döşəkdə oturub, hansısa tanış olmayan kitabçanı göstərdi. Bu, Həmidin nə vaxtsa vərəqlədiyi yeganə kitab olan Qurana tamamilə oxşamırdı. Bu kitabçada heç nə yazılmamışdı — və bu da yaxşı idi, çünki iştirakçıların heç biri oxumağı bacarmırdılar. O, yalnız dörd səhifədən ibarət idi və hər səhifəsi də başqa-başqa rənglərlə rənglənmişdi. Birinci səhifə qızılı şəfəq saçırdı və çox gözəl idi. Bacı kitabçanı onların başının üstündə saxlayıb günəş əvəzinə Allahın sevən işığı olan qızıl şəhər haqqında danışdı və Həmid ona işıqlı və parıltılı görünən bu şəhərdə keçirdiyi ilk gecəni fikirləşdi. Lakin burada acılıq və xəstəliklər, tənhalıq, kin-kidurət hökm sürür, eyni zamanda Allahın şəhərində isə buna bənzər heç nə yoxdur, orada yalnız işıqlı sevinc, paklıq və əbədi xoşbəxtlik var. „Mən ora getmək istərdim“ — Həmid fikirləşdi. „Bu çox yaxşı olardı, nəinki bizim kənd. Nə savaş, nə qorxu, nə korluq...“

O elə bu haqda düşündüyü vaxt, bacı qara rənglənmiş səhifəni çevirib göstərərək dedi ki, bu hansısa pislikləri etmiş qara və kədərli ürəklərə bənzəyir. Əvvəllər Həmid nə isə pis bir şey etsəydi belə, bu onu narahat etmirdi və o heç bir vaxt pislik barəsində heç düşünməmişdi də. Əlbəttə, imkan olanda oğurluq etmişdi və təbii, əgər bu şəkildə döyülməkdən qorunmaq olardısa, o yalan da danışmışdı. Nə üçün də yox? İndi eşitdi ki, heç bir qara ürək Allahın qızıl şəhərinə girə bilməz və günah üçün onun qapıları bağlıdır.

Oğlan fikirli halda dostlarına baxdı: onlar necə də çirkli və qaradırlar. Onlar tör-töküntülü, əlləri, üzləri və ayaqları hamısı tozdan və çirkdən qaradır. Onların ürəkləri də, bacı dedi, yalançılıqdan, pis söz deməkdən, yaltaqlıqdan, oğurluqdan qara və çirklidir. „Necə yazıqdırlar!“ — Həmid düşündü və onun təsəvvüründə bu oğlanların darvazadan necə qovulmaları və yenə də qaranlıqda sürünmələri canlandı.

Ancaq hələ bu son deyildi. Bacı qırmızı səhifəni göstərib qəribə bir əhvalat danışdı. İsa adlı Allahın Oğlu, göründüyü kimi, oğlanları sevir və hətta onları Öz işıqlı şəhərində görmək istəyirdi. Ona görə də O, yerə göydən gəlmişdi ki, onlarla bir az yaşasın, sonra isə axırda öldü ki, heç vaxt işlətmədiyi günahlara görə cəza çəksin. Uşaqlar günah edib, cəzanı

isə İsa çəkib və qırmızı səhifə də ondan bəhs edir ki, O, çox işgəncə ilə ölüb və bədənindən qan axıb. Bu tamamilə ədalətsizdir, çünki O heç bir pislik etməmişdir. Cəzanı o adamlar qazanır ki, uşaqlar və böyüklər, onlar günah işlətmiş olsunlar. Lakin bu əhvalatdan ən maraqlısı o idi ki, ona görə İsa cəza çəkib ki, pis uşaqlar və bütün böyüklər bağışlanıla bilər. Əgər onlar günahdan üz döndərib İsadan bağışlanmalarını rica etsələr, onda onların qara ürəkləri sonrakı səhifədəki kimi olacaqdır. Sonrakı səhifə isə ləkəsiz, ağ və təmiz idi. Onlar kifayət qədər təmizlənirlər ki, Allahın şəhərinə girsinlər.

Həmid özünü və dostlarını unutdu. O, alma ağacları çiçəkləyən zaman günəş işığı ilə nurlandırılmış zərif çəhrayı yarpaqları və ağ qanadları ilə göy səmada uçan hacıleyləklər haqqında düşündü. Birdən o hər şeyi unutdu, çünki bacı nəğməni saxlayıb, iki böyük camda tüstülənən düyü gətirdi və iri çörək tikələrini onların hər birinə payladı. Uşaqlar iki qrupa bölündülər və elə acgözlüklə şam yeməklərini uddular ki, son dərəcə tez bir zamanda uşaqların çirkli barmaq izləri qalana qədər boşalıb təmizləndi. Axırıncı tikə itənə qədər heç kim heç bir söz demədi. Hər kəs daha çox götürməyə tələsirdi, budur, hamısı yeyilib qurtardı; onlar divara tərəf çəkildilər və keçən gecə dəhlizdə tapdıqları balaca qız haqqında bacıya suallar verməyə başladılar.

— Hələ ki, o məndədir, — deyərək bacı təbəssümlə cavab verdi və elə bil nəsə qəribə əhvalat yadına düşdü — O indi çarpayıda yatır.

Həmid diqqətlə ona baxdı. Deyəsən Kinzanın burada qalmasına hələ qəzəblənmir.

— Bu gün mən onunla şəhəri gəzməyə çıxmışdım, — sözünə davam etdi, — lakin heç kim nə onu, nə də valideynlərini tanımır. O, kordur, ona görə də təəssüf ki, heç kim onu istəmir.

— Bəs siz onunla nə edəcəksiniz? — oğlanlar soruşdular.

— Hələ ki, onu özümdə saxlamalı olacam, başqa heç bir çarə yoxdur, — bacı dedi və bu dəfə səmimiyyətlə güldü və Həmid də sevincdən və yüngüllükdən gülməyə başladı. O birdən artıq qorxmadan bacısını yatdığı çarpayıda görmək istədi. O digər oğlanların ev sahibinə baş əyib gedənə qədər gözlədi və ürək döyüntüsüylə, ancaq cəsarət və qətiyyətlə ona dedi:

— Mən kənddən gəlmişəm və mənim kəndimdə iki-üç kor qız var və onların valideynləri kənddən bura bazara gəlirlər. Olar mən ona baxım, bəlkə tanıdım və valideynlərinin kim olduğunu bildim.

— Bacı təəccüblə ona baxdı, o sözsüz ki, əvvəllər bu oğlanı görməyib, ola bilsin ki, o düzünü deyir. O vaxta qədər bacı onun necə daxil olmasını arıq, əzgin simasını və ayaqlarının qançıl içində olmasını, həmçinin necə acgözlüklə yeməyə atılmasını müşahidə etmişdi. O, anladı ki, oğlan uzaqdan gəlib və çox şaddır ki, onu yetimxanada saxlayacaqlar.

Bacı onu Kinza yatan yerə, yuxarı apardı. Qız heç özünə oxşamırdı, çünki onu yaxşıca çimizdirmişdilər və o tamamilə dəyişmişdi. Hətta onun

başını da yumuşdular və indi dolaşıq saç əvəzinə yumşaq qara, düz ortadan ayrılmış saçları üzünü dövrələmişdi. O, ağ gecə köynəyində, ləkəsiz ağ yatacaqda yatmışdı. „Şübhəsiz, — Həmid düşündü, — o kifayət qədər təmizdir, hətta göydəki şəhərin işıqlarının qarşısında ağ çiçək kimi, təmiz dayanacaq“. Heyranlıqla bir müddət ona baxdı, sonra ətrafdakılara diqqət saldı. Otaq yerli dəbdə adi quraşdırılmışdı, lakin döşəklərin üzərində qəşəng üzlüklər var idi, kitablar rəflərdə, şəkillər isə divardadır. Otaq çox işıqlı idi və onu elə hissiyyat əhatə edirdi ki, elə bil Kinza onun əlçatmaz hüdudlarını qızılı darvaza arasından keçib, yeni işıqlı dünyaya gəlmişdi. Onunla qalmağa çox arzu edirdi, amma bilirdi ki, bu qeyri-mümkündür.

— Mən onu tanımıram, — qüssə ilə dedi və qalxdı ki, getsin. — O bizim kənddən deyil.

Pilləkənlərlə səssiz endilər. Bacı qapını açdı və o çıxdı. O, işıqla qaranlıq arasında dayanıb bacının üzünə baxdı, sonra Kinzaya qarşı belə xeyirxah olan əlini götürüb, sadəcə dedi:

— Siz yaxşı insansınız! Yeməyiniz də yaxşıdır! Dərsiniz də yaxşıdır! Sizin ürəyiniz də yaxşıdır! Qoy Allah sizin əcdadlarınızın xeyir-duasını versin!

Bunları deyib, oğlan cəld küçə ilə qaçdı və qaranlıqda gözdən itdi.

XI fəsil

Həmid hər səhər bublik bişirilən çadırda vicdanlı köməkçi kimi öz işini davam etdirirdi. Onun sahibi daim ona qarşı xeyirxah idi və müntəzəm surətdə səhər yeməyi və pul verirdi. Pullar nahara xərclənirdi, şam yeməyini isə bacı təşkil edirdi. Həmid Ayşi ilə birlikdə məsciddə yatırdı.

Nə qədər ki, günəş işıq saçırdı və hava isti idi, o çox xoşbəxt idi. Həyat şən və rəngarəng görünürdü, müxtəlif məşğuliyyətlər var idi. Məhsul yığımı vaxtı onlar sahəyə gedirdilər və sünbül dərzlərini qaranlıq düşənə qədər anbara daşımağa kömək edirdilər, sonra isə saman çöpləri üstündə yatıb istirahət edirdilər. Daha sonra gavalıları sapa keçirirdilər və hərdən xəlvəti nə qədər istəyirdilər ağızlarına da atırdılar. İsti günlərdə kiçik dağ çaylarında çimməyə gedirdilər və orada toplanmış çirklərini yuyurdular.

Həftədə beş dəfə İsa haqqında eşitmək üçün ingilis bacısının evinə gedir və həsir üstündə yerləşib qulaq asırdılar. Həmid indi İsa haqqında çox şeylər bilirdi. O öyrəndi ki, İsa tək müqəddəs insan deyil, hətta Allahın Oğludur və göydən yerə gəlmişdir. O öyrəndi ki, korlar və şikəstlər Onun yanına gəlib və şəfa tapıb gedirdilər. Həmid çox təəssüfləndi ki, o

vaxtı burada yaşamayıb, yoxsa həmin vaxtı Kinzanı da Xilaskarın yanına gətirərdi və onun gözləri açılardı. O öyrəndi ki, İsa çarmıx üzərində əlləri yana açılmış ölüb və digər müqəddəslər kimi mağarada dəfn edilib, lakin fərq onda olub ki, o müqəddəslər öz qəbirlərində qalıblar, İsa isə dirilib, kəfəni cırıb qəbirdən çıxıb və həftənin birinci günü Onu bağda görüblər.

Oğlan onu da öyrəndi ki, İsa qızıl şəhərə qayıdıb, göydəki iqamətgahı isə Allahın sağ tərəfində yerləşir və Müqəddəs Ruh arzu edir ki, oğlanların ürəyinə girsin və onların hamısını yaxşılığa doğru dəyişsin.

Bir dəfə bacı dedi ki, O onların ürəyinin qapısını döyəcək və Həmid çirkli əllərini cındır paltarının üstündən sinəsinə qoyub və çox ciddi deyir:

— Mən Onu eşidirəm, O mənim ürəyimin qapısını döyür... tıq-tıq-tıq.

Ancaq bacı başa saldı ki, bu onun şəxsi ürəyində döyünəcək və Rəbbin döyüntüsünü əllə hiss edib, qulaqla eşitmək olmaz. Onun bizim ürəyimizi döyməsini həmin vaxt bilərik ki, Onu qəbul etməyə ürəyimizin qapısı geniş açılsın və bizdə böyük arzu yaransın. Ancaq Həmidin fikirləri bu vaxt başqa yerə yönəlmişdi: şam yeməyində nə olacaq və həmin vaxt bu mövzuya olan marağı itirdi.

Hiss etdirmədən payız gəldi və gecələr soyuq olmağa başladı. Mehmanxanada turistlər olmadı və bu o demək idi ki, yayda əldə etdikləri qazanc indi olmayacaq, çünki keşik çəkməyə maşın, daşımağa isə yük olmayacaq.

İndi onlar fərasətlərinə verməli və kəmərlərini daha bərk bərkitməli olacaqlar. Ayşi Həmidə dilənmək mədəniyyətini öyrətmişdi və onlar birgə istənilən havada şəhəri gəzir və varlıların qapılarında ağı deyirdilər. Hərdən onlara qabaqdan qalan çoxlu yemək verirdilər, hərdən də heç nə. Bu noyabr havası kimi ümidverici məşğuliyyət deyildi.

Yeganə və həyatlarında tamamilə sabit şam yeməyi ingilis bacısının evindəki yeməkdir. Bu soyuq axşamlarda o, tavanı qızdırır və vaxtından əvvəl onları içəri buraxırdı. Zaldan keçərək yalın ayaqlarının və cındırlarından süzülən gölməçənin izini qoyurdular. Sonra isti küncləri əhatə edirdilər ki, donmuş barmaqlarını qızdırsınlar və yavaş-yavaş dişlərini bir-birinə vurmağı dayandırırdılar. Daha sonra razı halda oturub, qulaq asmağa hazır vəziyyətdə gözləyirdilər ki, himayədarları gəlib onlara nə danışacaq.

Ən böyük və çətin məsələ indi onların geyimi idi. Külək və yağış cıncındırlarını daha da dağıdırdı. Həmid hərdən fikirləşirdi ki, tamamilə yararsız hala düşən paltarını nə ilə əvəz edəcək. Dostlarının bəziləri dilənir və kisə oğurlayıb bürünürdülər, Həmid isə həmin xoşbəxtlər sırasında deyildi.

Kinza əksinə ehtiyacın nə olduğunu bilmirdi. Bacı tez-tez onunla şəhərə çıxır və Həmid onu bazar meydanında seyr edə bilirdi. Son iki ayda onun ayaqlarının girdələşməsi və möhkəmlənməsi nəzərə çarpırdı. Təmiz donunun üstündən qırmızı toxunma kofta və qəhvəyi palto geymişdi. Ayağında rezin çəkmə var idi və başındakı isti papaq isə onun qara zülflərini örtmüşdü.

O çox qıvraq və sağlam görünürdü, Həmid ona yaxınlaşmağa çalışırdı və bacısı ilə büsbütün fəxr edirdi.

Bir axşam yağış vedrədən su tökülən kimi yağırdı və uşaqlar suyu şappıldada-şappıldada Əhdi-Cədid evinə gedirdilər, tezliklə çatıb qapını döydülər. Yaş küçüklər kimi kandarda silkələndilər, təngənəfəs, fınxıra-fınxıra, asqırıb burunlarını silə-silə oda tərəf atıldılar.

Bacı onların bu görkəmini görcək şiddətli ağrı hiss etdi. O onları heç vaxt belə yazıq, çirkli, həyatla mübarizədə görməmişdi.

Lakin ona tərəf baxan simaları yenə şən, ruhdan düşməyən və hətta şıltaq idi, qara gözləri isə sevincdən parlayırdı. Onların məğlubedilməz cəsurluğuna valeh olurdu.

Ancaq onların arasında yaxşı məşhur olan bir nəfər oğlan çatmırdı. Bir neçə ay ərzində müntəzəm iştirak edən bu oğlan artıq iki gecədir ki, görünmürdü.

— Bəs, Əbd-əl-Kədər hanı? — bacı soruşdu. — Nə üçün iki gecədir ki, o yoxdur?

— O, gələ bilmir, — kimsə saymazyana səslə cavab verdi. Onun paltarı tamamilə cırılıb, atası isə yoxdur. Anası puldan qənaət edir, qənd kisəsi alana qədər evdə oturmalı olacaq.

Heç kim bu sözdən nə narahat olmadı, nə də təəccüblənmədi və gecə həmişəki kimi keçdi.

Şam yeməyindən sonra həmişə ləngiyən və hamıdan axırda gedən Həmidə bacı müraciət etdi:

— Sən bilmirsən, Əbd-əl-Kədər harada yaşayır?

— Şəhərin yüksəkiliyində, ancaq ora yol palçıqlı çay kimidir. Sizə bu gecə ora getmək mümkün olmayacaq.

— Düşünürəm ki, əgər sən məni müşayiət edərsənsə gedib çıxa bilərəm, sən də bir neçə qurd qazana bilərsən.

Həmid fərəhlə başını yellədi. Bir neçə qurda görə yağış və palçıqla çarpışmaq olar və bundan başqa Əbd-əl-Kədər onun xoşuna gəlirdi.

Oğlan içəri pilləkənin yanında dayanıb, hansısa paltarı axtarıb tapmaq üçün yuxarı qalxan bacını gözlədi. Onun hər şeylə maraqlanan gözləri hər tərəfə baxdı. Çox maraqlı idi. O, başını soldakı otağa soxdu və divar rəfi olan balaca mətbəxi gördü. Rəflərin birində, aşağıda istəsə çox asan götürülə biləcək yumurta olan qab dururdu. Həmid buna tərəddüd etdi. O saymağı bilmirdi, lakin ev sahibi ki saymağı bacarırdı və əgər o, iki ədəd yumurta götürsəydi, bacı hiss edərdi. Digər tərəfdən isə kiçik çatdan yumurtanı sovurmaq necə də ləzzətdir, hansı ki, Həmid çoxdan bunu dadmırdı. Nəhayət fikirləşdi ki, risk etməyə dəyər. Əgər bayırda gözləməli olsa, bu yağışda bacı görməyəcək və sonra iki yumurtanı düz saymasa, necə sübut edəcək ki, onu mən götürmüşəm. Oğlan hər əlinə bir yumurta götürüb küçəyə sürüşdü və orada qaranlıqda gözləməyə davam etdi. Çox gözləmədi. O, tezliklə əlində düyünçə və al şəfəq saçan fənərlə çıxdı ki, bunu da Həmid

gözləmirdi. Gecələr küçələrdə avaralanan oğlanlar pişik gözlərinə malik olurlar ki, belə şeylərə ehtiyacları olmasın.

— Gedək, — bacı qısaca dedi. — Gəl plaşın altına gir və birlikdə işıqda gedəcəyik.

Lakin onun təəccübünə səbəb olaraq, Həmid işıqda getmək istəmirdi. Əksinə, o çox səylə arxlardan sərsəmləyə-sərsəmləyə, divarlara sıxılaraq parlaq şüadan qaçırdı ki, görünməsin. Çox qaranlıq və palçıq idi, bir dəfə az qalsın yıxılsın, amma hər iki əlindəki yumurtaları bərk saxlamışdı.

— Nə üçün sən mənim yanımda küçənin ortası ilə getmirsən? — heyrətlə bacı soruşudu. — İndi arxa düşərsən.

— Eybi yoxdur, hər şey qaydasındadır, — burnunun altında danışdı və özünü çox pis hiss etdi. Bu geniş işıq şüasının altına düşməkdən necə qorxurdu. Bu yumurtalar isə, ona elə gəldi ki, heç onun həyəcanına dəymir. O istədi ki, onlardan xilas olsun və həmçinin saxlamaq istədi.

Fənərin işığı ətrafı daha da qaranlıqlaşdırırdı və əyri-üyrü yollarla dırmaşan vaxt Həmid tamamilə heç nə görmürdü. Birdən o ilişib üzüstə başı qabağa yıxıldı. Gözlənilməzlikdən o qışqırdı və bir az ondan irəli gedən bacı tez çevrilib, fənərin işığını ona tutdu. Bütün palçığa və yumurta sarısına batmış Həmidin necə qalxmağa çalışmasını gördü. O, əlinin içində sınmış yumurta qabıqlarını sıxırdı. O dəqiqə bacı başa düşdü ki, nə hadisə baş verib. Necə də o qaçmaq istəyirdi. Lakin bacı tez onu tutdu, o qorxudan və ağrıdan ağlamağa başladı. Oğlan anlamırdı ki, bacı ona nə edəcək. Onunla necə davranacaq. Bəlkə polis çağırıb, onu qazamata saldıracaq və ya düz burada yolda döyəcək. Heç nə etməsə də şübhəsiz, öz evinə heç vaxt qoymayacaq. O yer üzərində yeganə sığınacaq yeri olan burada qalmaq hüququnu itirdi. Öz günahı ucbatından üzünə bağlanan qapılardan heç vaxt bu isti və rahat yerə girməyəcək. Lakin o hıcqırıq içərisində bacının sakit səsini eşitdi:

— Qayıdaq geri, sən dizlərini yaman yaralamısan. Gedək evə sarıyaq, sonra isə yenidən yolu göstərərsən.

Onlar səssizcə geri döndülər, bacı onun əlindən bərk-bərk tutmuşdu. Həmid tez-tez hıçqırırdı.

Yağış kəsdi və onlar tezliklə isti, rahat evə girib, qapını açarla bağladılar. Şiddətli utancaqlıq hissilə, səssizcə oğlan kranın altında əllərini yudu. Sonra bacı ona oturmağı buyurdu və isti su ilə dizlərinin palçığını yudu, bundan sonra kəsikləri və zədələri göründü. Maz çəkib ağ sarğı ilə sarıdı. Qurtaradan sonra uzun və diqqətli nəzərlərlə ona baxdı. O, əzgin, büsbütün palçığa və bişməmiş yumurtaya batmış halda oturmuşdu. Yalnız sifətində iki təmiz çızıq var idi ki, o da göz yaşları idi.

Heç bir söz demədən, bacı yuxarı qalxıb köhnə paltarlar olan düyünçəni axtardı və təmiz köynək, yamanmış yun sviternən geri qayıtdı. O yenə isti su gətirib onu təmiz yuyundurdu, sonra əynini dəyişib yanında oturdu. Oğlan heyranlıqla başını qaldırıb ona baxdı və onun həyatında ilk hadisə

idi ki, pisliyə yaxşılıqla cavab verilirdi və o bunu heç cür anlamırdı. Onu döymək və polisə vermək əvəzinə, ona tibbi yardım göstərilir və geyməyə təmiz, gözəl paltarlar verilir.

— Həmid, — onun səsini eşitdi, — sən yıxılıb zədələndin, çünki mənimlə birlikdə işıqda getmək istəmədin. İşıqda getməyə isə qorxdun, ona görə ki, sən məndən iki yumurta oğurlamışdın.

Cavab gəlmədi.

— Sən bura gəlməyə layiq deyilsən, — bacı davam etdi, — lakin onlar mənim yumurtam idi, pul verib almışdım və səni bağışlamaq niyyətindəyəm. Ancaq söz verməlisən ki, mənim evimdən heç vaxt oğurluq etməyəcəksən.

Həmid sakitcə başını tərpətdi.

— Yadında saxla, — asta və ciddi tərzdə davam etdi, — sən öz günahına görə mənimlə işıqda gedə bilməzdin. Rəbb İsa deyir ki, O, dünyaya düşən İşıqdır. O, səndən Onun şahlığına çatana qədər Onunla hər gün bütün yolu getməyi xahiş edir. Lakin sən əvvəlcə Ona günahlarını deməlisən və xahiş etməlisən ki, bütün günahlı ləkələrini yusun və səni təmizləsin necə ki, mən səndə olan palçıq və yumurta izlərini yudum. Onda sən Onun tərəfindən bağışlanacaqsan və Onun nurunda Onunla birgə olacaqsan.

Oğlan əynindəki təmiz paltarlara, ağ sarğıya baxdı və başa düşdü ki, o nəyi nəzərdə tuturdu. Sınmış yumurtalar onun üçün elə arzu edilməz idi ki, lakin indi ona lazım deyildi. Onu bağışladılar, yudular və təmizlədilər. Onu yenə də bu rahat evə qəbul etdilər. Tezliklə onlar yenidən qaranlıqda çıxıb Əbd-əl-Kədərgilə gedəcəklər, ancaq bu dəfə başqa cür olacaq. O, isti örtüyün altında gizlənəcək və onlar birgə işıqda gedəcəklər, çünki indi onun gizlətməli heç nəyi yoxdur. Onlar aydın işıq şüalarının rəhbərliyi altında gedəcəklər. Bu necə də ləzzət verəcək!

Yarım saatdan sonra öz tapşırıqlarını yerinə yetirərək evə qayıtdılar. Bayırda soyuq külək vıyıldayırdı. Uzun sürməyən sakitlikdən sonra yağış yenə yağmağa başladı. Tamamilə isinmiş və sakitləşmiş Həmid, dəhlizdə vidalaşmağa başladı.

— Bəs harada yatacaqsan? — bacı soruşdu.

— Məsciddə, — oğlan cavab verdi.

— Orada ədyalınız var?

— Xeyr.

— Məgər, sizə soyuq deyil?

— Bu gün mənə mənim sviterimdə isti olacaq.

— Yaxşısı budur gir evdə və istidə yat. Tava hələ ki, qaynardır.

Həmid hədsiz dərəcədə xoşbəxt idi. Yumşaq döşəkdə yerini rahatladı, ancaq yata bilmədi. Riyakarlıq, oğurluq, uşaqlarla savaşmaq, atalığına qarşı kin-kidurət və bir çox başqa əməllər dəqiqliyi ilə xəyalından keçdi və ağrıyla ürəyini yandırdı. Həmid qocalar kimi o böyrü üstə, bu böyrü üstə çevrilir və təəssüfdən boğulurdu. O hər şeyə görə özünü töhmətlədi, lakin heç nə kömək etmədi.

Birdən oğlan yorğan-döşəkdən qalxıb türksayağı oturdu, müsəlmanların ibadəti zamanı necə qəbul edilmişdi, elə qollarını qatlayıb yuxarı qaldırdı və missionerlərin öyrətdiyi bütün marokkan uşaqların əzbər bildiyi adi ayələri pıçıldadı. Onlar birinci sətrin hər bir ayəsini üç dəfə təkrar edirdilər və bu belə səslənirdi:

„Mənə təmiz ürək ver,
Ey mənim Rəbbim və Allahım.
Məni günahlardan uzaqlaşdır və
Xilaskarımın qanı ilə yu.
Məni göylərdəki Padşahlığına,
Sənin iqamətgahına apar,
ey Allahım!“

Sonra özündən bir neçə söz əlavə etdi: „İsa Məsih! Dəfələrlə aldatdığıma, oğurluq etdiyimə, söydüyümə və dalaşdığıma görə məni bağışla. Mənim ürəyimdə yaşa! Mənim dostum ol və mənə Sənin ardınca getməyə kömək et. Məni Öz qızıl şəhərinə götür. Amin“.

XII fəsil

Bir səhər üşüyə-üşüyə Həmid və Ayşi məsciddən çıxırdılar və zeytunluqların və dağların qarla örtülməsini gördülər. Qış gəlmişdi.

Bu həftə xüsusilə soyuq və şaxtalı keçdi. Bir axşam evsiz uşaqlar bir qayda olaraq evə gəldilər və səbirsizliklə qapını döydülər. Soyuq külək cındır paltarlarının arasından bədənlərinə keçirdi. Soyuqdan gələn uşaqlar tezliklə tavaya çatmağa çalışaraq, kandardan izdihamla içəriyə soxuldular. Amma yarı yolda külək və soyuğu yaddan çıxarıb, qəfildən dayandılar. Onları parıldayan elektrik işığı əvəzinə otağın ortasında qoyulmuş yarımdairəvi masanın üstündəki qıraqları zeytun budaqları ilə bəzədilmiş yumşaq şamlar qarşıladı. Düz döşəməyə sərilmiş güllü süfrənin üstündə müxtəlif dadlı şirniyyatlar düzülmüşdü: qoz, badam, üzüm, konfet, naringi, banan, peçenye, ballı pryaniklər, küncdə məcməyidə isə parıldayan dəm çayniki və stəkanlar dururdu. İsti kömürün üstündə böyük çaydan şən mahnı oxuyurdu, otaq isə rahat və səmimi görünürdü. Hətta Kinza da yatmamışdı və bu ziyafətə dəvət olunmuşdu. O, əlində rezin top tutub divanın balışında oturmuşdu və gözləyən üzünü qaldırdı.

— Bu gün məsihçilərin bayramıdır, — təəccüblənən oğlanlara bacı başa saldı, — və mən fikirləşdim ki, onu birgə keçirsək yaxşı olar. Bu bayram İsa Məsihin doğulma günüdür. Allah bizə dahi hədiyyə verib və ona görə də bu bayramda biz hamımız bir-birimizə hədiyyələr verməliyik. Buna görə mən sizə naringi, banan və s. Kinzaya isə top hədiyyə almışam.

Uşaqlar bir az bu yeni şəraitdən və zəngin qonaqlıqdan sıxıldılar, sonra isə yeməyə girişdilər, lakin tədricən dilləri açıldı, əlləri və ayaqları qızışdı, üzləri allandı. Onlar şən-şən boşboğazlıq edir, yeyir, meyvə və konfetlərdən ciblərinə soxurdular ki, onlardan sonra yeyib ləzzət alsınlar və şirin qaynar nanəli çayı stəkan-stəkan dalınca qurtum-qurtum içirdilər.

Həmid gözlərini Kinzadan çəkmirdi. Onun əyinində büzmələrlə bəzədilmiş mavi xələt var idi, saçları isə halə kimi üzünü dairəyə almışdı. O da böyümüş və necə yumrulaşmış və bərkimişdi! Birdən rəngi qaçmış, cırıq paltarlı balaca bacısı, kəndlərinin kasıbçılığı və ötən illərin səfaləti onun yadına düşdü. Bütün bunlar daimi kəsilmiş uzaq keçmiş kimi görünürdü. İndi, hətta inanmaq olmurdu ki, onlar həyatın sərt səthindən uzaq, burada şamdan düşən işığın əhatəsində oturmuşdular.

Uşaqlar danışırdılar ki, kimin nə xoşuna gəlir, Həmid də danışdı. O, kəndlərində keçirilən bayramlar haqqında danışdı və bacı qızğın simaları müşahidə edərək çox razı qaldı. Son vaxtlar o çox dəyişmişdi. Hərçənd oğlan yumurta götürdüyü gün həmin gecə nə baş verdiyini bacıya danışmamışdı, lakin onun əxlaqı bu günlərdə dəyişmişdi. O, artıq cəsarətsiz, aciz yadlardan deyildi. Hər axşam o inamla öz yerini tutur və Xilaskarın sevgisi haqda hər bir əhvalata onun bütün vücudu hay verirdi.

Beləliklə, bacı oturub, diqqətlə Həmidi seyr edərək, öyrənmək istəyirdi ki, bu balaca uşağın ürəyində nə baş vermişdi, bu vaxt isə onun yanında balaca faciə baş verdi. Kinza ayağa durdu və onun sifətində bacının əvvəllər görə bilmədiyi ifadə əmələ gəldi. Bu ifadə yarı oyadılmış xatirə idi. Hardasa əvvəllər bu zərif, sevimli unudulmuş səsi eşitmişdi. Sonra bir az ümidsiz addımlarla yolunu əli ilə axtara-axtara irəli getdi. Demək olar ki, görmə qabilliyyətini əvəz edən incə eşitmə qabiliyyətindən istifadə edərək, danışan adama tərəf gedib, qətiyyətsiz və gərgin şəkildə Həmidin yanında dayandı. Başqa vaxt olsaydı oğlan sirrinin açılacağından qorxaraq Kinzanı itələyərdi və ancaq bu axşam otaqda qorxu və şübhələri qovan mühit hökmranlıq edirdi və Həmid hər şeyi unudub, bacısını qucaqladı və onu özünə tərəf çəkdi. Bacısı başa düşmürdü ki, o kimdir, lakin cəzbedici səsilə onun dizləri üstə özünü rahatladı. Və təmiz başını onun çirkli, yaş paltarına sıxdı.

Bacı hadisələri müşahidə edərək, onların hədsiz dərəcədə bir-birinə oxşamalarını gördü. Onun xatirində çox nəzərə çarpmaz hadisə olmuşdu, hansı ki, bu dəqiqələrə qədər təsadüfi hesab edirdi: Həmidin yatmış Kinzaya baxması qəribə xahiş idi və onu küçədə gizli izləməsi. O əmin idi ki, onlar bacı-qardaşdılar və hətta əgər belədirsə, bu heç bir əhəmiyyətə

malik deyil. Həmid öz sirrini açıb tökən adama oxşamırdı, öz tərəfindən isə o, Kinzadan ayrılmaq niyyətində deyildi. Ancaq onu başa düşə bilərdi ki, hansısa kədərli bir mühit bu iki balaca qəribləri geniş dünyaya atmışdı və onun sevimli lütfünə təəccüblənirdi ki, onları himayəsində evinə gətirmişdi.

Digər uşaqlar da təəccüblə onlara baxırdı. „O, onun səsini tanıyırdı“ — bir-birlərinə deyirdilər. Lakin öz fikirlərini bacıya deməyə çəkinirdilər və bu, tezliklə stəkandan nanəli çay içmək ləzzəti qarşısında arxa plana keçdi.

Qonaqlıq qurtarandan sonra bacı onlara dönməyi və divarda asılmış ağ mələfəyə baxmağı buyurdu. O, titrək işıq verən şamı söndürdü və qaranlıqda divarda şəkillər peyda oldu. Oğlanlar fikirləşdilər ki, bu möcüzədir və gözlərini, ağızlarını geniş açıb baxırdılar.

Birinci şəkildə mehmanxananın qapısını döyüb, lakin orada ona yer olmadığı üçün çıxıb gedən qadın əks olunmuşdu. Həmid onun halına çox acıdı, çünki özü də birinci gecə şəhərdə mehmanxanaya baxıb, sığınacaq üçün çarpışırdı və heç nə əldə edə bilmirdi. Pulu olmadığına görə zibillikdə yatmalı olmuşdu. Lakin bu qadın pəyəyə getdi.

Sonrakı şəkildə onlar heyvanlarla birgə pəyədə necə yerləşdikləri göstərilir. Lakin çox gözəl bir şey yarandı: o, ilk Uşağını-Oğlunu doğdu və anası Kinzanı bələyən kimi o da Onu bələdi və təknəyə qoydu. Xatırladı ki, Kinzanın taxtadan beşiyi var idi, lakin bu çağa onun kimi, şübhəsiz evindən-eşiyindən sürgün edilmiş çox kasıb ailənin uşağı idi. Axı, bacı nə deyir? Qundaqdakı çağa Rəbb İsa Məsihdir, hansı ki, bütün məsihçilər Onun doğum günü şərəfinə bayram təşkil edirlər. O, Allahın dahi hədiyyəsi idi və yerə Öz xoşu ilə gəlmişdi.

Şəkildə bir fənərlə işıqlandırılmış tövlə olduqca qaranlıq idi, lakin Allahın Oğlunun məskəni onun şərəfindən və məhəbbətindən göylərdə parlayırdı. Nə üçün O, Öz evini göylərdə qoymuşdu?

Bacı elə bu haqda danışırdı: „Baxmayaraq ki, O, çox varlı idi, sizə görə O, kasıb və yoxsul oldu. Evsiz-eşiksiz, atılmış uşaq işıq olub qaranlığa gəldi ki, evsiz, atılmış uşaqları Öz Atasına aparsın, onlar Onun lütf və mərhəmətini dərk etsinlər“.

Budur üçüncü şəkil: qoyun sürüsünün keşiyini çəkən çobanlar...

Həmid öz keçilərini və onlarla dağda keçirdiyi o günləri yadına saldı. Ancaq burada başqa idi — Rəbbin mələyi gəldi və bütün ətrafı Rəbbin şəfəqi ilə işıqlandırdı. Çobanlar qorxdular, lakin sürülər göründüyü kimi hürkmədilər. Onlar mələyin qanadlarının kölgəsində sakitcə otlayırdılar. „Sizə Xilaskar doğuldu!“ — mələk çobanlara elan etdi və hətta açıq səmada mələklər toplusunun nəğmə səsləri də sürünü hürkütmədi. Göylərdə sülh və yerdə razılıq var idi.

Və budur, axırıncı şəkil: çobanlar öz sürülərini qoyub ayaqyalın, əyinlərində kobud qoyun dərisi, dizləri üstə sitayişlə çağanın qarşısında

durdular. Həmid yenə kəndlərindəki bayramı yadına saldı: varlılar, qarınları yeməkdən doymuş, artıqlarını kasıblara və itlərə atırdılar. Lakin burada onların bayramı sayılan İsa Məsihin doğum günü Kinzanın da bayramı idi, çünki İsa balaca uşaq bədənində gəlmişdi, bu həm də onun bayramı idi, ona görə ki, Göylər Padşahı da evsiz oldu və mal-qara arasında qundağa qoyuldu.

Beləliklə, son. Bacı işığı yandırdı. Bayramdan konfet kağızlarından, naringi və banan qabıqlarından başqa heç nə qalmamışdı. Lakin bunların hamısını verən Məhəbbət haqqında xatirələr onun və onun kimilərə görə yoxsullaşan Lütf Həmidi evdən küçəyə çıxan zaman isindirdi. Qapıda dayanan Kinzanın yanından keçəndə cəsarətlə onun saçlarını sığalladı, bacısı isə onun addım səsləri itənə qədər əl elədi.

Bütün uşaqlar xeyli irəlidə gedirdi, Həmid isə gördüyü şəkillər haqqında düşünərək, səpələyən yağışı hiss etmədən və nəzərə almadan aramla gedirdi. Titrəyən lampanın zəif işığında gedərkən sakit miyoltu eşitdi. Oğlan dönüb skelet kimi arıq, balaca və yaş, islanmaqdan özünü qorumaq üçün boru axtaran pişik balası gördü, on bir yaşına qədər ömründə küçədə acından ölən çox pişiklər görmüşdü və onlar haqqında heç fikirləşməmişdi. Bu gün isə nəsə başqa idi.

O, çox güman ki, özünə başa sala bilmirdi, lakin hiss edirdi ki, ürəyi zəif pişik balasına yapışıb. Öz təəccübünə səbəb bu ac canlıya yazığı gəldiyini başa düşdü. Oğlan pişik balasını qaldırdı və özünə o qədər yaxın sıxdı ki, onun sürətli küt ürək döyüntüsünü hiss etdi. Onunla nə edəcək? Onun çətinliyi yox idi. Onu qəbul etmək üçün qonaqpərvərliklə açılan bir qapı var idi. Əlbəttə, Kinza da pişik balasını sevər. Bu onun Milad bayramına olan hədiyyəsidir.

O, döşənmiş yaş yolla geriyə addımladı və qapını döydü. Bacı qapını açdı və Həmid tam arxayın bu titrəyən yazıq canlını ona tərəf uzatdı:

— Bu, Kinza üçün bayram hədiyyəsidir, — o başa saldı. — O, çox ac idi, donmuşdu və mən onu sizə gətirdim.

Bacı tərəddüdlə necə hərəkət edəcəyini bilmədi. Bu yarımcanlı, yaralarla örtülmüş pişik balası ona heç lazım da deyildi, bu vadaredici səbəbə malik olan hədiyyədən etiraz edə bilmədi. Sevinc onu bürüdü və başa düşdü ki, onun əməyi hədər getməyib. Hər halda bir nəfər oğlan da başa düşüb və Milad ruhunu qəbul edib. O, rədd etmək istəyirdi, lakin hamı tərəfindən rədd edilmiş pişik balasına ürək yanğısı ilə yazığı gəlməsi biruzə verilirdi. Mavr uşaqlarının heyvanlara yazığı gəlməsi hissi ilk dəfə idi ki, onun həyatında baş verirdi. Və bacı bu qeyri-adi vergini sevinc və minnətdarlıqla qəbul etdi. Əlləri uzadılmış halda saxladığı pişiyi o, ocağın yanındakı qutuya qoydu və hər yerinə dezinfeksiyaedici toz səpdi. Sonra nəlbəkidə ona süd verdi və dözümlü, cəsur, hücuma qarşı məğlubedilməz pişik balası, quyruğunu ağlasığmaz dərəcədə yuxarı qaldırıb südü tər-təmiz axıracan içdi. O, xilas olunmağa layiq idi.

Pişik balasını oturub seyr edən vaxt, onu gülməyə məcbur edən bir şəkil gözünün qabağına gəldi. Fikrində hər əsrin Milad bayramı hədiyyələrinin axurun qabağında təltif olunmasını görmüşdü: qızıl, buxur, ətirli qatran, ulduzlar və göylərin səcdəsini. Rəbbə təqdim edilən və Rəbbin gözlərində qiymətli olan bütün bu hədiyyələrin birələr tərəfindən dişlənmiş, balaca sarı pişik balası bu balaca oğlanın ilk mərhəmət bəhrəsi idi.

XIII fəsil

Həmid olduğu yerdən çox-çox uzaqlarda — İngiltərədə də Milad bayramını qeyd edirdilər. Həmin bayramlar və bunun arasında ümumi bir şey var idisə, o da bacıların evində gül kimi açan xoşbəxt və həyatdan heç nə arzulamağı fikirləşməyən uşaqların yığılması idi.

Digər baxımdan, bu iki müxtəlif uşaq qrupu idi. Burada naringi, qoz və konfet əvəzinə jele, musslar, biskvitli və şokoladlı tortlar, habelə, böyük Milad piroqu var idi. Çirkli, yaş, əzilmiş paltarlar əvəzinə, parlaq paltarlar, toxunma köynəklər, qızların saçlarında isə qəşəng bantlar parlayırdı.

Bu əsl nümunəvi bayram olmalı idi, lakin çay və əylənmə mərasimindən sonra, uşaqlar milad ağacının ətrafında yığışıb, ilahilər oxuyurdular. Böyüklərin hamısı kədərli idi, doqquz yaşlı balaca qonaq qız isə onlardan da kədərli idi.

Bura korlar məktəbi idi. Nəğmə oxuyan uşaqların canlı simalarına şamdan düşən işıqdan nə milad ağacını, nə parıldayan fənərləri, nə də onlara verilən hədiyyələri görə bilmirdilər. Onlar şən-şən bəzədilmiş milad ağacının qırağında atdanır və ürəkdən ilahilər oxuyurdular.

Ata-anası ilə qonaqlar arasında oturmuş Cenni birdən boğazında göynəmə hiss etdi. Əgər o həmişə qaranlıqda yaşamaq məcburiyyətində qalarsa, heç vaxt xoşbəxt ola bilməyəcəyini bilirdi. O, bir dəqiqə gözlərini bağladı ki, korluğun nə olduğunu təsəvvür etməyə çalışsın, lakin bu haqda fikirləşmək dəhşətli olduğu üçün gözlərini yenidən açdı və uşaqlara baxmağa başladı. Onlar Cenninin məktəbdə öyrətdiyi ilahini oxuyurdular:

Çox qəşəng ulduz, parlaq ulduz,
Şahların qızıl tacı ulduz,
Şərqə aparır, tam irəli aparır,
Bizi Yaradana, kamil İşığa aparır.

Cenni, gələcəyin təcrübəli qızı, nə üçün onlara belə sözlər öyrətdiyinə təəccübləndi. Əgər onlar öz günlərini qaranlıqda keçirməyə məhkum edilmişlərsə, onda nə faydası var idi kamil işıqdan nəğmə oxumağın? Ancaq onlara baxanda o özlüyündə etiraf edirdi ki, bu balaca oxuyanlar arasında heç kim bədbəxt görünmürdü, onların şən parıldayan simalarından adama elə gəlir ki, bu milad ulduzlarını və onların arxasınca isə çox-çox uzaqlarda, lakin zahir olan mükəmməl işığı görürlər. Cenni bu zəbur səsinin tarixini bilirdi və onlar Milad bayramı münasibətilə məktəbdə öz siniflərini bəzəyərək, gözəl model düzəltmişdilər: gecə səmasını xatırladan tünd göy rəngli kağızda balaca ulduzcuqlar və bir dənə də parlaq ulduz yapışdırmışdılar. Buna qədər isə, onlar müəllimələrinə müxtəlif fiqurlar kəsməyə və rəngləməyə kömək edirdilər: üç addımlayan dəvənin, üç nəfər uzun ağsaqqallı və hər birinin başında çalma olan ahılın, əllərində zinət əşyaları — qızıl, büxur, ətirli qətran qutuları olan adamların, üstündə parlaq ulduz olan xırda, sadə evcikdə oturub, Cenninin başa düşmədiyi tərzdə, hamının ona tərəf can atdığı balaca oğlanla oynayırdı. Cenninin fikri o qədər uzaqlarda idi ki, uşaqların nə vaxt oxuyub qurtarmalarını hiss etmədi. Anası onun əlinə toxundu. Cenni qorxu ilə reallığa döndü və kor uşaqların onun xoşuna gəldiklərini başa düşmək üçün öz razılığını bərkdən bildirdi. Anası ona susmağı işarə etdi, çünki kimsə söz demək istəyirdi.

Hər şey qurtarandan sonra, uşaqlar vidalaşmaq üçün bir yerə yığışdılar. Sonra qapıda toplaşıb, onlar gedən avtobusun səsindən qışqırışır və əl-qol atırdılar. Belə ki, Cenni onların çəhrayı, gülümsər simalarını və yuxarı qalxıb vidalaşan əllərini yadında saxladı.

Evə gedən yol boyu qız tamamilə susmuşdu. Anası onun yorğun olduğunu zənn edib, otağına ötürdü, elektrik sobasını yandırıb, onu yerinə uzatdı. Cenni buna qədər çox xəstə idi və bu onun üç ay ərzində bayıra birinci çıxışı idi. O, çəhrayı atlaslı pərqu ədyalının altında rahat yerləşdi və çoxlu milad hədiyyələrinə — kitablara, oyuncaqlara, təzə düyməli xələtə, qızıl qol saatına və qəşəng yol çantasına baxmağa başladı. Ən yaxşı hədiyyə isə atasının verdiyi at idi. Onun şəxsi atı indi budaqdadır. Bu vaxt qısa və enerjili həyatında ilk dəfə birdən onun başına belə bir fikir gəldi ki, o həqiqətən də xoşbəxt uşaqdır. O indi oyuncaq görməyən həmin kor uşaqlar

və marokkadan uzaqda, tamamilə oyuncaqları və qidaları olmayan uşaqlar haqqında düşündü. Onun xalası Rozmari onların bir neçəsinin qayğısını çəkmiş və bu haqda çox yazmışdır. Cenni xalasının onun yaşda cır-cındırda gəzən uşaqların, öz yaşayışları üçün özləri qazanan və küçələrdə tək yatan, kifayət qədər azuqəsi olmadığından ən kiçikləri belə xəstələnən yeni dünyanı açıb baxmağa imkan yaradan hekayə kimi cəlbedici və həyəcanlı məktublarını oxumuşdu. Cenni ən kiçikləri, xüsusilə də, dayələrin qoruduğu və ona heç vaxt əlinə almağa icazə verilməyən, bunu isə çox istəyən çağaları həddindən artıq sevirdi. O körpələrin isə yəqin ki, dayələri yox idi və bu ona onları əldə saxlamaq üçün əlverişli şərait olardı.

Ən təəccüblüsü o idi ki, yaxın gələcəkdə xalası Rozmarinin yığdığı uşaqları həqiqətən görəcək. Milad bayramından altı həftə sonra o, atası və anası maşınla uzun səyahətə çıxacaq və bu səyahət xalası Rozmarinə və onun şimali Afrika dağlarındakı uşaqlarına baş çəkməklə bitəcək. Həkim deyirdi ki, Cenniyə günəş və isti yer lazımdır və ona görə də onlar günəş olan yerə yollanmalı idilər. Həyat tonusunu qaldırmaq vasitəsi olan dərman, maşınla səyahət idi ki, bunların da hamısına o artıq malik olmuşdu. Lakin nə məhəbbət, nə pul yanvar ayında İngiltərədə günəş təmin edə bilməz, ona görə də onun sağlam, gündən yanması və gümrah olması üçün mavi səması, sarı qumlu çimərliyi və sakit dənizi olan ölkəyə gedəcəklər. Atasının oranı necə tapacağı ona maraqlı idi. O vaxtı müdrik adamlar günəşi necə izləyirdilər. Bəlkə atası da günəşi izləməklə tapacaq?

Ulduzlar, günəş, Milad yolkası — qızın yuxusuna süzüldü və anası sinidə biskvit və çay gətirəndə balaca qızını möhkəm yatmış gördü. O bir neçə müddət onun qızarmış sifətinə, nizamsız səpələnən saçlarına baxdı, sonra işığı söndürüb, pəncərəni açdı və otaqdan səssiz çıxdı.

Altı həftədən sonra Cenni valideynlərilə, həqiqətən cənuba yola düşdülər. O, yüngül maşının arxa oturucağında isti ədyala və örtüyə bürünüb oturmuşdu.

Kanal üzərindən keçəndə üçü də dəniz xəstəliyinə tutuldular və Cenni olduqca pis vəziyyətə düşdü. Boz su çoxluğu arxada qaldıqca, onlar tükənməz uzun qovaq ağaclarının yanından keçərək düz fransız küçələri ilə şütüyürdülər və səyahət qızın xoşuna gəlməyə başlayırdı. Kənd uşaqlarını qabaqlarında önlük, qoltuqlarında uzun bulkalarla görmək, yerli camaatın tanış olmayan yerli danışığını eşitmək çox maraqlı idi. Atası bir neçə şəhərdə maşını saxlayır və onlar ailəvi qədimi kafedral yığınacaqlarına baş çəkirdilər.

Dördüncü gün İspaniya sərhədini keçdilər, yol qarlı Piriney dağlarından keçirdi. Aşırımdakı böyük olmayan mehmanxanada gecələməli oldular. Cenni o qədər yorğun idi ki, çarpayısına özünü güclə çatdırdı və o dəqiqə yatdı.

Səhəri gün tezdən onu elə bil səhər konsert düzəltmiş həyətdəki toyuqların qaqqıltı səsləri oyatdı. Hələ çox qaranlıq idi, ancaq Cenni

yataqdan atdanıb pəncərəni geniş açdı. Sifətinə təmiz şaxta havası vurdu. Yarımdairəvi yüksələn əzəmətli ağ soyuq dağlardan üfüq havanın işıqlanmasını xəbər verən ilk zəif şüalar əmələ gəlirdi. Onların üstündən səhər ulduzları asılıb qalmışdı. Hələ Cenni heç vaxt belə böyük parlaq ulduz görməmişdi. Soyuq onu yenidən ədyalın altına girməyə məcbur etdi, lakin o elə uzandı ki, ulduzu görsün və sönmüş göy qübbəsini seyr etsin. Müdrik aqillərin izlədiyi bu o ulduz olmuşdur? Onun təsəvvürünə parlaq simalı uşaqların necə oxumaqları gəldi:

Biz Onun ulduzunu görmüşük,
Qaranlıq günaha batma gecəsi
Onun güclü səma işığı
Bizi Körpə olan təknəyə aparır.

Birdən onun ürəyində Əhdi-Cədid ulduzunun izilə üç dəvənin üstündə səyahətini davam etdirmək arzusu baş verdi. Səma işıqlarının axtarışı onları hara aparacaq, harada həmin həyat işığını tapacaqlar? Bəlkə uzaqlarda qaranquşların uçduğu cənubda və ya təknədəki Çağanın ayaqları altında tapacaqlar. Cenni bunları bilmirdi və tezliklə bir neçə saatlıq yatdı. Yenə oyananda dağlar artıq günəşdən şəfəq saçırdı və öz ağlığı ilə göy səmanın fonunda aydın seçilirdi.

— Biz səni tez oyatmaq istəmirdik. — Yatağın yanında ayaq üstə dayanan anası dedi. — Tez geyin və səhər yeməyinə get. Atan artıq maşınla məşğuldur. O deyir ki, bu gün axşam biz artıq Madriddə olmalıyıq.



XIV fəsil

Bir mart səhəri tezdən ingilis bacısı oyanıb, o dəqiqə yatağından qalxdı ki, havanın necə olduğuna baxsın. O müəyyən etdi ki, bu gün yaxşı olacaq, çünki səmanın şərq hissəsi qalxan günəşin çəhrayılığından çox yüksək olan yarımşəffaf uzunsov buludlarla örtülmüşdür, qərbdən isə büllur kimi təmiz idi. „Belə olmalıdır“ — şadyanalıqla bacı fikirləşdi, çünki bugünkü günü çoxdan gözləyirdi. Bu gün onun xalası qızı, əri və onların qızı Cenni iki həftəliyə İngiltərdən gəlirlər. Cenni haqda fikirləşərək səhər yeməyi hazırlaya-hazırlaya sakitcə oxuyurdu.

Yuxudan oyanarkən Kinzanın ilk hərəkəti həmişəki kimi pişiyinin burada olması əminliyi ilə əlləri uzanmış halda olurdu. O öz sevimlisini dizləri üstə dartıb oturdur və ucadan oxumağa başlayıb hazırlama işarəsini bildirirdi ki, onu yuyundursunlar, geyindirsinlər, yeni xoşbəxt günə hazırlasınlar. Bacı bu siqnalı eşidib, qızla məşğul oldu. Sonra əlindən tutub dama qalxdılar və mavi yaz səmasının altında dəyirmi masa arxasında əyləşdilər. İsti və ətirli qəhvə, pişik balası üçün yağlı süd — hamısı bir-birini kifayət qədər tamamlayırdı. Belə üç xoşbəxti heç yerdə tapmaq olmaz.

— Bu gün bizə bir qız gəlir, — onun ayaqları altında topla çətin oyun oynamaqla hoqqa çıxaran Kinzanı və pişik balasını tapdalmamağa çalışırdı. Masanı yığışdıra-yığışdıra bacı dedi: — Bu gün bizdə istirahət günü olacaq. Birlikdə bazara gedərik, ləzzətli şeylər alarıq və gələn qız və hamımız üçün bayram təşkil edərik.

— Bayram, bayram! — sevinclə Kinza qışqırdı.

— Olar sizin əvəzinizə zənbili mən aparım?

— Gedək! Gedək!

— Hə, gəl gedək!

Onlar gün düşmüş küçəyə çıxdılar. Bacı çoxdandır özünə boş gün götürmürdü, lakin bu gün əvvəlcədən heç kimi qəbul etməyəcəyinə xəbərdarlıq etmişdi, o ancaq Cenninin gəlişinə hazırlaşmaq istəyirdi.

Onlar bütün alış-verişi etdikdən sonra o, Kinzanı və zənbili dükanda Həmidin himayəsində qoydu. Məşğul olan zaman o tez-tez belə edirdi, çünki tam əmin idi ki, bu iki nəfəri hansısa düyün bir-birinə bağlayır, bəlkə də onlar bacı-qardaşdılar və bir-birlərinin cəmiyyətində olmağa hüquqları var. Həmid ona bələdçilik edəndə Kinza tam təhlükəsiz və xoşbəxt olurdu.

Tək qalan bacı Cenniyə gül-çiçək çələngi yığmaq üçün demək olar ki, qaça-qaça şəhər kənarındakı dağlara yollandı.

O getdikcə daha da yüksəklərə qalxırdı. İsti külək onun sifətinə vurur, günəş daha da parlaq şüalanırdı. Nəhayət o, təpənin başına qalxdı və buradan demək olar ki, bütün şəhər görünürdü. Biri digərini sıxışdıran dam örtükləri, məscidin ağ minbərinin başına tac kimi qoyulmuş yuxarı qalxan aypara aydın görünürdü. Sonra o, bazar meydanının arxasındakı balaca evini axtardı və bu günahlı, qaranlıq yerdə Rəbbin, heç olmasa özünün bir şahidə malik olması düşüncəsi ürəyini fərəh hissilə doldurdu. Düşündü ki, O, necə də xeyirxah Çobandır ki, itmiş qoyunlarını hər yerdə tapır: dağ kəndələrində, şəhərin dar küçələrində axtarır. Bir şeyə əmin idi ki, iki-üç savadsız cəsur qadın, cındır paltarlı balaca oğlanlar istər burada və ya orada insanlar onun səsini eşidirlər. Onlar müfəssəl qaranlıqda işıq nöqtəsi idilər. Onun missioner evi isə yeganə yer idi ki, orada İsa Məsihə açıqca sitayiş edilir və sevilir. Onun evinin qapısından başqa şəhərin gözü qabağında uzanan bütün qapılar Onun üçün həqiqətən bağlı idi. O, özünün tənha guşəsini heç bir saraya və özünün sadə əməyini heç bir parlaq mənsəbə dəyişməz.

Öz yaşını unudub, özünü gənc və xoşbəxt hiss edirdi. Ətraf çiçəklər bolluğu idi və o, ağ nərgizlər, mavi süsənlər, tünd qırmızı zanbaqlar dərdi.

— Necə qəşəngdirlər! — o ucadan dedi. Mən Cennini də bura gətirəcəyəm və biz birlikdə gül yığacağıq. Cenni haqqındakı xəyalı keçmiş xatirələri onun yadına saldı. Cenni öz mühiti ilə onun tənha yetim uşaqlığını bəzəyən xalası qızı Elizabetin qızı idi. Lakin onlar birlikdə böyümüş və sonra yolları ayrılmışdır. Onların taleləri, zövqləri, maraqları tamamilə müxtəlif

idi. Cenniyə olan məhəbbətləri demək olar ki, onları birləşdirən yeganə zəncir idi. Haçansa onlar bacı kimi idilər, lakin Elizabet varlı adama ərə getdi və onun gözəl evinə köçdü. O isə hərbi xəstəxanada təcrübədə olarkən onu sevən O kəslə rastlaşdı və O onu bu balaca dağlıq yerə göndərdi ki, Onun itmiş qoyun və quzularını axtarsın.

Onun başına gələn bütün hadisələri Elizabet və əri ağılsızlıq hesab edirdilər. Bunu bilərək Rozmari öz kiçicik missioner işi haqda sevincini və təəssüfünü, həmçinin də Elizabet üçün xoşbəxt həyat dolğunluğunu yazmaq çətin idi, ona görə onların yazışmaları, əsasən Cenni haqqında olan seyrək məktublar idi və hər Milad bayramında Rozmari qızın yeni fotoşəkillərini alırdı. Onun badamı gözlü, saçsız çağa vaxtından ta bir ildən sonra ayağında yun corab ayaqaçan, kəkili alnına tökülüb gəzən vaxtına qədər şəkilləri albomda saxlamışdı. Daha sonra Cenni çimərlikdə çimərlik kostyumunda, Cenni hündür belli paltarda qızçiçəyi biçənəyi olan tarlada, Cenni önlükdə gəlinciyini çimizdirən zaman olan şəkillər.

İki il keçdi və Rozmari saçları arxasından səliqə ilə yığılıb böyük bantla bağlanmış və formada məktəbə yollanan şəklini alıb daha da heyrətləndi. Ən axırıncı əksi, Cenninin at üstündə çapar kostyumundakı şəkli və atın xəyalı bacıda xoşagəlməz hissiyyat oyatdı. Necə ağılsızlıq olardı bu uşağın gəlişinə böyük ümid yaratmaq! Nə təklif edə bilərdi qıza ki, onun hər şeyi artıqlaması ilə var idi: sahibi olduğu möcüzəli uşaq otağı, uşaq çarpayısında atlas ədyalın altında uzanan uşaq boyda çini gəlinciyi. Cenni bir dəfə bu haqda ona yazmışdı. At üstündə atasının malikanəsinə çapan qızın mavritin uşaqlarının coşğunluğu ilə keçirən balaca qonaqlıqlar, əyləncələr, əlbəttə, onu təngə gətirirdi.

Bir az məyus olan xala Rozmari yığdığı gül çələngi ilə geri qayıtdı və xoşbəxt, konfetdən yapışmış Kinzanı da götürüb, birlikdə evə yollandılar.

Saat dörddə ev təmizlikdən parıldayırdı və qonaq otağını nərgizin incə ətri bürmüşdü. Masa çay dəstgahı üçün bəzədilmişdir.

— Ana, bax, gör necə qəşəng qızdır! Sən heç mənə deməmisən ki, Rozmari xalanın balaca qızı var.

Sonrakı anda onlar oğlanların izdihamından çıxdılar və Elizabet on il bundan əvvəlki kimi cavan, qızğınlıqla xalası qızını öpdü. Cenni isə çömələrək oturub Kinza ilə dostluq etməyə çalışdı.

— Cenni, — anası xoşagəlməz tərzdə dedi, — sən hələ Rozmari xalanla görüşməmisən.

Qız ayağa qalxdı nəzakətlə xalasını öpüb görüşdü və yenidən Kinza ilə məşğul olmağa başladı. Qadınların hər ikisi də onları tək buraxıb, Cenninin atası ilə danışmağa başladılar.

Sonra pasportları təqdim edib, blankları dolduran zaman, Rozmari on il görmək arzusunda olan uşağa sakitcə dayanıb baxdı. Onun qarşısında nazik uzunayaqlı, gözəl mavi büzməli partarda və ayağında ağ sandallı bir qız dayanmışdı. Onun çiyinlərinə səpələnmiş açıq qıvrım saçları, oynaq

sifətində böyük boz gözləri və bir az da buxağı var idi. „Nağıllarda olan qız“, — Rozmari fikirləşdi və tanış olmaq üçün onun yanına gəldi. Cenni həyəcanla xalasına tərəf döndü.

— Bu qıza nə olub? — qız təəccüblə soruşdu. — Mən ona parıldayan sancağımı göstərdim, o isə ancaq irəli baxırdı.

— O kordur, Cenni, — yumşaqcasına xalası Rozmari dedi, lakin bu onunla oynamağa sənə mane olmayacaq. Sən oyuncaqlarını ona ver ki, o əlləri ilə onları yoxlasın və səni də barmaqları ilə qoy əlləsin ki, tanış olsun. Sən ona mahnı oxuya bilərsən. O səni sevəcək, mən buna əminəm.

O, Kinzanın balaca əllərindən tutub qaldırdı və yüngülcə onu Cenninin sifətinə toxundurdu, sonra yaxınlaşan xanım və cənab Sviftə tərəf döndü. Lakin söz söyləməzdən əvvəl, Cenni anasının əllərindən tutdu və yaşla dolmuş gözləri ilə ona baxdı.

— Anacan. O kordur, — qız pıçıldadı, yolka şənliyindəki uşaqlar kimi.

— Eybi yox, əzizim, xanım Svift mülayimliklə cavab verdi. O, xoşbəxt uşağa oxşayır, bizə onun üçün balaca hədiyyə tapmaq lazımdır. İndi isə gedək və Rozmari xalanın evinə baxaq.

Onlar hamısı meydandan keçib evə getdilər. Böyüklər irəlidə gedirdilər, Cenni isə Kinzanı aparırdı və öz yeni rəfiqəsinə başı elə qarışmışdı ki, ətrafdakılara fikir vermirdi. O indi olduqca xoşbəxt idi, nəinki əvvəlki tətillərdə, çünki baxmayaraq ki, ana-atasını çox istəyirdi, lakin hələ onun on yaşı vardı və uşaqlarla oynamaq və ən çox kiminsə qayğısına qalmaq istəyirdi. Gəlinciklərlə oynamaq üçün o artıq böyümüşdü və sevimli gəlincikləri üçün çox darıxırdı. Lakin bu qıvrımsaçlı üç yaşlı qızla oynamaq daha yaxşıdır, nəinki onun sevimli gəlincikləri ilə. O, hətta əvvəllər təsəvvür etmirdi ki, bu necə də qəribədir.

Onlar xalanın yaşadığı dar, köndələn küçəyə gəlib çatdılar və xanım Svift var gücü ilə çalışırdı ki, daş döşənmiş küçədə oturan uşaqların və cındır paltarlı kasıbların görünüşündən pərt olduğunu biruzə verməsin. Lakin o, Rozmari xala axırıncı qapının qabağında dayanıb açarı axtaran zaman öz dəhşətini gizlədə bilmədi. Girişin qabağını kəsib, cır-cındırın altında, sinəsində nəsə tutan yazıq bir qadın pilləkəndə oturmuşdu. Rozmari xəstəlikdən və acından yarıölü vəziyyətdə, bir dəri, bir sümük olan balaca uşağı cır-cındırdan azad edərək, ona verən qadınla danışdı. Xanım Svift Cennini saxlamaq üçün əlini uzatdı, ancaq çox gec idi, artıq irəli addımlayıb xalası ilə birgə bu yazıq canlıya tərəf əyilmişdi.

— Cenni, — anası ciddi surətdə onu çağırdı, — bura gəl!

Lakin Cenni ona heç bir əhəmiyyət vermədi. O, kədərli Rozmarinə baxdı və soruşdu:

— O, öləcək?

— Bilmirəm. Ümid edirəm ki, yox. Gəlin evə keçək.

O, qapını açdı, qadını müalicəxanaya göndərdi və orada gözləməyi tapşırdı, özü isə qonaqların yanına qayıtdı. Xanım Svift harada olduğunu

unutmuş kimi, əvvəlki yerində dayanmışdı. Rozmarinin artırmasındakı belə balaca vücudun görünüşündən keçirdiyi ilk sarsıntı ilə hesablaşaraq dedi:

— Rozmari, bizdən narahat olma. Get və onlara kömək et.

Rozmari tərəddüd içində qalmışdı.

— Yaxşı, gəlin gedək yuxarı, — o dedi, — mən sizi qonaq otağına ötürüm, çay stolu açıqdır.

Belə çirkli küçədəki evdə şəkillər və güllər, çox qəşəng çindən düzəldilmiş qablarda səhər yeməyi görmək qəribə idi. Ev sahibəsi qonaqları masa arxasında oturtdu, sonra tərəddüdlə dedi:

— Bu çox nəzakətsiz görünsə də, əgər mən sizi on dəqiqəliyə tərk etsəm, məni bağışlayın. Bilirsiniz, mən bu qadını tanıyıram, o dörd uşağını itirib. Bu uşaq onda olan hər şeydir.

Cenni qətiyyətlə ayağa durdu və öz xalası ilə birləşdi.

— Mən də gedib sənə kömək edirəm, — o ərz etdi.

— Yox, Cenni, — anası qəti dedi, — bu haqda heç söz ola bilməz. Gəl əyləş və çayını iç.

Qız o dəqiqə özündən çıxdı:

— Ancaq mən getmək istəyirəm! Mən istəyirəm ki, uşaq sağalsın. Mən heç bir çay zad istəmirəm. Hə, Rozmari xala, de ki, mənə getmək olar, axı bu sənin evindir. Atacan, de də mənə getmək olar...

Atası tamamilə gözlənilmədən Cenninin köməyinə gəldi.

— Nə olub, o uşağa? — o soruşdu. Nəsə, yoluxdurucudur?

— Yox, yox, — Rozmari cavab verdi. Mən onu artıq əvvəllər görmüşəm. Bu soyuqdan və düzgün olmayan qidalanmadandır.

— Əgər, Rozmari etiraz etmirsə, mən onu buraxdım, Elizabet. — cənab Svift dedi və qələbə çalan Cenni otaqdan çıxanda o, arvadına müraciət etdi. — Əzizim, qoy necə bacarır, kömək etsin. Ona kiməsə kömək göstərmək vacibdir. Əgər o başqasının əzab çəkdiyni görərsə, onda o belə xudbinliyini tərgidər.

— Bəlkə də sən düz deyirsən, — Cenninin anası razılaşdı və sakitcə ah çəkdi. — Əgər onun balaca qardaş və ya bacısı olsaydı, — o fikirli halda əlavə etdi.

Cenni və xalası uşağın üstünə əyilən zaman, onun anası onlara kədərli, lakin adicə bir əhvalat danışdı. Elə gəlirdi ki, çox gec idi, lakin, bəlkə hələ də güman var?...

Rozmari xala qıza müraciət etdi:

— Cenni yuxarıya qalx, plitəninin altındakı rəfdən mənə fincan, qaşıq və qənd gətir.

Cenni cəld və həvəslə tapşırığı yerinə yetirirdi.

— İndi isə böyük çayniki gətir, — xalası ona tapşırdı.

Bir anın içində qız əmri yerinə yetirdi.

— İndi, odur, orada üçüncü rəfdəki həbləri mənə gətir, — xala öz

göstərişlərini verməyə davam edirdi. — İsti su ilə fincanı və qaşığı yaxala, həbləri əz, bir az su əlavə et, o şüşəni ver...

Uşaq qurtum-qurtum dərmanı udurdu. Sonra ona bir neçə qaşıq şirin çay verdilər. Rozmari xala qadınla ərəb dilində danışaraq, bir saatdan sonra yenə də uşağa dərman verməyi başa saldı.

— O, sağalmalıdır, — Cenni öz-özünə pıçıldadı. — Sağalmalıdır! Sağalmalıdır!

Sonra isə Rozmari xala elə bir şey etdi ki, Cenni ona təəccübləndi, heç vaxt buna bənzər bir şey görməmişdi. O, divardakı şəkildə əlində uşaq tutmuş İsanın şəklini göstərərək, qadına Onun haqqında danışdı. Sonra uşağı anasına verib, diz üstə çökdü və bu xəstə uşaq üçün dua etdi.

Cenni başa düşmürdü xalasının dediklərini, lakin bilirdi ki, o gözlərini bağlayıb dua edir. „Maraqlıdır, bu həqiqətən də kömək edəcək?“ — Cenni öz-özlüyündə dərindən düşündü. O da şəklə baxdı və ona elə gəldi ki, şəkildə çəkilmiş uşağın görünüşü necəsə bu uşağı mühafizə etdi.

— O, əlbəttə sağalacaq, — Cenni sakitcə dedi və yenidən uşağın üstünə əyildi.

Birdən mavi damarlı nazik göz qapaqları titərməyə başladı və uşaq gözlərini açdı.

XV fəsil

Bu hadisədən sonra heç bir plan tərtib etməyə ehtiyac yox idi, çünki Cenni qəti qərara almışdı ki, İngiltərəyə qayıdana qədər bu şəhərdə qalacaq ki, Kinzaya dayəlik və xalası Rozmariyə uşaqları müalicə etməyə kömək etsin.

Qızının bu bəyanatından məmnun olan cənab Svift güldü, sonra isə soruşdu ki, iki həftə bu dağlıq rayonda o nə ilə məşğul olacaq, qızının gözlənilmədən xəstə uşaqlara qarşı yaranan meylini təmin etmək üçün başını harada qatsın. Xanım Svift narahatçılıqla ah çəkdi və Cennidən tələb etdi ki, gündə üç dəfə boğazını yaxalasın. Qız sevincini açıqca biruzə verirdi, xalası Rozmari isə ikiqat xoşbəxt idi. O, hesab edirdi ki, tətil çox əla qurtaracaq.

İstirahət günü gündüz xəstələrdən heç kim gəlməmişdi. Cenni xalasının yanından çəkilmirdi.

— Heyif ki, sənin kimi insanlar çox azdır, — o dedi, — heç olmasa uşaqlara düzgün qulluq etməyi bu qadınlara öyrədərdi. Bilirsən, xala, mən fikirləşib qərara gəlmişəm ki, böyüyəndə mən də missioner olub, bura

gələcəyəm. Mənim müalicəxanam olacaq və sənin kimi mən də insanları müalicə edəcəyəm. Mənə elə gəlir ki, bu necə də sevinclidir.

Xalası bir neçə an səssizcə Cenninin özündən razı simasına baxdı, sonra astaca dedi:

— Sənin həyatında çox mühüm hadisə baş verməyincə, sən missioner ola bilməzsən.

— Nəyə görə xala? — təəccüblə Cenni soruşdu. — Mən tibb bacısı olacağam və kiçiklərə necə qulluq etmək lazım olduğunu öyrənəcəyəm. Və mənə artıq heç nə öyrənmək lazım deyil, düzdür?

— Fikirləşirəm ki, lazımdır, — yüngül təbəssümlə xalası Rozmari etiraz etdi. — Lakin mən sənə bu haqda burada — dəhlizdə danışmağa hazırlaşmıram. Gəl özümüzlə yemək götürüb qalanın yanındakı bağa gedək və orada danışaq. Kinza indi oyanacaq, o da bu bağı çox sevir.

— Əla! — Cenni qışqırdı və yığışmaq üçün pilləkənləri iki-iki atdanaraq, yuxarı qaçdı.

— Anam dedi ki, əgər çaya dəvət etsələr qala bilərsən. Mən ona xəbər vermişəm...

— Sən necə də ehtiyatlısan, — gülüməsəyərək xalası Rozmari qeyd etdi, — mən nə lazımdır hazırlayana qədər, sən Kinzanı geyindirərsən.

Bir neçə dəqiqədən sonra Rozmari xala, Cenni və Kinza boş bazar meydanı ilə gedərək, köhnə yarıdağılmış darvazadan keçərək qala divarlarına tərəf getdilər. Cenni ərzaq olan zənbili, Kinza isə top aparırdı. Pilləkənləri qalxarkən onlar şən-şən boşboğazlıq edirdilər, lakin bağa çatanda onun gözəlliyindən susdular. Kinza da dayanıb ləzzətlə ətirləri nəfəsinə dərdi. Elə bil ki, onlar dünya ilə daşdan olan hasar divarla yox, gözəl gülləri olan çox böyük yellənən pərdə arasındadırlar. Günəş hamısının canına işləmişdi və yalnız işgüzar hacıleyləyin yuvadakı qarıltıları, tovuz quşlarının xırıltılı seyrək səsləri və nohurda yumşaq şappıltılarla ağappaq dişi qazın öz yeddi yüngül tüklü balalarını üzməyə öyrətməyi sakitliyi pozurdu.

— Bax, Kinza suya düşməsin, — xalası Rozmari xəbərdarlıq etdi. — Mən çayı hazırlayana qədər ondan uzağda durma.

O, zənbilin içini axtardı. Hər şeyin hazır olduğunu görüb, Cenni Kinza ilə birgə qaçıb gəldilər. Onlar bağın mərkəzindəki, bol qönçəli qızılgül kolları ilə sarılmış süni gölün kənarında oturdular. Sendviclə qonaq edilmiş Cenni sual dolu nəzərlərlə xalasına baxdı.

— Daha mən nə etməliyəm ki, missioner olum? — danışıq kəsilməmiş kimi soruşdu.

— Bu sənin nə etmək istədiyindən asılıdır, — ciddiyyətlə xalası Rozmari cavab verdi. — Əgər sən sadəcə olaraq onları müalicə etmək istəyirsənsə, əvvəlcə ya şəfqət bacısı, ya da həkim olmalısan. Lakin onların çoxu yenə də tezliklə xəstələnə bilərlər və bir də ki, hər halda bizim vücudumuz ölüdür. İnsanda əbədi yaşayan bir hissə əhəmiyyət kəsb edir ki, bu da öz-özlüyündə bir mahiyyət yaradır və biz bunu ruh adlandırırıq. Lazımınca

onlara köməklik göstərmək və onları xoşbəxt etmək üçün yalnız İsa Məsihə aparmaq lazımdır. Lakin aydındır ki, əgər sən özün Onu görməmisən və tanımırsansa, kiməsə İsa Məsihi nişan verə bilməzsən. Ona görə də heç bir əhəmiyyəti yoxdur ki, sən tanıyırsan, ancaq kimi tanıyırsan.

— Dərman verərək hər gün sən nə qədər vaxt itirirsən, — Cenni dedi. — Nəyə görə mən bunları bacarmaram?

— Əlbəttə bacararsan, — xalası Rozmari cavab verdi. — Görürsən, sən başa düşmürsən ki, nə üçün onlara dərman verməkdə bu qədər vaxt itirirəm və mən də çalışıram ki, səni başa salım. Bu kasıb adamların hamısı günahlıdırlar və İsa onları bağışlaya bilər. Onlar ölümdən qorxurlar və yalnız İsa onları bu qorxudan qoruya bilər və onlara istirahət və sakitlik verər. O arzu edir ki, onların hamısını Özünün bağışlanmasına və mərhəmətinə çatdırsın, lakin indi, nə qədər ki, O yerdə yoxdur, onlar Onu görə və eşidə bilməzlər. Ona görə də O, Onu sevən insanların ürəyinə girir və Onunla danışsınlar deyə onların dilindən istifadə edir və onların əlləri ondan ötrüdür ki, başqalarına yaxşılıq etsinlər. Mən dərmanı yalnız ondan ötrü vermirəm ki, onları müalicə edim, həm də ona görə ki, istəyirəm onlar görsün ki, İsa mənim vasitəmlə onların qayğısına qalır və onlara kömək etməyi arzulayır. Yalnız Məsihin məhəbbətindən danışmaq əbəsdir — onlar bunu başa düşməzlər. Onlara bunu şəfqət işi ilə göstərmək lazımdır. Lakin ən əvvəl, bir şeyə əmin olmalısan ki, sənə və sənin vasitənlə təsir edilən məhəbbətlə, belə ki, bu şeylərin hamısında həqiqətən Məsih iştirak edir. Əks təqdirdə bu qaranlıqda boş fənər kimidir.

— Yaxşı, bəs necə bilmək olar ki, O var, ya yox? — Cenni maraqla soruşdu.

— Boş fənərə işıq necə düşər? Qapaqlıq açılır və şam qoyulur. İsa İşıqdır və O içəri girmək istəyir: biz imanla öz ürəyimizin qapısını açırıq və Onu içəri dəvət edirik. Sonra əgər fənərin qapaqcığı təmizdirsə, işıq parlaq nur saçacaq, yox əgər şüşə dumanlı, yaxud çirkdirsə, işıq tutqun olacaq. Birincisi, İsa Öz İşığı ilə nə edir — bizim günahlarımızı bizə göstərir: əsəbilik, özbaşınalıq, səbirsizlik, qulaq asmamaq. Əgər biz həqiqətən də o şeyi istəyiriksə, O bizi təmizləyəcək və Onun gözəl parlaq məhəbbət şüaları bizdə görünəcək və bizim vasitəmizlə nurlanacaq. Və qaranlıqda itən insanlar izdihamla işığa gələcəklər. Lakin onlar fənər haqqında heç düşünmürlər — onlara İşıq lazımdır. Missionerlər əslində çox nüfuzu olmayan adamlardır. Onlar sadəcə boş fənər kimidirlər. İşıq mühümdür, İşıq əhəmiyyət kəsb edir.

Cenni gərgin halda dərindən düşündü.

— Deməli, ancaq çox yaxşı adamlar missioner ola bilərlər, — o ciddiyətlə dedi.

— Lap elə də yox, — xalası Rozmari cavab verdi. — Bir çox yaxşı və mərhəmətli insanlar İsasız da parıldayırlar, qızıl suyuna çəkilmiş fənərlər kimi, əgər onları üzü günəşə qoysaq; lakin günəş axşamlar enir. Bizim

xüsusi yaxşı cəhətimiz heç vaxt Rəbbi qane edə bilməz və onlar o vaxta qədər davam edilər ki, biz hələ sağıq. Sevgi, həyat və xeyirxahlıq İsada əbədilik davam edəcəkdir. Əlbəttə, Onun mərhəməti mükəmməldir, heç kim, İsadan başqa, heç vaxt qətiyyən xeyirxah və yaxşı olmamışdır.

— Odur, atam anamla bağa gəlirlər! — birdən Cenni qışqırdı, sıçrayıb onların qabağına qaçdı. Bu söhbətdən uzaqlaşmağa o şad oldu, çünki xalası Rozmari onun rahatlığını pozan şeylərdən danışırdı, narahat edirdi onu, Cenni isə nəyinsə onu narahat etdiyini xoşlamırdı. Məsələn, onun missionerlərin nüfuzsuz adam olduqlarını deməsi. O dairədə hansında ki, o yaşayırdı, Cenni ən böyük nüfuzlu sima olmuşdur. „Və bu çox düzgün idi“, — qaça-qaça atasının qucağına atdanaraq o fikirləşdi. Atasının təbəssümü və anasının gözlərindəki sevinc o dəqiqə buna onu inandırırdı: nə olur-olsun o həmişə valideynləri üçün ən mühüm və ən nüfuzlu sima olacaq.

Qızını sağlam və gümrah görən ana sevincini bölüşdürən, xoşbəxt və anlaşılan Rozmari ilə Elizabetin baxışları qarşılaşdı. Hər iki qadın üçün əvvəlki dostluqlarının qayıtması böyük sevinc idi. Elizabetin füsunkarlığı və xeyirxahlığı, onun ailə həyatının asayişi Rozmaridə heyranlıq yaratdı. Elizabet isə öz tərəfindən etiraf etdi ki, onun xalası qızı əbəs yerə vaxt itirmir — uşağın üzündəki minnətdarlıq buna onu inandırdı ki, əvvəl heç kimə etibar etmədiyi Cennini indi yalnız Rozmarinin himayəsinə həvalə etmişdir. Bu çox qəribə görünürdü, çünki bir neçə həftə bundan qabaq o biləndə ki, Cenni kasıblarla və xəstələrlə iş görəcək dəhşətə gəlirdi. O, həmişə qızını günəş işığı və gözəlliklə əhatə etməyə çalışırdı. Lakin gözəlliyin müxtəlif görünüşləri var, — o özlüyündə fikirləşdi. — Müalicə etmək, kömək etmək, sevmək və vermək — bunlar çox gözəldir. Mən istəmirəm ki, Cenni dustaq və ya təklik sevən olsun. Mən istəyirəm ki, o dünyada firəvan yaşasın və müvəffəqiyyətlə ərə getsin. Lakin mən onu da istəyirəm ki, o xeyirxah və qayğıkeş böyüsün və mən düşünürəm ki, Rozmari bunda ona kömək edəcək...“ Öz fikirlərini ərinə bildirəndə, o tamamilə onunla razılaşdı.

— Bu müalicəxanada hansısa işi görməyi öyrənəcək, — o dedi. Bəlkə onda başqa insanlar haqqında maraq və qayğı oyanacaq.

— Rozmari, — Kinzanı əzizləyə-əzizləyə Elizabet dedi, — bəlkə sən bu axşam işlərini qoyasan və bizimlə mehmanxanada yemək yeyək?

— Bazar günü mənim istirahət günümdür, — Rozmari cavab verdi. — Mən məmnuniyyətlə Kinzanı yatırdıb gələrəm.

— Anacan, bax — Cenni qışqırdı. — Tovuz quşu öz quyruğunu aşağı saldı! Necə də qəşəngdir!

Qız valideynlərini tovuz quşu dayanan tərəfə çəkib dartdı, Rozmari isə Kinza ilə aramla evə yollandılar.

Kinzanı yatırtmaq hələ tezdir və ona görə də Rozmari onunla pilləkənlərdə oturdu. Onları qonşu uşaqları dövrəyə almışdı və onlar bir

neçə müddət vaxtlarını birlikdə keçirtdilər. Rozmari onlara dağlarda azmış qoyun sürüsü rəsmini göstərdi. Baxmayaraq ki, onlar bu əhvalatı bilirdilər, lakin yenə də onlara maraqlı və cəlbedici idi.

Rozmari Kinzanı yataq otağına gətirdi, uşaqlar isə hələ də pilləkəndə oturub mələşən qoyun sürüsünü yamsılayaraq „mə-ə-ə-ə" edirdilər.

Tezliklə Kinza yatmağa hazır idi, o, çarpayının qabağında dizi üstə dayandı və əllərini dua üçün qatladı:

— Bağdakı yaxşı günümüzə görə çox sağ ol və Cenninin, küçədəki bütün uşaqların xeyir-duasını ver, — o tez-tez tələffüz etdi.

Onu, əlbəttə, küçə uşaqları o qədər də maraqlandırmırdı. Bu gün bazar günü idi, bugünkü gün isə o hər dəfə yatmazdan əvvəl konfet alardı və həmin anı güclə gözləyə bilirdi.

Bir saatdan sonra bu münasibətlə ən yaxşı paltarını geyinən Rozmari cənab və xanım Sviftlə və Cenni ilə mehmanxananın böyük restoranında oturmuşdu. Rozmari üçün burada Elizabetlə oturub, şam edib, söhbət etmək ən böyük ləzzət idi. Bu gün söhbət Kinza haqqında oldu.

— O necə də qanı şirin məxluqdur. — xanım Svift dedi — onun kor olması necə amansızlıqdır. Gələcəkdə sən onunla nə etmək fikrindəsən, Rozmari?

— Mən istəyirəm ki, heç olmasa üç ildən sonra o, xüsusi məktəbə daxil olsun — Rozmari cavab verdi. — Orada o tikməyi və brayl əlifbasını öyrənsin.

O bu yolla həyatı üçün pul qazana bilər. Nə vaxt özündə məharət taparsa, yenidən mənim yanıma qayıdar. Kor qız, həqiqi məsihçidir, öz xalqı arasında missioner ola bilər.

Cenni risklə stəkanı yıxaraq stulda həyəcanla əyildi, stəkan az qaldı ki, düşsün:

— Korlar üçün məktəb, atacan? — o ucadan dedi, — hara ki bizi milad yolkasına dəvət etmişdilər. Əgər Kinza ora daxil olsaydı, anacan, o hərdən bizə də gələrdi və balaca bacım kimi onun qayğısını çəkərdim və o da xoşbəxt olardı, əgər mən onun yanında olaramsa, orada onlar milad bayramını çox yaxşı keçirərlər. O nə vaxt gedəcək, Rozmari xala? Onu indi özümüzlə götürə bilərik?

Xala qızları sualverici tərzdə baxışdılar.

— Bu pis fikir deyil, — xanım Svift dedi, — Bu həqiqətən yaxşı məktəbdir və orada ən kiçikləri qəbul edirlər. Conun orada nüfuzu var. Nə qədər tez daxil olsa, o qədər də tez ingilis dilini öyrənə bilər. Bundan başqa, o bizimlə maşında gedər və onu aparmaq sənə gərək olmaz.

Rozmari bilmirdi ki, nə cavab versin. Hər şey gözlənilməz oldu. Həyəcanlanmış Cenni səbirsizlikdən stuldan tullandı.

— Heç bilmirəm, nə deyim, — nəhayət Rozmari dilləndi, — bu sizin tərəfinizdən çox böyük lütfkarlıqdır, lakin bu necə də zərrə qədər görünür.

— Əlbəttə, — xanım Svift cavab verdi, — nə vaxt qərara gəlsən bizə

xəbər ver. Yox, Cenni, daha bəsdir bu haqda; insanlar hansısa mühüm iş üçün əvvəlcədən fikirləşməyərək qərara gələ bilməzlər, yoxsa onlar düzgün hərəkət etmiş olmazlar.

Dondurma verildi və Cenni bir neçə müddət Kinzanı unutdu, söhbət başqa mövzuya keçdi və Rozmari evə getmək üçün ayağa durdu.

— Biz səni ötürərik, — xanım Svift də ayağa duraraq dedi.

— Cenni, əzizim, nömrəyə qalx və uzan yat.

— Yaxşı, — qeyri-adi iltifatla, iki pay dondurmadan ləzzət alan Cenni cavab verdi. O, xalasını qucaqladı və qulağına elə pıçıldadı ki, heç kim eşitmədi:

— Sən bu haqda yaxşıca fikirləş, hə, xala?

— Hə, Cenni, yaxşı. Mən Allahdan soruşaram, qoy O mənə göstəriş versin ki, necə düzgün hərəkət edim.

— Sən düşünürsən ki, O sabah səhər sənə göstəriş verər?

— Bilmirəm, Cenni. Bu elə böyük işdir ki, mənə iki gün vaxt ver.

— Yaxşı. Ondan xahiş elə ki, bəlkə bizə tez göstəriş verər. Ondan xahiş et ki, O „hə“ desin.

— Bəs sən xahiş etmək istəmirsən?

— Mən bilmirəm, necə ...lakin mən çalışacağam... Gəlin görüşək, xala.

— Gecən xeyrə qalsın, Cenni!

O, qızın qollarının arasından azad oldu və Svift ər-arvadla birlikdə qaranlıq bazar meydanına çıxdı. Geri dönüb, Cenniyə əl elədi, o da öz növbəsində ona əl elədi.

XVI fəsil

Həmid sevinclə baharın gəlməsini qarşıladı, çünki nə qədər insan möhkəm olsa da, iliyə işləyən sərt küləkdən, yağışdan və qardan ayaq barmaqlarının, əllərin donmasına alışmaq mümkün deyil. İndi hər şey arxada qaldı-günəş torpağı qızdırır və ovundurur, hacıleyləklər qalanın başında öz yuvalarını qurur, çiçəklər dağları örtür, albalı və ərik ağaclarının çiçəkləri isə vadini daha da gözəlləşdirir. Həmid təbiətdəki bütün canlılar kimi böyümüş və bir zamanlardan əvvəl daha çox uyuğa oxşayırdı. Bacının ona verdiyi paltar yırtılmışdı, lakin indi bunun əhəmiyyəti yoxdur.

Xoşhal Həmid yağa batmış barmaqlarını yalayaraq öz çadırında dartındı. O, diqqətli nəzərlərlə gözünün qabağında baş verənlərə baxdı. Kinza Cenni ilə bacının yanında atdana-atdana gəlirdi. Görünür onlar bazarlığa çıxmışdılar. Birdən ani baxışları onu diksinməyə məcbur edən bir şey sezməyə başladı. O, gözlərini silib yenidən baxdı. Yox. Bu yuxu deyil. Onun rəngi ağardı, özünü çadıra atıb plitənin arxasında gizləndi. Sonra öz komasından qorxmuş dovşan kimi ehtiyatla boylanaraq, daha sonra nə baş verəcəyini müşahidə etməyə başladı.

Qapı ilə üzbəüz onun atalığı dayanıb, baxışlarını müşahidə altında olmalarını hiss etməyən naringi alanların üç nəfərdən ibarət balaca qrupuna dikmişdi. Sonra onlara tərəf addımlayaraq ilan dovşan balasına baxıb dişləməyə fürsət gözləyən kimi o da eləcə gözlərini Kinzaya dikdi. Onun iti gözləri hər şeyi müşahidə etdi: korun hərəkətləri, onun xoşbəxt kəkələməsi, yaxşı isti paltarları. O ora o qədər yaxın getdi ki, Həmidə elə gəldi ki, bu dəqiqə onu qamarlayacaq. Lakin o ona toxunmadı. O, sadəcə olaraq, izdiham arasında gözə görünmədən onların ardınca getdi. Həmid gördü ki, onun nifrətdən gözləri necə də alışıb yanır və poladdan qayrılmış amansız tələ kimi ağzını bərk-bərk sıxmışdı.

İlk sarsıntıdan Həmid özünə gəldi. O mühakimə etməyə başladı. Atalığı bazara iş dalınca gəlib və şübhəsiz ki, bu axşam da şəhərdən qayıdacaq. O, Həmidi görmədi və görməyəcək də, çünki ən münasib vaxtda o, dağlara qaçacaq və qaranlıq düşənə qədər orada qalacaq. Kinza üçün kiçicik də olsa, narahatçılıq hiss etmədi. Kinza onu sevən və heç kimə verməyən təhlükəsiz ingilis bacısının evində idi. Onun evi — bu qaladır ki, onun atası ora heç vaxt girə bilməz.

Həmidin sahibi gəlib, onu plitənin yanında yox, altında tapanda təəccübləndi. Onun boynunun ardına bir sillə çəkdi, əks təqdirdə Həmid üzünə qabarmadı, lakin sahibi xırda pulla ödədiyi əmək haqqını kəsdi və bu da onu çox hiddətləndirdi. Ancaq on dəqiqədən sonra o bunu unudub, təhlükəli zonanı necə keçmək və dağlarda gizlənmək barəsində plan qurmağa başladı. Tezliklə o, döşənmiş küçədə oldu və yeyin addımlarla bir az maili çıxıntısı olan sıldırım qayalıqlı təpədən başlayan şəhər divarlarına tərəf yollandı. Gümüşü-boz zeytun ağacları özünün yaz çiçəkləri ilə xüsusilə gözəl idi. Çox da böyük olmayan çəmənliyin ortasında xüsusi gözəlliyi olan ağac böyüyürdü. Bu bütün albalı çiçəyi olan dəniz köpüyünə bənzəyən dağların başındakı qarı xatırladan, ingilis bacısının kitabındakı bağışlanmış təmiz ürəyə oxşayan ağ səhifə kimi bir ağac idi. „Ürəyi təmiz olanlar bəxtiyardırlar, zira onlar Allahı görəcəklər“ — bu şeri oğlanlar həmin gecə öyrənirdilər. Və Həmid səhər yeməyinə aldığı çörəyi ağzında çeynəyərək, öz-özünə onu təkrar edirdi. Oğlan ətraf təbiətlə sevinirdi, lakin onun sözlə deyə bilmədiyi, amma həmin gecə onda yaranan, tavanın yanında diz üstə çöküb bir xoş dua etməsi ürəyinin dərinliyində daxili sakit sevinc onu daha da xoşbəxt edirdi. O əmin idi ki, onun duası eşidilib. O vaxtdan o özünü belə tənha hiss etmirdi, əvvəllər olduğu kimi belə güclü qorxu ilə həyəcanlanmırdı. Həmid dərin xoşbəxtlik qaynağı tapmışdı və bundan da o özünü fiziki cəhətdən güclü və cəsarətli hiss edirdi. Və bu səhər də o əsl xoşbəxtliyi sınaqdan keçirtdi.

Bir bulağın yanından keçərkən, o başını xəfif axan suyun altına soxdu ki, bir az sərinləşsin. Sonra yaz günəşinin nəvazişli şüaları altında yaşıl otluqda uzandı.

Rozmari xala, Cenni və Kinza isə onları girişəcən izləyən və qapı

bağlanana qədər müşahidə edən qəddar qamətli insanı görmədən evə yollandılar. Elə müalicəxananı açmaq vaxtı idi. Xalası Rozmari Kinzanı mehmanxanaya aparmağı Cenniyə icazə verdi. Və budur bir əlində yeni kitab, o biri əlində Kinza Cenni mehmanxanaya valideynlərinin yanına yollandı.

İki nəfər uşaq bazardakı izdihamdan keçərək yollarının üstündəki qala olan bağa girdilər. Bağda heç kim yox idi; hamı məşğul idi: kimi satırdı, kimi alırdı. Bu sakitlik Cennini cəlb etdi, o çox gözəl bir yer tapıb, kitab oxumaq üçün oturdu və belə ki, ən maraqlı yerdə dayandı. Düzdür, anası ona demişdi heç yerdə dayanmasın və xalası Rozmarigildən mehmanxanaya gedən yolda heç yerə girməsin, ancaq anası onun nə vaxt çıxacağını bilmirdi. Təsvir edilən hadisələr onu o qədər cəlb edib ki, Kinza necə ayağa durub, bağın o biri hissəsinə aparan köhnə alaqapı yolu ilə getdiyini hiss etməyib. Qız heç bir təhlükəli toqquşmalar yaratmamaq üçün əlləri irəli uzanmış halda tez-tez çox da böyük olmayan gəzintilərə çıxırdı. Dərk edəndə ki, çox uzağa gedib, onda bir yerdə dayandı və bir kimsə onu götürənədək astadan çağırırdı.

Cenni çox böyük səylə oxumağa davam edirdi. Fəsli axıra qədər oxuyub çatdırmağa səbri çatmır ki, öyrənsin. Annabella adlı at mükafatı alacaq, ya yox. Gözucu o gördü ki, Kinza alaqapının yanında dayanıb. Dərhal onu götürmək lazımdır, yalnız bir səhifə oxuyub qurtarana qədər onunla heç nə olmaz. Cenni qaça-qaçla axıracan oxudu və Anabella qalib gəldiyi üçün rahat nəfəs alaraq tez ayağa durdu. Lakin Kinzanın təkcə alaqapıdan o tərəfə keçməsinə imkan yaratdığı üçün özünü günahkar hiss etdi.

— Kinza? — həyəcanla onu çağırdı, kölgəlikdən gün düşmüş çəmənliyə qaçdı.

Cavab gəlmədi. Alaqapıdan bağın o biri hissəsinə boylanaraq bağ uzunu qaçırdı. Heç yerdə heç kim yox idi! Cenni dayandı və dəhşətdən gözləri daha da genişləndi. O qızı axtararaq bir koldan o biri kola qaçırdı. Ürəyi həyəcanla çırpınırdı. Pilləkanlardan yuxarı-aşağı qaça-qaça, Kinzanın heç izini də tapmadan geri qayıtdı. Qız iz qoymadan yox olmuşdu.

Cenni vahimə içində bazar meydanına atıldı. Heç kimi görmədən səpələnmiş mallara ilişə-ilişə bazarda vurnuxurdu. Hövsələsizliklə adamları itələyə-itələyə rəngi qaçmış və göz yaşlarından islanmış halda keçərkən adamlar onun ardınca xeyirxahlıqla baxırdılar. Onlar elə fikirləşirdilər ki, anasını itirib və mehmanxananı göstərirdilər, o isə yalnız başını yelləyərək, faydasız axtarış üçün irəliyə can atırdı.

Nəhayət, o gücsüz halda dayandı. Artıq heç yerdə axtarmaq mümkün olmadığından və adamların onu görməməsi üçün yenidən bağa qayıtdı və bədbəxtlik gətirən alaqapının yanında təkcə dayanıb, daha sonra necə etmək yolunu həll etməyə çalışırdı. Xalasının yanına qayıtmaq sadəcə olaraq qeyri-mümkündür. Xalası Rozmari ona etibar etmişdi, o isə bu etibarı doğrultmadı.

Xalasına indi nə deyəcək? Onda da daha pis — Kinza haradadır? Birdən onunla dəhşətli hadisə baş verər? Bəlkə o əzilib, qorxub və təəccüblənərək ağlayır ki, nəyə görə Cenni onun yanına gəlmir... Bu qorxunc fikirdən və özünün günahını dərk edərək qız hönkürdü və ucadan hıçqıra-hıçqıra ağlayaraq mehmanxanaya, düz anasının otağına, onun qollarının arasına qaçdı. Xanım Sviftə bir neçə dəqiqə lazım idi ki, bu qarışıq hekayədən tam bir hekayə qursun. Biləndə ki, nə hadisə baş verib, rəngi ağardı. Sonra qızının göz yaşlarını silərək, onun əlindən tutdu.

— Biz gecikmədən bunu xalan Rozmariyə danışmalıyıq, — lazımınca sakitliklə dedi, — Və yolda bir daha onu bazarda axtararıq.

Cenni sakitləşdi, sonra faciəli tonla dedi:

— Mən Rozmari xalanın yanına gedə bilmərəm. Mən sadəcə olaraq gedə bilmərəm, anacan. Sən get və ona danış.

— Yox, — xanım Svift sakit, lakin qəti surətdə dedi, — sən özün gedib ona danışmalısan. Görürsən, Cenni bu sənin özbaşınalığından və məsuliyyətsizliyindən irəli gəlir. Sən gərək cəsarətli olub, qazandığın töhməti, danlağı qəbul edəsən. Cəld getmək lazımdır, hər dəqiqə qiymətlidir. Atan da bizimlə gedəcək.

Səssiz kiçik dəstə mehmanxandan çıxdı. Cənab Svift təklif etdi ki, Cenni anası ilə bir də bacını axtarsınlar, özü isə tez bazara qaçdı.

Bir neçə dəqiqədən sonra onlar narahat və pərt halda rastlaşdılar.

— İndi, — cənab Svift dedi, — nə qədər tez bu haqda Rozmariyə xəbər versək, bir o qədər yaxşıdır. Və o onların dilində danışıb, adamlardan soruşar.

Onlar Rozmari ilə mehmanxananın yolunda görüşdülər. O, nahar vaxtı olduğu üçün Kinzanın dalınca gəlirdi. Cənab Svift baş verənləri ona danışdı. O danışana qədər Cenni gözlərini yerə dikib, xalasının üzünə baxmağa cürət etməyərək aralı dayanmışdı. „Xalam nə deyəcək və məni burada, düz yolun ortasında danlayacaq?“ — o fikirləşirdi. Lakin elə oldu ki, həmin dəqiqə onun dəmdəməkiliyinə heç nə deyilmədi. Elə bil ki, onu tamamilə yaddan çıxarmışlar, bütün fikirlər ancaq Kinzaya yönəlmişdi.

Onlar hər şeyi yerinə qoymaq üçün bağa qayıtdılar və xalası Rozmari yaxındakı köşklərin sahiblərindən soruşdu, lakin heç kim təzə heç nə deyə bilmədi. Hər şey yoldan hündür hasarla ayrılmış alaqapının o biri tərəfində baş vermişdi. Bağın o biri hissəsində üç giriş vardı, onlardan biri səhralığa aparan güclə görünən dağ cığırı idi.

— İki ehtimal var, — bütün sorğuların nəticəsiz olduğundan, nəhayət Rozmari dedi, — biri o idi ki, onu geyiminə görə oğurlayıblar, bu tədqirdə polis bizə kömək edə bilər, ikincisi budur ki, onun doğmaları geri qaytarmağı qərara alıb və onu oğurlayıblar. Bu vaxt qorxuram ki, o həmişəlik itib. Axı mən ona olan hüququmu doğmalarına göstərə bilmərəm. Mən heç bilmirəm ki, o haradan gəlmişdi, bir onu bilirəm ki, yerlilərdən deyildi...

Qəfildən sözünü kəsdi və belə ki, ağlına bir fikir gəldi:

— Maraqlıdır, Həmid haradadır? — həyəcan içində sözünə davam etdi. — Mən tez-tez düşünürdüm ki, onların arasında nəsə əlaqə var. O, bu tapmacanın açarını tapmağa kömək edər.

Onun ətrafına yığılan oğlanlardan heç kim deyə bilmirdi ki, onu haradan tapmaq olar. Belə xoşbəxt tapılmadı. Səhər onu öz növbəsində, sonra isə dağlara gedən yolda görüblər. Hamısı həvəslə onu axtarmağa çıxdılar və müxtəlif səmtlərə səpələndilər, çünki zəngin ingilis sözsüz ki, onu tapan xoşbəxti xeyirxahlıqla mükafatlandıracaq, lakin axtarışlar nəticəsiz oldu.

Polis bu əhvalata qulaq asıb, iltifatla acıdı, lakin çox az ümid verdi. Onlar söz verdilər ki, dağlardakı bütün postlara zəng edəcək ki, baş aşırımları izləsilər və yol keçidləri yoxlasınlar, ancaq birdən bundan əlavə çoxlu gizli yollar var idi ki, bunlar da yalnız yerli camaata məlumdur. Bundan başqa, əgər hətta kimdənsə, uşağı tapsalar, nə ilə sübut etmək olar ki, o oğurlayan adama məxsus deyil. „Onları oğurlanmış paltarlara görə cərimə etmək olar, lakin uşaq...“ — iradəli surətdə polis çiyinlərini sıxdı, qaşlarını qaldırdı və əllərini yellədi. Bununla hər şey deyilmiş oldu.

Artıq başqa heç nə mümkün olmadığından Rozmari xalanın evinə axşam çayına qayıtmaq lazım gəldi. Lakin hamı həddən artıq dilxor idi və Kinzanın taleyi haqqında fikri ilə elə məşğul idilər ki, necə deyərlər, boğazlarından heç tikə də keçmirdi. Tezliklə ər-arvad Svift getməyə hazırlaşdılar, Cenni isə rəngi qaçmış və biçarə onların izi ilə gedirdi, o hələ də Kinzanın fikri ilə məşğul olan və Cenninin hərəkəti haqqında fikirləşməyən xalasının üzünə baxmağa cürət etmirdi.

Rozmari tək qaldığına şad oldu. O, masanın üstünü yığıb, Kinza üçün dua etmək niyyətilə öz otağına qayıtdı. Nəzərləri divanın üstündə uzanmış gəlinciyin üzərində dayandı. O, otağa baxdı — orada kos, Kinzanın stulu, Cenninin ona hədiyyə etdiyi konfet qutusunu gördü. Hər yerdə onun bugünkü iştirakının izi idi. Məhəbbət və narahatçılıq hissi bacının ürəyini doldurdu və əlləri ilə üzünü örtdü. Hanı Kinza? Ona nə olmuşdur? O necə də köməksiz, görmə qabiliyyətindən məhrumdur! O necə də bərk qorxmuş və ev üçün darıxır!...

— Ay Allah! — Rozmari ucadan dedi. — Özün onun qayğısına qal. Onu qoru və təsəlli ver, sağ-salamat mənə gətir...

Belə dua etdiyi zaman, arxasından hönkür-hönkür ağlayan boğuq səs eşitdi və otaqda daha kiminsə olduğunu başa düşdü. Boylanıb baxdı və qapıda rəngi ağarmış, yaşlarından gözləri şişmiş Cenninin dayandığını gördü.

— Cenni! — təəccüblənmiş Rozmari qışqırdı. — Anan bilir ki, sən buradasan?

— Bəli, — içini çəkə-çəkə qız cavab verdi. — Mən dedim ki, səni təklikdə görməliyəm və o da məni evə qədər ötürdü, sən isə qapını bağlamağı yaddan çıxartdığın üçün mən içəri girdim. Bəlkə sən məni heç görmək istəmirsən... çünki... çünki... Bu mənim günahımdır ki, Kinzanın başına bu hadisə gəlib və... ay xala, mən nə edəcəyəm?

Axırıncı sözü deməmişdən əvvəl bolluca göz yaşları yenə də sel kimi axmağa başladı. Xalası Rozmari onu özünə tərəf çəkdi və oturmağı xahiş etdi.

— Sən indi heç nə edə bilməzsən, Cenni, — o yumşaqcasına dedi. — Lakin Allah Kinzanı bizdən də çox istəyir, O hər şey edə bilər. Gəl diz üstə çöküb, birlikdə Allahdan xahiş edək ki, Kinzanı saxlasın, ovundursun və onun keşiyində olsun.

Onlar ikisi də dizləri üstə oturdular və Rozmari xala Kinzanı xeyirxah Çobanın əlinə verdi. Cenni qulaq asdı və ömründə birinci dəfə idi ki, bu qədər bədbəxt olduğuna təəccübləndi. „Rozmari xalaya yaxşıdır, — o fikirləşdi. — Dəhşətli nə olursa-olsun, onun istənilən vaxt bağışlanma, sülh və təsəlli tapmağa yeri var". Lakin Cenni belə yer tanımırdı. O özünü qaranlığa bağlanmış hiss etdi. Əgər Kinza tapılmasa nə o özünü, nə də heç kim onu bağışlamayacaq. Ömründə ilk dəfədir ki, sözə qulaq asmamağı əhəmiyyətə malik idi və elə gəlir ki, bu əməlinin aqibətini düzəltmək mümkün deyil. Demək olar ki, hər gün özbaşınalıq edir və özü bildiyi kimi hərəkət edirdi, lakin üç ay xəstə olduğundan ana-atası həmişə ona qarşı səbirli və xeyirxah olmuşlar, bağışlanmağa yeri olmuşdur. Bu dəfə də özü bildiyi kimi hərəkət etdi, anasına qulaq asmadı və nə ilə qurtardı... „Əgər Kinza tapılsaydı, — Cenni özlüyündə dedi, — mən bundan sonra daha tərslik etməyəcəyəm.

Mən həmişə qulaq asan olardım və həmişə-həmişə yaxşı olardım".

XVII fəsil

Rozmari gününün qalan hissəsini Həmidi axtarmaqda keçirtdi, lakin o görünür, izini itirməyi qəti qərarlaşdırmışdı. Səhər tezdən eşitdi ki, bacı inadla onu görmək istəyir, o işini qoyub yenə də dağlara getdi. Nəyə görə o indi belə lazım olmuşdu? Bəlkə atalığı onunla danışıb və o onu ona vermək istəyir? Bütün bunlar hamısı şübhəli görünürdü və Həmid ondan uzaq olmağı qərara almışdı.

Ancaq ingilis bacısı o qədər qəti qərarla onu görmək arzusunda idi ki, Həmidin səhər dağlara getdiyini ona çatdıranda, o gün batmazdan qabaq Həmidin qayıtmalı olacağı sütunlu daş alaqapıda müşahidəçi mövqeyini tutdu. O çox gözləməli olmadı. Qərbdə sıra dağların başında günəşin axırıncı şüaları gizlənməyə macal tapmamış, alatoranlıqda oğlanın yorğun qamətini gördü. Rozmari onun köynəyindən yapışdı. O var qüvvəsilə dartındı, lakin bacı dərhal danışdı və onun sözləri Həmidin diqqətini cəlb etdi:

— Həmid, mən Kinzanı itirmişəm, — dedi və sonra yalvararaq əlavə etdi, — xahiş edirəm, onu tapmağa mənə gömək edəsən. Sən bilirsən o harada itə bilər?

O hələ də oğlanı bərk-bərk tutmuşdu, o isə onun qarşısında gərginləşmiş vəziyyətdə dayanıb şəkk-şübhə ilə ona baxırdı. Qorxudan fikrini toplaya bilmirdi, lakin tədricən başı aydınlaşdı və o dərk etməyə başladı. Əgər Kinza itibsə və əgər bacı onu axtarırsa, deməli o sözsüz ki, onların ataları haqqında heç nə bilmir. Lakin hər şeyi danışmaq təhlükəlidir, bu polislə təmasda olmağa gətirib çıxara bilər, heç bir evsiz balaca oğlan isə polislə əlaqədə olmağı arzulamır. Bəlkə bu tələdir? Yox, hər şeyi danmaq daha təhlükəlidir və bu işə baş qoşmamaq lazımdır. Lakin yenə də əgər o danışmaqdan imtina etsə, Kinza isə itibsə, onda onun bütün əziyyətləri əbəs imiş. Axı Kinza elə xoşbəxt idi, elə qıvraqlaşmışdı, ayaqqabılı və paltarlı idi. İndi isə onu dilənçiyə satacaqlar. Bundan başqa o, atalığına nəyə lazım idi? Və o orada olmayacaq ki, onu müdafiə etsin.

— Mən heç nə bilmirəm, — uzun sürən fasilədən sonra Həmid ehtiyatla dedi, lakin onun gözləri yaşla dolmuşdu.

Bacı onun göz yaşlarını və tərəddüdünü görüb tamamilə əmin oldu ki, o hər şeyi bilir və baxmayaraq ki, ondan həqiqəti öyrənmək çətin olacaq, ona görə də böyük taktika və ehtiyatla hərəkət etməli idi.

— Gedək evə və birlikdə şam edək, — o sakitcə dedi. — Bu haqda biz evdə danışarıq. Sən bütün günü dağlarda olduğundan ac olacaqsan.

Bəli, o həqiqətən də canavar kimi ac idi. Çoban günorta bir parça qara çörəyi onunla yarı bölmüşdü və dünən axşamdan — çörək pulunu itirəndən heç nə yeməmişdi. Daxilində kəsici ağrı var idi və əgər bacının bu təklifini qəbul etməsə, o çətin ki, haradasa yeyə bilsin. Belə ki, onun evinə getmək də böyük xətadır, çünki, ola bilsin ki, bu bir tələdir. Ancaq heç kim onu danışmağa məcbur edə bilməz. Aclıq ehtiyatsızlığa qalib gəldi. O, çirkli əllərini bacıya uzatdı və bacı onun köynəyini buraxıb, əllərindən möhkəm tutdu və evə çatıb, qapı bağlanana qədər onu buraxmadı.

Rozmari Həmidi haçansa, Kinzanın yatdığı yuxarı otağa gətirdi. Oğlan döşəyin üstündə türksayağı, həyəcandan gərgin və eyni zamanda ləzzətli iyi nəfəsinə dərərək oturdu. Evi ətir saçan isti düyünün və zeytun yağında bişirilmiş tərəvəzin iyi bürümüşdü. Bacı ona bir dolu cam düyü və böyük bir dilim çörək gətirdi, sonra onun yanında oturdu. O yeyən müddət ərzində ona heç bir sual vermədi. Oğlan tamamilə yeməyinin hamısını yedikcə bacı diqqətlə ona baxırdı. Bəli. Xarici görkəmdən o, Kinzaya çox oxşayır: həmin o gen alın və qara gözlər, genəlmiş həmin oval sifət və elə dairəyə alınmış ağız. Axır damla qurtarana qədər o gözlədi. Fincan çörək tikəsi ilə təmizlənən zaman bacı inamla danışmağa başladı, lakin o bunu özündə hiss etmədi.

— Həmid, — əzmkarlıqla o dedi, — sən bilirsən, Kinzanı kim oğurlayıb, kim sənin balaca, yazıq bacını qaçırdıb. Əgər sən bilirsənsə, mənə deməlisən, çünki mən onu qaytarmalıyam.

— İngilis bacısı çox yorğun və gərgin görünürdü. Onun səsi əvvəlcə sərt, axıra yaxın bir az sarsıntılı idi və bu sarsıntılı səs Həmidi hər bir

sözdən yaxşı qane etdi. Bu tələ deyil, bu təmiz ürəyin sevgi harayıdır. Həmid yaxına gəldi, başını onun dizi üstə qoydu və alışıb yanan sifətini ona tərəf çevirdi.

— Mən elə düşünürəm ki, onu mənim atalığım götrüb, — o danışdı. — Mən dünən onun bazarda onu necə izlədiyini görmüşəm. Onun dalınca sizin evə qədər gəldi, lakin mən fikirləşdim ki, o sizinlə təhlükəsizlikdədir.

Əgər bacı onun etirafına təəccüblənmişdisə də, bunu biruzə vermədi. İstənilən düzgün olmayan hərəkət onu qorxuda bilər və o yenidən susar. Bacı sakitcə soruşmağa davam etdi:

— Sənin atalığın harada yaşayır?

Həmid öz kəndlərinin adını dedi.

— O bilmirdi ki, qız məndədir?

— Yox.

— Nə üçün həmin gecə sən onu mənim qapımda qoymuşdun?

— Mənim anam belə demişdi. Atalığım istəmirdi onu evdə saxlasın və dilənçiyə satmaq istəyirdi. Kinza onda bədbəxt olardı, ona görə anam onu sizə göndərdi.

— Bəs, indi nə olacaq?

— Mənim atam, yəqin ki, onu həmin dilənçiyə satacaq. Ona pul lazımdır.

Bacı daha da sarsıldı. Kinzanın vəziyyəti onun düşündüyündən də pisdir, onu necə olursa-olsun xilas etmək lazımdır.

— Kəndiniz çox uzaqdır? — təmkinlə o soruşdu.

— Atla iki günlük yoldur, lakin atam, yəqin ki, bazara gələn yük maşınında gəlib. Onda altı saatlıqdır.

— Bəs sən? Sən necə gəlmisən?

— Bir az yük maşınında, bir az ayaqla, Kinza isə kürəyimdə.

Bacı gizlincə onun mərdliyi ilə fəxr etdi; o, Kinza üçün çox şeylər edib və şübhəsiz ki, ona kömək edəcək.

— Bəs, əgər mən sizin kəndə gedib, atana dilənçinin verdiyi puldan çox pul təklif etsəm, o, Kinzanı mənə satar?

— Bilmirəm, bəlkə də satar. Axı necə tapacaqsınız evi?

— Sən mənimlə gedib göstərməlisən.

— Mənə olmaz. Atam məni evdə öldürər.

— Sənə evdə görünmək lazım deyil. Sən uzaqdan evi sadəcə olaraq mənə göstərərsən.

— Lakin məni hamı kənddə tanıyır. Onlar atama deyərlər.

— Biz gün batanda cənab Sviftin maşını ilə gedəcəyik. Səni heç kim görməyəcək. Kinzaya görə, əlbəttə, sən razılaşmalısan.

Bacı ümidli səbirsizliklə onu irəli verdi, oğlan isə şübhə ilə onun üzünə baxaraq, boynunun ardını qaşıyaraq qorxu ilə mübarizə aparırdı.

— Həmid, — o rica etdi, — əgər sən imtina etsən, onu tapa bilmərəm. Onu dilənçi alacaq və o, böyük şəhərin küçələrində acından və soyuqdan əzab çəkəcək və bütün ömrü boyu qaranlıqda yaşayacaq. Əgər mənim

yanıma dönərsə, xoşbəxt olacaq. Mən ona İsa Məsihi sevməyi öyrədəcəyəm və o sənə Onun haqqında çoxlu-çoxlu danışmaqdan zövq alaraq böyüyəcək. Sən Onu sevirsən?

Həmid ona baxdı və üzü açıldı.

— Mən İsa Məsihi çox sevirəm, — sadəcə olaraq oğlan dedi. — O mənim günahlarımı götürdü və məni xoşbəxt etdi.

Bu sözlər bacıya toxundu.

— Rəbb, həmçinin səni sənin qorxularından azad edəcək və səni cəsur ürəkli edəcək, — onu əmin etdi. Allahın kitabında yazılmışdır ki, İsaya olan büsbütün sevgi, bizim ürəklərimizdəki qorxunu qovur və orada onun üçün yer yoxdur. Gəl indi Ona yalvaraq ki, O səni qorxulardan qurtarsın və Kinzanın xilasına kömək etsin.

Oğlan itaətlə gözlərini yumub, bükülmüş qollarını yuxarı dartaraq, qızğın və imanla xeyir-dua ifadə edən duanı bacısı üçün təkrar-təkrar etdi. O belə dua edən zaman başına iki fikir gəldi: əgər İsa Məsih həqiqətən onu sevirsə, onda O, atalığının onu döyməsinə imkan verməz, deməli, qorxmaq lazım deyil; və necə də qəribə olacaq, kəndə gedən yolu ingilsin böyük sürətli boz maşınında getmək. Belə ki, dua zamanı Müqəddəs Ruh onun narahat ürəyinə şən möhkəmləndirici fikirlər göndərdi. Ona görə də dua edib qurtaran kimi bacının təklifinə razılığını bildirdi.

Nəhayət, o onun evini xoş əhval-ruhiyyə ilə tərk etdi. Bazar meydanından keçərkən, o özünü açıq pəncərəli maşında qürurla oturub və paxıllıqdan göyərmiş dostlarına əl eləyərək getdiyini təsəvvürünə gətirdi və onların onun şahanə irəliyə hərəkətinə heyrətlə baxdıqlarını gördü. O, şənlik edirmiş kimi gülməyə başladı və hətta fərəhindən atdanıb-düşürdü də. İlıq axşam küləyi onun odlanan sifətini sərinlətdi və qarşıdakı səyahətdən həyəcan və iztirab keçirtdi. Son nəticə onu tamamilə narahat etmirdi. Atalığı pula görə hər şey edər, bacı isə, əlbəttə dilənçidən çox pul təklif edəcək.

Həmid gedən kimi, Rozmari mehmanxanaya yollandı ki, öz planlarını Svift ər-arvadı ilə bölüşdürsün. O onları səhər tezdən görməmişdi, onlar gəlib ona deyən vaxtdan Cenni o qədər narahat və pərişandır ki, onlar avtomobillə dağlara uzun səyahətə gedib və orada da nahar etməyi qərarlaşdırıblar. Cenni, Kinzanı xilas etmək üçün inanılmaz planlarla dolaraq, heç getmək istəmirdi, lakin atası məcbur etdi. Cenni, arxa oturacaqda donqarlaşmış vəziyyətdə acıqlı və qaşqabaqlı, qara bulud kimi oturdu.

Rozmari onların kürsüdə yorğun və əzgin halda oturduqlarını gördü. Onu görən kimi sıçrayıb ayağa durdular.

— Nəsə olub? — səbirsizliklə onlar soruşdular.

— Hə, — həyəcanını gizlətməyən Rozmari dedi.

O, stula çökdü və bütün bu təəccüblü əhvalatı bəyan etdi.

— Mən məsləhətləşmədən, əlbəttə, Həmidlə hər şeyi yerbəyer etdik, — o tamamladı, — lakin mən əminəm ki, siz getməyə imtina etməzsiniz, çünki siz Kinzanı çox sevirdiniz. Bizə sabah günorta getmək lazımdır —

ora dörd saatlıq yoldur — ona görə də gün batandan sonra gedərik. Həmid deyir ki, o yerə qədər maşın gedə bilməz. Biz ancaq səhərə yaxın qayıdarıq. Mən düşünürəm ki, sizin heç bir etirazınız yoxdur?

— Əlbəttə yox, — xanım Svift təsdiq etdi. — Con səni və Həmidi aparar, mən isə Cenni ilə qalaram. Mənə elə gəlir ki, onun getməyi lazım deyil.

— Əgər onu götürməsək, hay-küydən qurtara bilməyəcəyik, — atası qeyd etdi. — Olar, bu haqda hər şeyi mən özüm ona danışım, yoxsa o yatıb?

Ər-arvad bir-birlərinə baxdılar, sonra xanım Svift dedi:

— Mən gedim və ona deyim, Rozmari. Mən elə istəyirdim ki, sən onu sakitləşdirəsən və o şənlənsin. Mən bu axşam onunla heç nə edə bilmədim. O səni sevir və sənə qulaq asır. Bu gün bizdə bədbəxt gün idi, o acıq edib və gedib evə qayıdana qədər deyinib, çünki getmək istəmirdi. O istəyirdi ki, qalıb Kinzanı axtarmaqda sənə kömək etsin. Düzdür, xəstələnib və buna baxmayaraq, o özünü ərköyün uşaqlar kimi aparır.

— Ona görə də gələn kimi, mən onu yatmağa göndərmişəm, — xanım Svift kədərlə əlavə etdi. — O adət etməyib ki, onu cəzalandırsınlar və bunu xəsətlik kimi qəbul edir, ona görə də mən bilmirəm ki, siz onu hansı əhval-ruhiyyədə tapacaqsınız. O, sözsüz ki, əgər bizə getməyə qadağan edilsə, hay-küy qaldıracaq.

— Zavallı, — mərhəmətlə Rozmari tələffüz etdi. — Mən gedim baxım, bəlkə hələ yatmayıb.

O, pilləkənlərlə ehtiyatla qalxdı və qapını döyüdü. Heç bir cavab gəlmədi. Bacı astaca qapını açdı və içəri girdi.

— Sizə nə lazımdır? — ədyalın altından qeyzli səs eşidildi.

— Mən sizin buyurduğunuz kimi belə tez yuxulamamışam.

— Bu mənəm, Cenni, — Rozmari sakitcə dedi və çarpayıda əyləşdi.

Cenni o dəqiqə ədyalın altından çıxdı. O pərt oldu, çünki həmişə xalası Rozmarinin yanında ədəblə danışıb, tərbiyəli qız kimi görünməyə çalışıb. Anası və atası yəqin ki, artıq onun haqqında hər şeyi danışıblar, indi isə ona lazım idi ki, Rozmari xala onun fikrini bilsin. Valideynləri qətiyyən onu başa düşmürlər və ona acıqlanırlar, onlara isə lazımdır ki, onunla həmdərd olsunlar. Lakin xalası şəkk-şübhə olmadan onu başa düşəcək və onunla haqsızcasına rəftar etmələrini duyacaq.

— Oy, Rozmari xala! — Cenni qışqırdı və hönkürüb ağladı. — Mən necə də sevinirəm ki, sən gəlmisən... Mən bütün günü Kinza haqqında düşünmüşəm...

— Sakit ol, — xalası Rozmari sakit səslə dedi. — Sən bütün günü Kinza haqqında yox, özün haqqında düşünmüsən. Bax, ona görə də sən belə bədbəxtsən. Bütün xudbin adamlar həmişə bədbəxt olurlar, ona görə ki, öz bildikləri kimi hərəkət etməyəndə xoşlarına gəlmir.

— Mən xudbin deyiləm, — göz yaşları içində acıqlı halda Cenni dedi.

— Sən də atam və anam kimi məni başa düşmürsən. Mən Kinzanın harada olduğunu öyrənmək istəyirdim, onlar isə məni heç bir yenilik eşidə bilmədiyim yerə apardılar.

— Kinza haqqında hansısa xəbəri eşitməyin ona zərrə qədər də kömək edə bilməzdi, — xalası etiraz etdi. — Bununla sən öz şəxsi marağını təmin edərdin. Bax, buna görə də sən onu təmin edə bilmədiyin üçün bütün günü öz yaramaz əhval-ruhiyyən və əxlaqınla valideynlərini məyus etmisən. Əgər bu xudbinlik deyilsə, onda mən bilmirəm xudbinlik necə olur.

Cenni bu suala cavab vermək üçün heç nə fikirləşə bilmirdi, ona görə də o yalnız bədbəxt görünüşü ilə təkrar edirdi:

— Sən başa düşmürsən.

— Ay Cenni, Cenni, mən səni yaxşı başa düşürəm, — xalası Rozmari ucadan dedi və dizləri üstə çöküb, qəzəbli qızı özünə tərəf dartıb çəkdi.

— Mən başa düşürəm, sənin həmişə hər şeyin olduğundan, nə istəmisənsə atan-anan sənə həmişə gözəl şeylər hədiyyə etdiyindən və sənə qarşı belə xeyirxah olduqlarından, sən belə hesab edirsən ki, dünya şəxsi xoşbəxtlikdən başqa heç bir əhəmiyyət kəsb etmir. Sənin ürəyin balaca bağlı dairəyə oxşayır ki, mərkəzində sən özün yerləşirsən və hər dəfə nəsə baş verən zaman, ya sənin xətrinə dəyəndə, ya da bir yerdə oturanda bu səni qıcıqlandırır və sən düşünürsən ki, bu dünyanın axırıdır. Sən böyüyəndə görəcəksən ki, belə şeylər daha çox-çox olacaq, bunlar da sənin xətrinə dəyəcək və qıcıqlandıracaq. Və bax budur, sən böyüyəcəksən, narazı, heç kimi sevməyən qadın olacaqsan. Görürsən, sənin ürəyində daha kimisə istəməyə zaman və yer yoxdur, çünki sənin bütün məhəbbətin sənin özün üçün axır.

Cenni susurdu. Bu vaxta qədər onunla heç kim belə danışmamışdı. Valideynləri belə hadisələrdə bu sözlərlə qurtarırdılar: „Eybi yoxdur, əzizim, biz əminik ki, sən heç nəyə etiraz etmirsən. Gəl bunu yaddan çıxaraq". Lakin ola bilsin, xalası Rozmari qismən düz deyir. Qızın yadına düşdü ki, o addımbaşı tez-tez uğursuz olurdu, sadəcə ona görə ki, həmişə istədiyi kimi hərəkət edə bilmirdi. Necə də belə insan olmaq qəribədir, həmişə xoşbəxt və əgər istədiyi şey yoxdursa, bununla razılaşan və əsəbləşməyən. Məsələn, məktəbimizdə bir qız vardı, istəyirdi ki, atda çapsın, səhərcik üçün təzə paltarı olsun, ancaq nə buna, nə də ona malik ola bilmirdi, çünki atası çox kasıb idi. Lakin o sakit idi və elə gəlirdi ki, bacısının böyük paltarında səhərcikdən həzz almışdı. Cenni bunu başa düşmürdü və qərara alırdı ki, o tamamilə başqa cür təşkil olunmuşdur.

Nəhayət, qız sakit, məyus səslə dilləndi:

— Mən insanları sevməyə bilmirəm. Və mən insanları sevirəm. Mən anamı, atamı, xalamı, Kinzanı və başqalarını sevirəm.

— Yalnız o vaxta qədər ki, biz səni razı salırıq — xalası etiraz etdi. —

Lakin sənin istədiyin kimi etməyi dayandıranda, sən məmnuniyyətlə, utanmadan bizə acıq verirsən, xoşagəlməz hərəkətlər edirsən, budur necə ki, bu gün ata və ananı məyus etdin.

Cenni susurdu, lakin hələ də onun çarpayısının yanında dizləri üstə dayanmağa davam edən xalasına daha da yaxın gəldi. Rozmari xalanı özünlə fəxr etməyə məcbur etməyin əhəmiyəti yox idi. O, deyəsən, onun haqqında hər şeyi bilir. Belə ki, o onun haqqında bilir, Cenni özündə qəribə sakitlik tapdı. O birdən hiss etdi ki, özündəki müxtəlif süniliyə son qoya bilər, ata bilər və hər bir uşağın ürəyinin dərinliklərində gizlənmiş xalis, lakin hərdən dərkedilməz arzunu həqiqətən də dərk edə bilər.

— Mən çox-çox istəyirəm ki, yaxşı və xoşbəxt olam, — o pıçıldadı. — Mən anamı da çox xoşbəxt etmək istəyirəm. Ancaq bacarmıram. Mənim istəyimi yerinə yetirməyəndə mən əsəbləşməyə bilmirəm.

— Hə, — fikirli halda Rozmari xala dedi. — Mən bilirəm. Bizim şəxsi „mən"liyimizin istəklərini və tələblərini dairə mərkəzindən kənar etmək çox çətindir. Həqiqətdə isə mən bilirəm, bunu necə etmək üsulunun bir yolu var. Məhz İsa Məsihə yalvarmaq lazımdır ki, Onun istəkləri və iradəsi bu dairəyə daxil olsun və bizim şəxsi „mən"imizi qovmaq olsun. Əvvəlcə bunu etmək asan olmayacaq, çünki sənin „mən"in öz istəyini davam etdirəcək və o zaman „Mənim yox, Sənin iradəndir" deyərək, davam etmək lazımdır. Bir neçə müddətdən sonra təəccüblü bir şey baş verəcək. Belə ki, biz İsa Məsihi dərk etməyi öyrənəcəyik və Onunla dua vasitəsilə danışacağıq və O da bizimlə Öz Sözüylə — Bibliya ilə danışacaq, o vaxt biz tədricən Onu elə istəyəcəyik ki, Onun istəkləri bizim istəklərimizə çevriləcək və biz ancaq Onun istəklərini istəyəcəyik. Bibliyada yazılmışdır ki, bizim istəklərimiz İsa Məsihin istəklərilə uyğun gəlir, onda bizə yalnız yalvarmaq qalır və biz onu alırıq. Belə halda, biz, əlbəttə tamamilə razı və xoşbəxt insanlar oluruq.

— Mən tam başa düşə bilmirəm ki, sən nəyi nəzərdə tutursan, — kədərli halda Cenni pıçıldadı.

— Bu elə gəlir ki, çox çətindir, lakin həqiqətdə tamam asandır. Qulaq as, hər şey ondan başlayır ki, İsa Məsihə yalvarmalıyıq ki, bizi bağışlasın və bizi xudbinlikdən uzaq etsin, bizim ürəklərimizə girsin və orada yaşasın. Sən kimisə sevəndə istəyirsən ki, onun yanında olasan və ona baxa-baxa durasan, düzdür? Biz sevib, Məsihə baxan zaman Ona yaxınlaşırıq, Ona oxşamağa başlayırıq və Onun istəklərini və iradəsini yerinə yetirməyi arzulayırıq. Bu ona bənzəyir ki, nəyəsə aydın baxasan və o işığı əks etdirəsən ki, sən özünü çox aydın görəsən.

— Aydındır, — az qala yatırmış kimi, eşidilməz dərəcədə Cenni dedi.

Xalası Rozmari başqa şeydən danışdı:

— Mən gəldim ki, sənə Kinza haqqında bir şey deyim. Mən aydınlaşdırdım ki, o hara itib və sabah atan, Həmid və mən onların evinə gedəcəyik və atasını onu bizimlə buraxmasına razı salmağa çalışacağıq.

— Harada? Nə vaxt? Necə? — Cenni çarpayıdan atdanaraq qışqırdı. — Tez ol danış mənə! Olar, mən də gedim?

— Yox, — xalası dedi, sənə olmaz. Anan deyir ki, bu çox gec olacaq və ehtimal var ki, yerli kənddə biz nə qədər az olsaq bir o qədər yaxşıdır. Bu sənə bir fürsətdir ki, bugünkü rəftarındakı tərsliyə və əsəbiliyə tabe olmaqla günahını yuyasan. İndi mən sənə bunu necə ayırd etdiyimi və başqa hər şeyi danışım.

Hələ ki, o danışırdı Cenni son dərəcədə mülayim vəziyyətdə tərpənmədən və keflə uzanmışdı. Əvvəl-axır ola bilsin ki, yaxşılıqla qutaracaq, o buna layiq deyildi. Dünən axşam o söz verməyə bənzər vəd vermişdi: „Əgər Kinza tapılarsa, həmişə-həmişə yaxşı olmağa çalışacağam“.

— Xala, anamı çağırın, — üzünü balışa basdıraraq, peşmançılıq çəkərək qız dedi. — Mən onun qarşısında üzr istəmək istəyirəm və demək istəyirəm ki, sabahdan mən yaxşı olacağam.

XVIII fəsil

Ertəsi günü, dərhal nahardan sonra Rozmari, cənab Svift və Həmid özlərinin asan olmayan səyahətlərinə yollandılar.

Cenni Kinzanın xilasında iştirak etmədiyindən dəhşətli məyus halda, lakin verdiyi andının üstündə qəti durduğundan, bazar meydanının mərkəzində dayanıb vidalaşmaq üçün əllərini yellədirdi.

Həmid bütün qorxunu unudub, gözəl avtomobilin içində balaca şahzadə kimi arxa oturacaqda oturub, parıltılı çılpaq dabanları ilə coşğun haraylarla onları yola salan, ona heyran olmuş oğlanların izdihamından keçərkən təkəbbürlə başını yelləyirdi. Maşın sürət götürüb onlardan aralanana qədər onlar qaçdılar.

Bu fərəhləndirici səfər idi. Həmid həmin isti, tozlu gecədə Kinza kürəyində necə çətinliklə bu təpəni qalxdığını yadına saldı. O vaxt çox yorğun olduğundan ətrafındakı mənzərəyə baxa bilməmişdi, ancaq nəyi görmək lazımdırsa, baxmağa səbri çatmırdı, qəfəsdəki əl meymunu kimi maşında o yerdən bu yerə atdanırdı. Hara baxırdısa, hər yerdə cavan buğda zəmiləri və çayların sahili boyu əlvan güllər var idi. Onlar vadiyə aparan yolun aran

hissəsilə gedirdilər və maşın sürətlə çox da hündür olmayan, ağ güllərlə örtülmüş təpələrin arası ilə şütüyürdü. Hava onların ətri ilə dolmuşdu və Həmid hədsiz fəallığından yorulub, oturacaqda bükülərək bərk yatdı.

O ayılanda maşın artıq dağın təpəsində dayanmışdı. Hara baxırsan, hər yer dağlıqdır. Cənab Svift və bacı buterbrod yeyib, termosdan çay içirdilər. Həmid başını pəncərədən çıxartdı ki, artıq oyandığını görsünlər və ona şəkər səpilmiş bulka verdilər. O, şəkəri yaladı və baş verənlərin hamısından razı qalmışdı. Yalnız bir fikir onun sevincini pozurdu: hər kilometrdə anasına yaxınlaşırdı və onun ürəyi ona can atırdı. Ona belə yaxın olasan, lakin onu görüb danışa bilməyəsən. İki iri göz yaşı yanağından süzüldü və yolun üzünə düşdü.

Maşın baş şose ilə sürətlə gedirdi. Günəş parlaq vida şəfəqlərini göndərərək dağın arxasında oturdu. Uşaqlar keçiləri evə qovurdular və maşın bir neçə dəfə dayanıb çobanlara öz sürüləri ilə keçməyə yol verirdi.

Axırıncı işıq şüası itdi və qaş qaraldı. Həmid artıq üstündə parıltılı sayrışan doğma dağların ümumi şəklini gördü. Onun ürəyi çırpınmağa başladı, dili ağzında qurudu. Maşın asta-asta çala-çuxurlarda atılaraq daşlı kəndarası yolla hərəkət edirdi.

Tanış bazar meydanına yaxınlaşanda artıq qaranlıq düşmüşdü; xışıltılı evkalipt ağacları və binalar ayın işığında elə bil ağappaq idilər. Cənab Svift maşını dükanın arxasında saxladı. Bacı öz evinin qapısında dayanan oğlanla danışana qədər Həmid tez maşından sıçrayıb zeytun ağaclarının dalında giləndi. Bacı ondan maşına baxmağı xahiş etdi. Həmid bu oğlanı tandığı üçün istəmirdi ki, o onu görsün və qaranlığın onu udmasına minnətdar oldu. Oğlan evə qaçana qədər gözlədi, sonra öz daldalanacağından çıxıb, heç bir söz demədən iri addımlarla tanış cığırla təpəyə qalxmağa yollandı. Cənab Svift və bacı da onun ardınca tez-tez gedirdilər. Onlar təngənəfəs olmuşdular, çünki oğlan onlardan çevik idi.

— Odur, — qaranlıqda göstərərək Həmid asta dedi. — Əncir ağacının arxasındakı üçüncü koma. Sadəcə olaraq, siz kiçik qapını itələyin, kilidi yoxdur, açılacaq. İtdən qorxmayın — zəncirdədir. Və yadınızda saxlayın, söz vermisiniz ki, atalığıma mənim haqqımda heç nə deməyəcəksiniz.

— Hə, Həmid, — sakitcə bacı təsdiqlədi, — mən söz vermişəm. Əgər atalığın bizimlə maşına gələrsə, o gedənə qədər sən gizlənməlisən. Biz sənsiz getməyəcəyik. Əgər biz tək çıxsaq, onda burada görüşərik.

Onlar daş cığırla ehtiyatla qalxmağa başladılar, Həmid isə onlardan uzaqlaşdı ki, qəbiristanlıqda kolların dalında gizlənsin.

O oturdu və dizlərini qolları arasına alıb özünün ilk qaçışını yadına saldı, gecə yarısı oğrun-oğrun, cin-şeytanlardan qorxaraq təpədən enirdi. Birdən o başa düşdü ki, qorxmur və təəccübləndi ki, nəyə görə? Tezliklə başa düşdü ki, nəyə görə. İngilis bacısının öyrətdiyi belə bir zəbur var idi: „Gözəl bir ölkə var!“ O adamlar üçün ki, onların ürəkləri qar kimi ağappaqdır, ölüm, qaranlıq kölgəsi və dolaşan ruhların yeri deyil, sadəcə

Allahın işıqlı iqamətgahına aparan qapı var. Bir də bacı onu demişdi ki, yaxşını, pisi ayırd etməyən uşaqlar da ora gedir, ona görə də, bəlkə indi onun da ölən qardaşları orada təhlükəsiz və xoşbəxtdirlər. Həmid də qəfildən düşündü ki, ora getmək yaxşıdır, nəinki, evsiz qaçqınlar kimi cəng olub oturmaq. Lakin, axı ev yaxındadır... Həmidin ürəyi isti ocaqları, mehriban keçiləri, Rəhmə və daha çox anası üçün darıxırdı. O bütün qəlbi ilə ona dartınırdı. Əlbəttə, anası eşidəcək və gələcək.

...Cənab Svift və Rozmari kəndin qutaracağına gəlib çatdılar və fənərin işığında ehtiyatla Həmidgilin komasına aparan palçıqlı yolla bir-birinin ardınca gedirdilər. Heç kim onları görmədi və onlar kiçik qapıya yaxınlaşanda və açıq qapıdan düşən işığın zolağında qətiyyətsizlikdə dayandılar. Zəncir səsi eşidildi və qara bir it hürərək damdan çıxıb, zəncirini son həddə qədər dartdı. Pəncərədən qara saqqallı bir nəfər boylandı və onları görən kimi tez itdi. İçəridən səs-küy, iti donqultular eşidilirdi.

Sonra astanada evin sahibi göründü, o nəzakətlə baş əyib onları salamladı. Ardınca onları içəri dəvət etdi və orada bir fincan çay içib işi anlatmalarını söylədi. Alçaq qapıdan əyilərək qonaqlar içəri keçdilər və balaca qaranlıq otaqda oldular.

Buxarının yanında kədərli siması ilə cavan bir qadın oturmuşdu, onun üzündə həlimlik və itaətkarlıq ifadə olunurdu. Yanında ona sıxılmış qorxaq qaragözlü qız oturmuşdu. Küncdə ədyala bürünmüş yaşlı bir qadın oturmuşdu. O, qonaqlarla görüşmək üçün ayağa durmadı, oturduğu küncdə dayanıb səssizcə və qulaqlarını şəkləyərək, onları müşahidə edirdi.

Ev sahibi keçi dərisini yerə sərdi və onları arxaları yaşlı qadına tərəf oturmağa dəvət etdi. Kinza görünmürdü və bacının ürəyi çırpınırdı, bəlkə onlar bura yanlış izlə gəliblər. Onların bu gecə vaxtı gəlişlərindən təəccübləndiyini nəzakətlə bildirən qara saqqallı adam cavan arvadına onları şirin nanəli çaya qonaq etməyi buyurdu. Çay dəstgahı zamanı onların gəlişinin səbəbini soruşdu.

— Mən gəlmişəm ki, balaca kor qız Kinza haqqında məsələni ayırd edim, — Rozmari qəti dedi.

— Onun qardaşı yeddi ay bundan əvvəl onu mənim himayəmə buraxmışdı. O sizindir və sizdən asılıdır, lakin mən yaxşı pul verərəm. Əlbəttə, onun anası istədiyi vaxt onu görə bilər.

Cansıxıcı sakitlik düşdü. Atalığım onun tonunun əminliyindən karıxmış halda tərəddüd içində qalmışdı. Bacı haqqı xatırlatdı, o isə pula görə nə istəsə edərdi. Bacı dilənçidən çox haqq verəcək. Digər tərəfdən, onun qızı oğurlaması və bir də onun gözəl paltarının məsələsi səbəbindən pis hadisə gözləyə bilər. Onun paltarını həmin günü hansısa bir ispana satmışdı. Bəli, böyük risk idi.

Atalığım sifətində heyrət və həyəcan təcəssümü ilə əlini yellətdi.

— Mən uşaq haqqında heç nə bilmirəm, — o təhqiredici tonla xətircəm edirdi. — Düzdür, qardaşı yeddi aya yaxındır ki, onu oğurlayıb, o vaxtdan mən onu nə görmüşəm, nə də heç bir məlumatım olmayıb. Əgər oğlan

deyib ki, o burada yaşayır bu düzdür, lakin uşaq burada yoxdur və harada olduğundan xəbərim yoxdur. Əgər mən onun haqqında nəsə öyrənsəm, məmnuniyyətlə sizə gətirərəm.

Uzun sürən fasilə hökm sürdü. Rozmarinin gözləri buxarının o biri tərəfində oturan cavan qadının gözləri ilə qarşılaşdı. O, gözlərini ona dikib baxırdı və ... ya ona elə göründü, ya da o, həqiqətən başını yüngülcə qoca oturan tərəfə tərpətdi. Rozmari durub otağı süzdü. Yalnız bir yer var idi ki, harada o gizlənə bilərdi, o da qocanın arxasındakı ədyalın altında.

Qonaqpərvərlik adətlərinə məhəl qoymadan, o gözlənilmədən qalxdı, həmin küncə getdi və üç dəfə ucadan adıyla Kinzanı çağırdı. Atalığı da qorxudan rəngi qaçmış halda ayağa durdu. Qarı dərini tulladı, lakin çox gec idi. Anasının əlindən alınıb, ədyalın altına atılan Kinza mürgüləyirdi. Sevimli, tanış səsi eşidən kimi, ucadan cavab harayı ilə sıçradı.

Rozmari qoca arvadın müqavimətinə qalib gələrək, ədyalı onun üstündən atdı və sonrakı anda Kinza onun qucağında idi, özünün bütün balaca vücudu ilə ona elə sığınmışdı ki, çətin ki, ondan ayırmaq olardı. Qızın sevinci təsviredilməz dərəcədə idi; bütün dəhşətlər arxada qalmışdı və yenə də öz himayədarının güclü əllərində idi. Axırıncı iki gün yarımı başdan-başa vahimələr içində idi: yük maşınında kisəyə bükülmüş vəziyyətdə uzanan zaman verilən cəza və soyuq; acından, soyuqdan və qorxudan ağlayan zaman aldığı şapalaqlar; nəvazişli anasının əllərindən qoparan kobud əllər. Ancaq bunlar hamısı qurtardı — sevimli səs onu çağırdı və o təhlükəsizdir. O, əmin idi ki, heç kim onu bu bərk, etibarlı əllərin arasından qopara bilməz. Gərgin bədəni süstləşdi və sakitləşdi.

Rozmari atalığa tərəf döndü. O, zəhmlə ayağa durdu, qəzəbdən və qorxudan rəngi ağarmışdı. Cənab Svift də mane olmağa hazır vəziyyətdə ayağa durdu. O, enli kürək kişi idi və Si-Məhəmməd o dəqiqə başa düşdü ki, yeganə çıxış yolu iltifatla təslim olmaq və əlverişli sövdə bağlamaq idi. Bir an onun sifətinin cizgiləri Kinzanın şən görünüşündən dəyişdi.

— Hə, budur, — əsəbi gülüşlərlə o söylədi, — siz onu tapdınız və indi o sizin qızınız olacaqdır. O sizinlə olmağına çox şaddır və mən bilirəm ki, o sizdə sağ və salamat olacaqdır. Ona nə qədər ödəmək istəyirsiniz? Və o sizindir!

Rozmari, əvvəlcə Həmiddən ətraflı öyrəndiyindən, dilənçinin təklif edəcəyi dəyərdən kifayət qədər çox dedi. Si-Məhəmməd qorxaraq ki, paltarlar haqqında xatırlayacaqlar və xoşagəlməz qonaqlardan tezliklə qurtarmağa çalışaraq, o dəqiqə razılaşdı. O, qulluq göstərməklə, öz sevincini yaltaqcasına izhar etdi ki, Kinza yaxşı təmin olunub və pulu almaq üçün yaxına gəldi. Kinza qorxunc səsin yaxınlaşdığını eşidərək qışqırdı və Rozmarinə sıxılaraq onun boynunu qucaqladı. Bacı pulu verdi və qorxmuş uşağın üstünə əyildi.

— Hər şey qaydasındadır, Kinza, — o pıçıldadı. — Qorxma, o sənə əl vura bilməz. İndi sən mənim balaca qızımsan.

Bu səs heç vaxt yalan danışmayıb, bu səs söyləyib: „Qorxma... indi sən mənim balaca qızımsan“. Və o inandı, sakitləşdi. Düz burada, öz düşmənlərinin iştirakında onun qollarında o yerini rahatladı və möhkəm yatdı.

Artıq burada heç nə etmək lazım deyildi, nə qədər gec deyildi getmək lazımdı, hələ ki, həqiqətə uyğun olmayan heç nə baş verməyib. Qoca arvad və atalığı ilə tez-tez vidalaşan Rozmari qızın anasına tərəf çevrildi, lakin kürənin yanında onun yeri boş idi. Yalnız orada balaca qız ciddi və gözləri böyümüş halda oturmuşdu.

Sövdələşmə baş tutan vaxtı anası komadan çıxmışdı. O, nə ərinin qəzəbi, nə də öz hərəkətləri haqqında fikirləşməmişdi. O, qaranlıqda ayağı dolaşa-dolaşa əyri-üyri cığırlarla tələsik qaçırdı, həyəcan keçirərək tövşüyə-tövşüyə oğlunu adıyla çağırırdı. O duyurdu ki, haradasa, buralardadır, çünki başqa cürə onlar evi tapa bilərdilər?

Lakin ay işığında qarabasmaya oxşar zeytunluqlardan qəbiristanlığın kənarına qaçan balaca qamət onsuz da onu diksindirdi. Oğlan onun əllərini öpdü, o isə qorxu içində onları görən olmasın deyə, yenə də onu ağacların kölgəsinə dartıb apardı. Düyünlü qoca gövdənin arxasında gizlənərək o, hövsələsiz oğlunun üzünü tədqiq edirdi.

— Oğlum, oğulcığazım! — o pıçıldadı. — Səninlə hər şey qaydasındadırmı? Səninlə heç bir yamanlıq baş verməyib ki?

— Heç bir pislik, — cavabında o pıçıldadı. — Mən şəhərdə işləyirdim və hər şey yaxşıdır... Bəs Kinza? Bəs atam? Onlar onu götürdülər?

Anası başını tərpətdi.

— İngilis xanımı onun üçün haqq verdi və onu qızı kimi götürdü. Kinzaya görə mən artıq qorxmuram... Lakin sən, oğlum...mənə qayıt. Mən sənsiz çox darıxıram.

Həmid etirazla başını yellədi.

— Mən bacarmaram. Mən qorxuram, — o sakit dedi. — Atam ölənə qədər məni döyər. Mənim işim var. Mən yaşaya bilərəm, ingilis bacısı isə axşamlar bizi yedizdirir. Və bir də onda İsa haqqında kitab var. O həmin uşaqları qucağına götürən İnsandır ki, bacı sənə Onun haqqında danışmışdı. Bu Kitabda Allahın necə göylərə aparması yolları yazılmışdır. Onda ki, o həmin Kitabdan danışır, xoşbəxtlik mənə gətirir və mən onu daha çox öyrənməliyəm.

O çox ciddi danışırdı. Anası onu dartıb özünə çəkmişdi. O, böyümüşdü, lakin elə arıq idi ki, anasına lap balaca görünürdü. Lakin o bununla belə hansısa xoşbəxtliyini tapmışdı. Ay işığı gümüşü yarpaqların arasından yol açıb çıxırdı və oğlu danışan vaxt o görürdü ki, onun siması necə də aydınlaşdırılır. Əgər yalnız o da onun ardınca gedə bilsəydi! Onun xoşbəxtliyi çox idi...

— Onda sən gərək bura qayıdasan və mənə danışasan, oğlum, — razı salmağa çalışdı. — Mən də xoşbəxt olmaq istəyirəm. Atalığın məni döyməyəcək. O, keçiləri otarmaq üçün başqa oğlana haqq verməli olur və

onun üçün işləyəsən deyə sənin olmamağına o çox deyinir. O, hətta sənin qayıtmağına da razı olacaq.

Oğlan başını onun çiyninə sıxıb, edilən təklif barəsində fikirləşərək sakitcə oturdu. O, evsizlik həyatından, özünün qayğısını çəkməkdən, vaxtından əvvəl kişi olmaqdan yorulmuşdur. O, çox istəyirdi ki, yenə də balaca oğlan olsun, heç olmasa utanmadan yenə də anasına sıxıla bilsin. Ancaq əgər o indi evə qayıtsa, heç vaxt həmin kitabdan oxuya bilməyəcək və bəlkə də, hətta, göylərə gedən yolu unudacaq. Və bundan başqa o hələ də atasından qorxurdu.

Uzun sürən sakitlikdən sonra çətinliklə də olsa, o qəti qərara gəldi.

— Mən indi geri qayıtmalıyam, — o pıçıldadı, göylərə gedən yolu göstərən həmin Kitabı oxuyub öyrənməyə. Sonra məhsul yığımı vaxtı gələndə, mən evə gələrəm və hər şeyi sənə danışaram. Yalnız atamdan xahiş et ki, məni döyməsin.

Cığırda addım səsləri eşidildi, ingilis bacısının fənərinin işığı onlara yaxınlaşırdı. Onlar cəld qalxdılar və açıq yerə çıxdılar.

Ana əyilib yatan uşağını öpdü, bacıya xeyir-dua pıçıldadı və əlini oğluna verdi. Heç bir söz demədən ər tənbehi gözləyən qadın evə tərəf qalxmağa başladı. Lakin o çox razı idi və qorxmurdu. Kinza indi təhlükəsizdir və oğlunu da görmüşdü. Onunla hər şey yaxşıdır və söz verib ki, onun yanına qayıdacaq. Başqa heç nəyin əhəmiyyəti yox idi.

Kiçik qrup vadiyə tələsirdi. Cənab Svift Kinzanı aparırdı, Rozmari fənərlə işıqlandırırdı, Həmid inamlı addımlarla tanış cığırla irəliyə gedirdi.

Onlar maşına çatmaq üzrə olarkən, yeyin, qəti addım səsləri və qeyzli qışqırıq eşitdilər. Bu oğlunun dalınca gələn Si-Məhəmməd idi. Arvadının yoxa çıxması onda şübhələr oyatmışdı. Qayıdanda onun üzündəki sevinc ərinin zənnini bir daha təsdiqlədi.

— Atalığım! — Həmid üzüldü və təqib olunan dovşan kimi maşına tərəf yüyürdü. Qapıları açarla bağlanmış maşını tapanda, qorxudan atdana-atdana dayandı. Bacı ondan bir neçə addım aralı idi və cənab Svift paltar düyünçəsi kimi onu Kinzanın əlinə verdi, açarla qapını açıb, qabaq oturacağa sıçrayıb arxa qapını açdı. Bacı, Kinza və Həmid bir göz qırpımında maşının içində oldular və maşın uğultu ilə irəliyə həmlə etdi. O, Si-Məhəmmədi evkalipt ağaclarının altında qoyub, bazar meydanı ilə sürətlə ötüb keçdi. O, şiddətlə tövşədi, ağır nəfəs aldı və qəzəblə uzaqlaşan maşının ardınca baxdı, bu vaxt onun oğlu, utanmaz oğlu söykənəcəyə söykənərək, qəh-qəhə ilə ucadan gülürdü. Bir neçə dəqiqədən sonra rahat oturdular və keçirdikləri qorxudan sonra yüngül nəfəs aldılar. Kinza sakit və şirin yatmışdı. Həmid evlərin dalındakı dağın təpəsinə fikirli-fikirli baxırdı. O bilirdi ki, bir yay axşamı tarla məhsul yığımına hazır olanda bura piyada qayıdacaq. Və o anda qorxmayacaq, çünki İsa demişdi: „Mən dünyanın nuruyam; kim Mənim ardımca gələrsə, o qaranlıqda gəzməyəcək, lakin həyat işığı olacaq“.

XIX fəsil

Həmid təsvir edilməz macəranın həyəcanını keçirən zaman, Cenni evdə uzun gün keçirtdi. Onun fikirləşməyə çoxlu vaxtı var idi. O, tək qalmağının zəruri olduğunu hiss etdi. Onun başında neçə-neçə yeni fikirlər fırlandı. Kinzanın taleyi onu çox həyəcanlandırırdı. Oy, əgər o qayıtsaydı! Onda Cenni belə fikirləşdi, onun yüngül fikirli hərəkəti bağışlanıla və unudula bilər və həyatını yenidən başlaya bilər. Ah, xudbin həyat onu bezdirmişdi! Özünün yaramaz əhval-ruhiyyəsilə digərlərinin həyatını tez-tez korlayırdı. Bir neçə gün bundan qabaq o fikirləşirdi ki, öz xasiyyətilə artıq heç nə edə bilməz. Ancaq xalası Rozmari çıxış yolu olduğunu dedi. Və Cenni ona inandı, baxmayaraq ki, bunu necə etmək lazım gəldiyini tam başa düşmürdü.

Cenni, toplamağı nəzərində tutduğu güllər haqqında yadından çıxardıb, əllərini çənəsinin altına dayaq verib xırda kötükdə oturdu və xatirələrlə yükləndi. Ayağının altındakı qaymaqçiçəyi xalısı əvvəlcə ona fikrini toplamağa imkan vermirdi. Güllər öz sarı başları ilə qızılı günəş şüalarına dartınırdılar. „Bu necə işıqlıdır ki, bizdə əks olunur“, — xalası Rozmari belə ifadə edirdi. Qaymaqçiçəkləri elə bil, doğrudan da özündə səmanın bir

hissəsini əks etdirir. Əgər İsa Məsih haqqında daha çox bilsəydi və ya onda Bibliya olsaydı, Onun haqqında oxuya bilərdi. O, xalasının otağındakı rəsmi yadına saldı və bu onu sakitləşdirdi. Bu elə istəkli İnsan idi ki, uşaqlar Ondan qorxmurdular. Və O, onun qaranlıq, bağlı ürəyinə girmək və ovundurmaqla, bağışlamaqla, şəfa verməklə Öz işığı ilə doldurmaq istəyir. Tədricən, bəlkə də tamam tezliklə onun qeyzli, korlanmış, lovğa balaca „mən"i parıldayan Qonağına yer verər və Onun qüdrəti onda işıqlanar və onu güclü, şən və sevilən edərək onun vasitəsilə şüalanacaq. „Bu ona bənzəyir ki, boş fənərin içinə biz şam qoyan zaman ondan işıq şüaları çıxır", — xalası Rozmari belə izah etmişdi. O, bunu xüsusilə yadında saxlamışdı.

— Bağışla məni və gəl içəri! Zəhmət olmasa, gəl içəri! — qız intizarla üzünü günəşə tutub pıçıldadı.

Tezliklə onu çağıran anasının səsini eşitdi. O sıçradı və anasının qucağına qaçdı, gözləri isə yeni açılmış ulduz kimi parıldayırdı.

— Anacan, əzizim! — ucadan dedi və bərk-bərk onu qucaqladı.

Sonra həyəcanla hoppana-hoppana təpəyə qaçdı və yarğanlardan gülə-gülə atdanmağa başladı. O, havada əlini yellədi, elə bil ki, hansısa gizli sevinc onu göylərə aparır.

Qızının hərəkətlərindən təəccüblənən anası sarmaşıq dolaşan körpüdə ona çatdı. Evə qayıdan zaman, gün batmağa meyllənirdi və səma dəymiş ərik rənginə boyanırdı. Gün, Cenninin düşündüyü kimi, ifadə olunmaz dərəcədə uzun sürməli idi, kifayət qədər tez uçdu. Bir saatdan sonra o artıq çarpayıda uzanmışdı.

— Ana, — qız dedi, — mən onlar gəlməyincə yata bilmərəm. Və əgər yatmalı olsam, sən məni hökmən oyadarsan.

Xanım Svift çaşdı. O, heç onu oyatmaq istəmirdi, ancaq uşaq bütün günü elə mehriban və səmimi idi ki. Öz imtinası ilə qızın əhvalını və bununla bərabər çox xoşbəxt günü poza bilər. Ona görə o dedi:

— Yaxşı, əzizim. Əgər Kinza onlarla olsa, səni oyadaram. Əgər olmasa, ertəsi günü səhər sən bu haqda bilərsən.

Sanki Cenninin üzündən bulud keçdi. O, key kimi anasına baxdı və dedi:

— Əgər Kinza gəlməsə, mən artıq heç vaxt oyanmaq istəmirəm! Heç vaxt!

O əmin idi ki, nəyin bahasına olursa-olsun yatmayacaq, lakin işığı söndürən zaman o tək qaldı və gözləri həmin dəqiqə yumuldu.

Gecə anası onu oyatdı və gözlərini açanda qız xalası Rozmarinin onun çarpayısında oturduğunu gördu. O, maşının xalçasına bürünmüş düyüncəni əlində saxlayaraq gülürdü.

— Kinza! — düyüncəyə atılaraq Cenni qışqırdı.

Bir-birinin dalınca qucaqlaşmalar və öpüşmələr getdi. Kinza yuxulu gözlərini açdı, lakin bir dəqiqədən sonra onları yenə də yumdu.

Cenni sevincdən və dərin yuxudan qızarmış halda, onların başına gələn hadisələri pıçıltıyla danışan xalasının yanında özünə rahat yer elədi.

Gecə saat iki idi. Hamısı birlikdə çay hazırladılar və masa arxasında oturdular. Heç vaxt Cenninin bundan da xoşbəxt gecə bayramı olmamışdı və o bunu ömrü boyu yadında saxlayacaq. Kinza yenə də onlarladır və onun belə dəhşətli aqibətə gətirib çıxaran tərsliyi və qulaq asmaması bağışlanıldı və unuduldu. O hər şeyi yenidən başlayacaq — yeni xoşbəxt həyatda yeni uşaq!

İnsanların əhatəsində yorğan-döşəkdə oturmağı hamıdan çox istəyən Cenni xoşbəxt idi. Onun pak sevinci hamıya təsir etmişdi və baxmayaraq ki, artıq anası ona dörd dəfə demişdir ki, yatmaq vaxtıdır, buna heç kim fikir vermirdi, hamı yeməyə və pıçıldamağa davam edirdi. Cənab Svift Si-Məhəmməddən necə qaçdıqlarını söyləyən zaman az qalmışdı ki, hamının gülməkdən nəfəsi kəsilsin. Sonra Kinza oyandı və balaca bayquşlar kimi gözlərini qırpdı. O, bu gecə şənliyini heç bəyənmirdi. Ədyalın altına girib, yenə də şirin-şirin yatmağa başladı. Xanım Svift artıq beşinci dəfə idi ki, gedib yatmaq lazım gəldiyini təkrarlayırdı, cənab Svift isə cavab verdi:

— Yaxşı, yalnız mənə bir tikə də ver, çünki danışdıqdan sonra mən yenə də acdım.

Sonra xalası Rozmari də əlavə istədi, daha sonra Cenni və nəhayət, anası hesab etdi ki, o da daha bir tikə götürməyə etiraz etmir.

Sonra xanım Svift artıq altıncı dəfə qəti şəkildə yatmaq lazımdır deyən vaxt, nəhayət onu eşitdilər. Hamı Cennini öpdü, gecən xeyrə qalsın arzuladılar və dəhlizə çıxdılar, hətta orda da cənab Sviftin cırıltılı ayaqqabılarında sakit getməyə çalışan və filə oxşayan görünüşündə özlərini güclə gülməkdən saxlayırdılar.

Cenni öz xoşbəxtliyi ilə tək qaldı. Allah onun dualarını eşitdi və Kinzanı qaytardı!

Ertəsi günü səhər xalası Rozmaridən və Həmiddən başqa günəş yuxarı qalxana qədər hamı yatırdı. Həmid tezdən oyanmışdı, çünki maşının arxa oturacağında əla yatmışdı, bacı isə — ona görə ki, onun qarşıda xüsusi məşğul günü var idi.

Oğlan onun evinin qapısını döyəndə hələ çox ertə idi. Əlləri və üzü çəhrayı idi və təmizlikdən parıldayırdı, çünki o, fəvvarənin altında təmiz suda yuyunmuşdu, paltarları isə cırıq və çirkli idi, ayaqlarında sıyrıntı və kəsiklər var idi, lakin onun özündən qaynayan enerji axırdı.

Oğlan onun əllərini öpdü, şadlıqla güldü və dəvətsiz astanadan içəri hoppandı. Görünür, onun gəlişinin nəsə bir səbəbi var idi, çünki bir an boynunun ardını qaşıyaraq bir ayağı üstə dayandı, sonra bilmədi ki, necə başlasın, Kinzanı soruşdu:

— Onun vəziyyəti yaxşıdır, — bacı cavab verdi. Sən onu görmək istəyirsən?

Cavab əvəzinə Həmid pillələri iki-iki qalxaraq yuxarı çıxdı. Kinza özünün həmişəki yerində uzanıb, balaca əlini başının altına qoyub, bərk yatmışdı.

Oğlan məmnunluqla başını yellədi və boylandı, görəsən, nəsə yeməyə ümid var. O, görünür, gəlişinin vaxtını düz hesablamışdı, çünki bacı elə səhər yeməyi yeyirdi. O, masadan bir az aralı türk sayağı oturdu və bacı ona bir fincan qəhvə və bir fal çörək verdi. O, səs-küylə, marçıldada-marçıldada içirdi. Yeyib qurtarandan sonra barmaqları ilə fincanı sildi ki, şəkər hədər getməsin, o bacıya tərəf çəkildi və inamla dedi:

— Mənə oxumaq öyrədin!

O şübhə ilə ona baxdı:

— Çoxları oxumağı öyrənmək istəyir, lakin dözmürlər. Həm də mən məşğulam.

Həmid başını hərəkətlə tərpətdi və dedi:

— Məhsul yığımı başlayana qədər hər gün oxuyacağam, çünki o vaxtı evə qayıdacam. Mən gedəndə atalığım razı qalacaq, çünki o çox məşğuldur. Məhsul yığımına qədər mən oxumağı öyrənə bilərəmmi?

— Düşünürəm ki, bacararsan, — bacı cavab verdi, — Əgər sən həqiqətən də mənim yanıma gələcəksənsə.

O fikrində özünün müxtəlif işlərlə doldurulmuş gününü seçərək, bu yeni müraciəti yerinə yetirmək üçün necə vaxt tapa bilməsi barədə fikirləşdi. Oğlan, deyəsən, öz arzusunda çox ciddi və inadla dayanmışdı.

— Nə üçün sən oxumağı öyrənmək istəyirsən, Həmid? — bacı soruşdu.

Hər bir şeylə maraqlanan gözlərini qaldırdı və özünün saf ürəkli hekayəsini nəql etdi:

— Mən evə getmək istəyirəm. Və əgər mən evə gedəndə oxumağı bacarmasam, hansı yolla göylərə getmək barəsində mənə kim öyrədəcək?

— Demək, sən inanırsan ki, Allahın Kitabı — bu, göylərə aparan yoldur.

— Bəli, mən yuxu görmüşəm. Mən İsa Məsihi qolları açılmış şəkildə görmüşəm. Mənə elə gəlir ki, O, çarmıx üstündə idi. Çarmıxda isə qapı geniş açılmışdı və O mənə sizə gəlməyi deyirdi, çünki hər şey sizin Kitabda yazılmışdır.

— Lap yaxşı, — sakitcə bacı söylədi. — Hər gün bu vaxtı gələ bilərsən. Bax, indi biz başlayırıq.

Bacı ərəb əlifbası ilə yazılmış kitabı gətirdi. Tezliklə o başa düşdü ki, o çox dərrakəli oğlandır.

Yarım saatlıq dərsin axırında Həmid bir neçə hərf öyrəndi və özündən çox razı oldu.

— İndi mən oxuya biləcəyəm!

Həmid qürurla başı yuxarı sıçradı, fərəhlə onunla vidalaşdı və pilləkənləri iki-iki, üç-üç tullanaraq küçəyə qaçdı, bacı isə bəxtiyar ürəklə qabları yığmaqla məşğul oldu.

XX fəsil

Xalası Rozmarigildə qalmaq vaxtının başa çatması yaxınlaşırdı və axırıncı şənbə günü səhər tezdən onlar uzaq dağlara vida seyrinə çıxdılar: anası, atası, Rozmari xala, Cenni və Kinza. Özləri ilə ağzınacan ərzaqla doldurulmuş zənbil də götürdülər.

Onlar kiçik, səpələnmiş, damı samandan və qamışdan hörülmüş, yandan süpürgə yolu ilə örtülən balaca kəndlərin geniş yamaclı qayalığının yanından keçərək daha da yüksəklərə qalxırdılar. Onlar yaşıl dərədən aşağıya, uzaqlara baxırdılar.

Çox iri ağacların gövdələri altında açıq sarı rəngli ingilis qarçiçəyi yetişən şam meşəsinin sərin kölgəliyində yol gözdən itənə qədər maşın yuxarı qalxdı. Onlar burada dayandılar və on il ingilis baharını görməyən xalası Rozmari maşından birinci çıxdı, sevinclə güllərin üstünə qaçdı və onların zərif, solğun yarpaqlarında gizləndi. Hissiyyat bolluğundan hamısı susdu və dərindən təmiz hava ilə nəfəs alıb, incə ətirli hava ilə özlərini doldurdular.

Cenni bu gül sahəsindən digərinə pərvaz edir və qucaq dolu gül toplayıb balaca kötükdə oturdu və onları ayırmağa başladı. Günəş onu qızdırırdı.

Qız özünün yeni sirrini çox istəyirdi ki, xalası Rozmariyə danışsın. Bu gün danışmağa çalışmaq lazımdır, çünki başqa münasib vaxt ələ düşməyəcək, lakin o bilmirdi ki, nədən başlasın, necə danışsın. Onunla nə baş verdiyini izah etməyə zərrə qədər də təsəvvürü yox idi. O, açıqca hiss edirdi ki, onda nəsə baş verib və ona öyrənmək lazım idi ki, daha sonra nə olacaq? Bunu ona, yalnız xalası Rozmariyə izah edə bilərdi.

— Ay Allah, — o pıçıldadı, — elə et ki, xalam Rozmari mənə yaxınlaşsın və mənimlə burada danışsın ki, mən ona hər şeyi söyləyə bilim.

Allah onun duasını eşitdi, bir neçə dəqiqədən sonra xalası Rozmari onlardan ayrılıb, onun yanına gəldi.

Lakin baxmayaraq ki, burada sakit meşədə balaca kötükcükdə çiyin-çiyinə oturub danışmaq üçün belə gözəl şans yaranmışdı, Cenni nədən başlamaq üçün söz tapa bilmirdi. Əgər xalası Rozmari birinci danışmağa başlasaydı. Lakin xalası susurdu, sonra isə ingilis meşələri haqqında danışmağa başladı, ancaq bu Cennini damla qədər də maraqlandırmırdı. Ona indi ən zəruri və maraqlı yalnız bir sual idi; iki gün bundan əvvəl onlarla nə hadisə baş vermişdi? Nə qədər çalışırdı ki, bu sözləri ifadə etsin, bir o qədər də çətinlik çəkirdi. Birdən onun gözləri yaşla doldu və o danışmağa başlamaq istəyirdi ki, anası onların hər ikisini nahara çağırdı. Fürsət əldən buraxıldı və bəlkə başqa vaxt bu fürsət olmayacaq.

Nahar vaxtı o şənləndi və iştahla yedi, çünki dağ havası ona güclü aclıq gətirmişdi. Nahardan sonra onlar atası ilə dağdan axan kiçik çayları izləyirdilər — bu elə maraqlı idi ki! Lakin daima ürəyində ağrılı təəssüf hissi var idi, şübhələr əmələ gəlmişdi, fərəh və yüngüllük itirdi.

Onlar evə gün batanda, günəşin şüaları dağın uca təpəsində qızaran vaxtı döndülər. Cenninin başı atasının çiyinlərində yellənirdi. Sərin külək onun üzünə vururdu və Cenni yarıyumulu gözləri arasından sayrışan mənzərəyə baxırdı.

Onlar topalarla solğun, sarı nərgizlər yetişən bəzi yerləri su ilə örtülmüş alçaq otluqlardan keçib gedən vaxt, birdən o xatırladı ki, sabah bazar günü Pasxa olacaq və tez oturdu. O, həmin günü çox sevirdi. Onların səhər yeməyi masalarında həmişə ağ zanbaqlar və nərgizlər, boyanmış yumurtalar olurdu.

Onun əynində qismən bəzəkli paltar, saçlarında ağ bantlar olurdu. Nahardan sonra o, valideynləri ilə kilsəyə gedirdi, ora həyəcanlandırıcı və qeyri-adi idi. Cenninin xatırladığına görə, həmin gün hava günəşli olurdu, parklarda çoxlu zınqırovlar olurdu, bağlar isə ağ gülərlə örtülürdü. Kilsə də bolluca nərgizlər ilə bəzədilirdi. Ağ kostyumlu oğlanlar xoru oxuyurdu: „İsa Məsih dirilib!... Halleluya!“

Burada kilsə olmadığına görə onlar kilsəyə gedə bilməyəcəklər, lakin bəlkə Cenni ağ güllərlə xalası Rozmarigilə getdi və ikilikdə kilsəyə bənzər bir şey yaratdılar. Bəlkə onda xalası Rozmari nəsə Allah haqqında danışdı və ona söyləmək asan olacaq.

Qız əlini atasının əlinin üstünə qoydu.

— Saxla, atacan! — o dedi.

Cənab Svift maşını saxladı.

— Nə olub? — həlimliklə soruşdu.

— Mən bəzi şeylər tapmalıyam, — Cenni başa saldı.

O, maşından sıçrayıb geri qaçdı ki, xalası Rozmari onun nə etdiyini görməsin. Qız sahədə qaçaraq, qucaq dolusu gül yığıb yun köynəyinin altında gizlətdi və maşına doğru qaçdı.

— Sən orada nə tapdın, Cenni? — atası soruşdu.

— Sirdir, — qızı cavab verdi, — Yolumuza davam edə bilərik.

Xanım Svift arxa pəncərədə hərəkətdə olan qızcığazını müşahidə edərək gülümsədi və susdu. Nərgizlər suda kuzənin içinə qoyulanda və Cenni yatağa gedəndə, o bunların nə olduğunu bildi.

— Anacan, — Cenni dedi, — sabah Pasxa bayramıdır, Pasxa bayramında isə həmişə ağ güllər olmalıdır. Olar ki, səhər tezdən durum və bu gülləri xalam Rozmariyə hədiyyə kimi aparım?

— Əlbəttə olar, — anası cavab verdi. — Mən fikirləşirəm ki, bu çox gözəl olar. O, səninlə elə mehribandır ki, Cenni. Sən oyanan kimi gedə bilərsən və orada da səhər yeməyini yeyə bilərsən. İndi isə mən sənə bayram paltarı hazırlamalıyam.

Anası Cennini öpdü və otaqdan çıxdı, qız isə əmin-amanlıqla və tam ümidlə yuxuya getdi.

O, çox erkən oyandı. Məscidin gözətçisi hava işıqlananda namaza çağırdığı vaxtı İngiltərədə zınqırovlar insanları İsa Məsihin dirilməsi xəbərini bildirən zəngini vururdu.

Cenni havanın gül ətirli iyini nəfəsinə çəkərək bir dəqiqə uzandı və silsilə dağların dalından çıxan günəş işığının zolağını izlədi. Sonra çarpayıdan sıçradı, yuyundu, geyindi, güzgüdə özünə diqqətlə baxdı və küçəyə çıxdı.

Görünür şəhərdə hələ heç kim oyanmayıb. Səhər küləyi qədim qaladakı sarmaşıq yarpaqlarını tərpədirdi. Yarıdağılmış pilləkənlərdə bir neçə evsiz uşaqlar yatırdı. Ətraf yoxsulluq, ruhani zülmət, savadsızlıqla əhatə olunmuşdu. Təmiz geyimdə, mavi paltarda sevilən və özünü sevən, əlində böyük gül dəstəsi gedən zaman Cenniyə bunları görmək çətin idi, çünki Məsih dirilib və yer üzünə sönməz həyat işığı gətirib.

O, evə yaxınlaşıb, aramla qapını döydü. Artıq çoxdan oyanmış, səhər yeməyi hazırlayan xalası Rozmari pəncərədən boylanıb ertədən gələn qonağa təəccübləndi. Kim olduğunu görəndə, qapını açmaqdan ötrü aşağı qaçdı. Cenni sevinc və bəxtiyarlıqla evə daxil oldu, əlindəki nərgizləri xalasına uzatdı.

— Pasxa bayramı üçün ağ güllər! — təmtəraqla o dedi. — Mən onları dünən, sizdən gizli yığmışam.

Bir-birinin əlindən tutub, ağ süfrədə hazırlanmış səhər yeməyi üçün yuxarı qalxdılar. Masanın ortasında inciçiçəyi olan güldan qoyulmuşdu.

Onlar nərgizlər olan ikinci güldanı da qoyub, yüksək əhval-ruhiyyə ilə masa arxasında əyləşdilər.

— Pasxada kilsədə olduğu kimidir, elə deyilmi, Rozmari xala? — Cenni qeyd etdi.

Bu vaxt günəş dağların dalından çıxdı, otağa istilik və işıq töküldü. Qız əhatə olunmuş tam razılıqla xalasına yaxınlaşdı və dəvət gözləmədən cem yaxılmış buterbroda qonaq oldu.

— Bazar günü Pasxada, — buterbrodu qurtararaq o dedi, — biz evdə kilsəyə gedirik. Heyif ki, burada kilsə yoxdur, düzdür? Yoxsa, biz hamımız ora gedərdik, hə?

— Bəli, — xalası cavab verdi, — Mənim kilsəyə çox ehtiyacım var. Əsas məqsəd odur ki, kilsəyə nə üçün gedirlər — birlikdə dua edib Allahla ünsiyyətdə olmaq üçün. Mən Onunla hər gün burada — otağımda görüşürəm. Elə sən gəlməmişdən əvvəl mən Pasxa bayramı haqqında oxuyurdum və çox xoşbəxt idim.

— Səhər yeməyindən sonra mənə də oxuyarsınız? — daxili həyəcanla Cenni soruşdu.

Səhər yeməyindən sonra yerini rahatladı ki, hava işıqlaşanda bir qadının səhər tezdən qəbirin yanına gəlməsi haqqında hekayəyə qulaq assın.

— Məsih Məryəm ilə bağda görüşdü, — Rozmari xalası dedi, — Öz həvariləri ilə isə balaca otaqda görüşdü, iki nəfər qeyrisilə yolda. Peterlə O, sahildə görüşdü.

— Hə, — sifətini ona qaldıraraq Cenni sadəcə dedi, — bax, budur mən sənə demək istədiyim. Bu günlərdə... bu günlərdə siz Kinzanın dalınca gedəndə... O məni qarşıladı. Mən İsaya yalvardım ki, O mənim daxilimə girsin və orada Özünə fənərdə işıq kimi yer eləsin, ondan ötrü ki, mən qəzəbimi və xudbinliyimi tərgidim. Və mən özümü elə xoşbəxt hiss etdim ki, sonra isə fikirləşdim ki, bu riyakarlıqdır. Sən necə düşnürsən, O, həqiqətən gəlmişdi, xala? Mən heç hiss etmirəm ki, dəyişmişəm.

Bir neçə dəqiqə xalası susdu, sonra sakitcə dedi:

— Cenni, Məryəm necə təsdiq edə bilərdi ki, İsa onun yanında olmuşdu.

— Nə vaxt O, onu adı ilə çağırmışdı, — həzin-həzin Cenni cavab verdi, — onun üçün asan idi bunu bilmək, çünki o, Onu eşitmiş və görmüşdü.

— Hə, mən bilirəm, — xalası Rozmari dedi. — Bizim üçün də asan olacaq, əgər yalnız biz Rəbbin dediklərinin doğru olduğuna inansaq. Bax, mən sənə mətn göstərim Cenni, sonra isə hekayəni danışım.

— Yaxşı, — qız razılaşdı.

O, hekayələri xoşlayırdı. Xalası Rozmarinin açdığı Bibliya kitabına baxıb o, Yəşaya 43:1-i oxudu: „Bu gün Rəbb belə deyir... qorxma, zira Mən səni satın almışam, səni öz adınla çağırmışam; sən — Mənimsən".

— Bu mətn həmin gecə Kinzanı xatırladır, biz onu axtarmağa gedən vaxt — deyib nəzərlərini yatan Kinzaya yönəltdi. O mənimlə çox bəxtəvər yaşayırdı, lakin onu mənidən oğurlayıb apardılar. Mən Kinzanı çox sevirəm

və bilirəm ki, o mənsiz bədbəxt olacaq, ona görə də axtarmağa getdim və onu soyuq, qorxmuş, mənə ehtiyacı olan vəziyyətdə tapdım. O bilmirdi ki, mən onun yanındayam, lakin mən bilirdim ki, o oradadır. Və mən nə etdim?

— Sən onu harayladın! — gözləri parıldaya-parıldaya Cenni dedi. O, bu əhvalatı yaxşı bilirdi, lakin həvəslə bir daha ona qulaq asırdı.

Xalası Rozmari gülürdü.

— Hə, düzdür, — o təsdiq etdi, lakin gəl biz bunu bir az başqa cür təsvir edək. Deyək ki, mən onu adıyla çağırdım. Mən dedim: „Kinza“ və o nə etdi?

— Dərhal ədyalın altından çıxdı! — Cenni coşğunluqla gülərək qışqırdı.

— Bəli, o dərhal üzə çıxdı, — xalası təkrar etdi. — O bədbəxt idi, bərk qorxudulmuşdu və bilirdi ki, əgər üzə çıxacaqsa, o vaxt təhlükəsiz və xoşbəxt olacaqdır. Ona görə də mənim necə və nə cür burada olmağımı və doğrudanmı mən olduğumu o soruşmadı. O, bilirdi ki, bu mənəm və mənim səsimi tanıdı və bu səs onu çağırdı: „Kinza“. O, əlləri ilə mənə tərəf uzandı və o vaxtı özünü təhlükəsiz hiss etdi. O bilirdi ki, öz „adıyla“ mənə etibar edə bilər, necə ki, o məni çağırırdı. Təpədə səninlə də belə hadisə baş verib, Cenni. Sən İsa haqqında az bilirdin, sən sadəcə olaraq yorğun və özlüyündə bədbəxt idin. Lakin İsa sənin haqqında hər şeyi bilir və O səni yaxşı və xoşbəxt etmək istəyir. Və O, səni adınla çağırıb. Sən bilirdin ki, bu Odur və həmin saatda gəlib ki, sən özünü tamamilə təhlükəsiz hiss edəsən.

— Yalnız iki gün, — Cenni müəyyənləşdirdi.

— Bəli, tamamilə düzdür, — xalası Rozmari razılaşdı. — Məhz Kinza ilə də belə hadisə baş vermişdir. Mənim əlimdə o heç iki dəqiqə olmamışdı ki, atalığı danışdı. Kinza titrəməyə və ağlamağa başladı. Mən onu özümə elə bərk sıxmışdım və onu elə çox istəyirdim ki, lakin onu oğurlayıb və döyən insanın səsini eşidəndə o qorxu hiss etdi və şübhələndi ki, bunlar hamısı həqiqətdirmi? Biz İsanın qarşısına gələndə dərhal bizim köhnə ağamız olan iblis bizim yaxşılığımızı və xoşbəxtliyimizi istəmədiyinə görə, bizə ucadan deməyə başlayır ki, bu hiyləgərlikdir. Biz ona nə qədər qulaq assaq, bir o qədər qorxaq və bədbəxt olacağıq. Lakin bizim hisslərimiz bizi çaşdırmamalıdır, çünki İsa dəyişməzdir. Bizim bu haqda narahat olub-olmamağımızdan asılı olmayaraq, O bizim hamımızı Özündə eyni səviyyədə saxlayır.

— Aydındır, — fikirli halda qız dedi. — Mən iblisi unutmuşam.

— Onun haqqında çox fikirləşmək lazım deyil, — xalası dedi. — Əgər sən həqiqətən İsa ilə birgəsənsə, o artıq sənə toxunmayacaq, necə ki, həmin qəzəbli insan Kinzanı mənim əlimdən ala bilmədi. Əgər sən Ona qulaq assan, o ancaq səni hədələyə bilər.

Qulaq as, gör sonra nələr oldu. Mən Si Məhəmmədə yaxınlaşıb cibimdən pul götürdüm və ona haqqını verdim. Əgər Kinza lazımınca böyük olsaydı və başa düşsəydi mən ona deyərdim: „Kinza, qorxma, mən səni almışam. Mən səni çağırdım və sən də mənə gəldin. İndi səni məndən heç kim ala bilməz. Sən həmişəlik mənimləsən“. Biz cismən Allaha məxsusuq, çünki

bizi O yaradıb. Lakin biz günah işlədəndə öz Sahibimizdən uzaqlaşdıq və o vaxtı şeytan dedi: „İndi onlar mənimdir!“ Lakin İsa sevirdi, istəyirdi ki, bizi qaytarsın və istənilən məbləği ödəməyi arzulayırdı ki, bizim günahımızı təmizləsin və bizi Özünə geri alsın. Günahlara görə haqq — ölümdür. İsa hətta belə qiyməti ödəməyi arzulayırdı, çünki biz Ona çox doğmayıq. O, çarmıx üzərində öldü və bu qiyməti ödədi. Və indi O bizi çağıranda biz gəlirik, O deyir: „Qorxmayın, Mən sizin yerinizə ödəmişəm. Siz heç vaxt başqa heç kimə məxsus olmayacaqsınız. Siz həmişəlik Mənimsiniz!“

Mən Kinzanı başa sala bilmədim ki, mən onun yerinə haqq ödəmişəm, çünki o hələ balacadır, lakin mən ona pıçıldamışam: „Qorxma, Kinza, sən indi mənim qızımsan“. Kinza çox ağıllı hərəkət etdi. O mənə inandı və bir daha qorxmadı. Baxmayaraq ki, həmin qəddar insan hələ də yanımızda dayanmışdı və danışırdı, o mənə sarılıb möhkəmcə yuxuladı. Qorxmağı tərgitməkdən ötrü, sadəcə olaraq İsanın dediklərinə inanmaq lazımdır. O öldü ki, günahlara görə haqqın qiymətini ödəsin. O dirildi ki, hər bir insanın ürəyində yaşasın — kişilərin, qadınların, oğlanların, qızların — hamının, kim Onun çağırışını eşidir və Ona tərəf gedir. Əgər şeytan deyirsə: „Yalandır, sən hələ mənimsən“, o vaxt demək lazımdır ki: „İsa deyir ki, O mənim günahımı yuyub, O məni adımla çağırdı və mən daima Onunam. Mən Ona inanıram və səndən qorxmuram“.

Cenni səssizcə oturub xalasının ona dediklərini fikirləşirdi. Günəş pəncərədən onu isidirdi və o özünü tamamilə xoşbəxt hiss edirdi, çünki onunla nə olduğunu başa düşmüşdü. İsa onu sevir, ona görə ölüb, onun haqqını ödəyib və onu Öz övladı edib. Və hamısını, nəyi ki, o etməli idi — bunun üçün sadəcə olaraq Onun yanına gəlmək lazım idi və o da belə etdi. Bütün ömrü boyu onun ən sevimli qadın surəti Bibliyadakı Məryəm olacaq — onların ümumi bir şeyi var. Bazar günü hər ikisi erkən qalxıblar və günəş işığında ağ güllər arasında İsa onları adı ilə çağırıb, onları qorxudan azad edib və xoşbəxt edibdir.

Kinza oyanıb öz səhər yeməyini tələb edənə qədər onlar bir az da söhbət etdilər. Cenni yüngül addımlarla mehmanxanaya yollandı. Öz sevincini ata-anası ilə bölüşdürməyə onun hövsələsi çatmırdı.

Rozmari öz qıvrım saçlı qızını seyr edə-edə sakit oturmuşdu, o isə bütünlüklə südü canına çəkirdi. Bir neçə gün Kinzanın vəziyyətini fikirləşərək, bacı qəti nəticəyə gəldi ki, onun burada qalması təhlükəlidir. Atalığına yenə də pul lazım ola bilər və o asanca yalançı şahidlər tuta bilər və uşağı geri götürər. Bir neçə illik onu atalığından əli çatmayan yerə göndərmək lazım idi, bu yer isə ehtimal ki, Cenninin yada saldığı korlar üçün olan məktəb idi. Lakin Rozmarinin ən çox arzuladığı o idi ki, Kinza hələ balaca ikən Xilaskarı sevməyi öyrədən yerdə tərbiyə olunsun. Məhz buna görə cənab Sviftin təklifini qəbul etməyə tərəddüd edirdi. İndi o tam açıq və qəti cavab verəcək. O, Cennidən Kinzanı öyrətməyi xahiş edəcək, özü isə dua edəcək ki, Müqəddəs Ruh Cennini öyrətsin.

XXI fəsil

Cenniyə deyəndə ki, Kinza sizinlə evinizə gedəcək, sevincdən və həyəcandan özündə deyildi. O hoppanır və keçi kimi dırmaşırdı. Fikri onda idi ki, səfər zamanı Kinzanın qayğısına qalacaq və bu xalası Rozmaridən ayrılmaq kədərini bir xeyli azaltdı. Bu ayrılıq, güman etdikləri kimi uzun olmayacaqdır, çünki xalası Rozmari gələn yay məzuniyyətdə İngiltərəyə getməli olacaq.

Axşam yola düşməzdən bir gün əvvəl Cenni, xalası Rozmari və Kinza gəzmək üçün qaymaqçiçəyi bitən yerə getdilər. Orada onlar birgə oturub, günün batmasına baxırdılar.

— Rozmari xala, Kinzanın getməyinə sən kədərlənirsən? — gözlənilmədin Cenni soruşdu.

— Bəli, əlbəttə. O mənim üçün çox əlçatmaz oldu, lakin ona görə sakitəm. Görürsən ki, Cenni, Kinza hələ balacadır, mən daha çox istəyirəm ki, o, İsanı sevsin. Əlbəttə, mən əminəm ki, məktəbdə ona nəsə bir şey öyrədəcəklər, ancaq elə balaca qıza kimsə özününkü lazımdır ki, onu öyrətsin. Mən fikirləşirəm ki, sən İsa Məsihi tanıdığın zaman, ona Onu sevməyi öyrədə bilərsən.

Cenni çox ciddi idi.

— Mən özüm axı hələ az bilirəm, — şübhə ilə o dedi. Bəs məni kim öyrədəcək, xala? Məktəbdə sənin kimi demirlər. Əgər mən bazar məktəbinə getsəydim. Lakin biz adətən bazar günləri maşınla gedirik.

— Bəli, bu maneədir. — xalası Rozmari dedi. — Eybi yox, Cenni, kədərlənmə. Səndə Bibliya var və ürəyində başa düşmədiklərini aydınlaşdıran Müqəddəs Ruh var. Keçmiş zamanlarda Davud padşah yaşayırdı ki, Bibliyanı başa düşmək istəyirdi və o belə sözlərlə dua edirdi: „Mənim gözlərimi aç və mən Sənin qanunlarının möcüzələrini görüm“ (Məzmur 118:18). Allah onun duasına cavab verdi və Bibliyanı oxuyan zaman onun üçün, yolu aydınlaşmağa başladı və o belə dedi: „Sənin Sözün ayaqlarıma çıraq və yoluma işıqdır“ (Məzmur 118:105). Əgər sən hər gün Bibliyanı diqqətlə oxusan və Müqəddəs Ruha yalvarsan ki, səni başa salsın, onda O sənə çətin olan hər şeyi işıqlandıracaq və başa salacaq.

— Orada elə uzun sözlər var, — hələ də Cenni şübhə edirdi.

— İncildə yoxdur, — xalası cavab verdi. Onlardan başla. Mən inanıram ki, əgər sən onlardan soruşsan, atan və anan sənə həvəslə kömək edərlər. Onlar sənin maraqlandığın hər bir şeylə maraqlanırlar. Sən onlara səninlə nə baş verdiyini və nə üçün Bibliya oxumaq istədiyini danışmısanmı?

— Xeyr, — Cenni qaşqabaqla cavab verdi, — mən istəyirdim, ancaq başa sala bilmədim.

— Yaxşı olardı ki, onlara sözlərinlə deyəsən, ən yaxşısı və vacibi isə — onlara əməlinlə göstərərsən. Əgər həqiqətən də İsa Məsih sənin həyatının mərkəzində olacaqsa, əgər Onun gündəlik səsinə tabe olacaqsansa, onda tezliklə O sənin həyatını dəyişdirəcək. Sənin xudbinliyinin yerinə Onun sevgisi gələcək, sənin pis xasiyyətinin əvəzinə — Onun həssaslıq, kömək etmək həvəsi gələcək. Bax, bunlar sənin həyatında baş verən zaman, valideynlərin heç bir söz demədən bunu biləcəklər. Lakin mən çalışardım ki, onlara deyim, çünki belə sevinci bölüşdürmək — necə də gözəldir!

— Bəli, — hazırlıqla Cenni razılaşdı. — Onlar, əlbəttə, çox razı qalacaqlar, əgər mən yaxşı, qulaq asan olsam və heç vaxt onları əsəbiləşdirməsəm. Mən fikirləşirəm ki, onlar öyrənmək istəyirlər ki, nəyə görə mən dəyişmişəm. Bəlkə mən əvvəlcə əməllərimlə göstərim onlara, sonra isə onlar görəndə, mənim demək istədiyimə onlar inanacaqlar. Düzdür, Rozmari xala? Gəl gedək evə və mən çamadanları qablaşdırmağa kömək edim.

Və onlar qürub vaxtı evə tələsdilər. Rozmari qollarında yuxulu və ağır Kinzanı daşıyırdı.

Ertəsi günü hava işıqlaşanda onlar axırıncı dəfə bir yerə yığışdılar ki, vidalaşsınlar. Hansısa gizlin sığınacaqdan Həmid peyda oldu ki, bacısı ilə vidalaşsın.

Svift ər-arvadı yük daşıyanlarla məşğul idilər, Rozmari isə ona belə doğma olan üç uşağı müşahidə edirdi. Onlar maşının yanında kiçik qrup

halında dayanmışdılar: gözəl, imtiyazlı Cenni, cırıq paltar geymiş Həmid və kor Kinza... Necə də müxtəlif yollar uzanır bunların hər birinin qarşısından? Allaha minnətdarıq ki, tənha qoyunların qayğısını çəkən Çobanımız və onların yolunu işıqlandıran İşığımız var. Allaha çox şükür ki, tezliklə o gün gələcək ki, hər cür millət və qəbilədən olan uşaqlar Allahın Səltənətinin qarşısında duracaqlar və həmin gün onlar yenə də hamısı görüşəcəklər: Cenni öz „mən"indən azad, Həmid öz qoxusundan azad, Kinza öz korluğundan azad — hamısı birlikdə şənlənəcəklər.

Daha bir neçə vida sözü və öpüşlərdən sonra maşın yaşıl vadi istiqamətində tərpəndi. Cenninin gözləri yaşla dolmuşdu, Kinza isə sevinc içində əlləri ilə şüşəni vururdu, dərk etməyərək ki, ona onlardan əziz heç kim yoxdur, lakin bunu başa düşən vaxt, onda tez biskvitlə ovunurdu. Maşın döngəni döndü və xalası Rozmari onunla təsəlli tapdı ki, heç olmasa uşaqlardan biri onun yanındadır. Gənc Həmidin həyatında ən böyük məsələlərdən biri müvəffəqiyyətlə həll edildi və onun bacısı artıq heç vaxt ona ehtiyacı olmayacaq. Onun üçün gözəl paltarlar, maşınlar, biskvitlər; bunun üçün isə boz bazar meydanı, aclıq, evsizlik və cır-cındır...

— Gedək bizə, Həmid, səhər yeməyi yeyək — bacı təklif etdi.

Oğlanın rəngi açıldı və hər bir dərdini unutdu. İsti qəhvə ilə buterbrod fikri dünyanı çəhrayı rəngə boyadı. Sahibi şəhərə getdiyi üçün işdən azad idi. Onun çox vaxtı var idi və əgər bu dəvət olmasaydı, yeməyə heç bir imkanı yox idi.

Səhər yeməyindən sonra onun gündəlik oxu dərsi var idi. Həmid tez irəli keçdi və bacı onun bu müvəffəqiyyətindən heyran idi. O, həyatında müxtəlif uşaqlarla dərs keçmişdi: varlı evdən və küçədən gələn evsiz uşaqlarla. Təəccüblüdür, axırıncılar nə qədər dərrakəli və fərasətli görünürdülər. Onların ağlı və yaddaşı mövcud olma mübarizəsində gərginləşirdi, onlara görmək və yadda saxlamaq üçün məşq etmək lazım gəlirdi. Bir həftəyə Həmid bütün əlifbanı mənimsədi və bütün təlim tapşırıqlarının hamısını əzbər bilirdi. O, bundan həddindən artıq razı idi.

— İndi mən hər şeyi bilirəm, — üç hərfdən ibarət olan bir neçə sözü tələffüz edən vaxt şölələnərək dedi:

— Yox, Həmid bu yalnız başlanğıcdır. Sənə hələ hərflərdən sözlər düzəltmək üçün nə qədər təcrübə lazımdır. Əgər məhsul yığımına qədər Bibliyanı oxumağı öyrənmək istəyirsənsə, hər gün gəlməlisən.

O, inamla başını tərpətdi.

— Məhsul yığımına qədər — o təkrar etdi. — Mən evə qayıdanda Allahın Kəlamını anama oxuyacağam. Onda o da göylərə gedən yolu tanıyacaq və atalığım onu döyəndə və kifayət qədər yemək verməyən zaman, İsa Məsih onun ürəyini xoşbəxt edəcək.

— Bəs sənin atalığın icazə verəcək ki, sən ona Allahın Kəlamını oxuyasan?

— Xeyr, o deyir ki, Qurandan başqa bütün kitablar pisdir. Lakin mən

o, anbarda taxılı döyən zaman ona oxuycağam. Biz bacım Rəhmə ilə keçiləri dağda otaran zaman isə ona oxuyacağam. Atam heç vaxt bilməyəcək.

— Lakin, Həmid gec də olsa, axı o da öyrənməlidir, əgər sən Məsihin ardınca sədaqətlə gedirsənsə, sən danışmalı olacaqsan və bəlkə o səni döyəcək də. Əgər sən Onu sevirsənsə, onda sən də Ona görə bir az əzab çəkməlisən.

O fikirli baxışlarla ona müraciət etdi.

— Mən Onu çox-çox yanğı ilə sevirəm, — deyib öz cavabları ilə bacını razı qoyaraq getmək üçün qalxdı.

Həmid lovğalanmırdı, o bütün Kainatda ən böyük gücə malik olduğunu irəli sürürdü. Gələcək təhlükə qarşısında „mən Onu sevirəm“ — dedi. Böyük çoxlu sular məhəbbətini söndürə bilməyən kimi, elə də sel onu batıra bilməz.

Rozmari üçün Həmiddən ayrılmaq saatı o düşündüyündən də tez gəldi. Buğda məhsul yığımı üçün yetişmişdi, insanlar və heyvanlar havanın istisindən əziyyət çəkirdilər. Onların şəhərinin on üç kilometrliyindən uca dağın təpəsində yerləşən çoxlarının ziyarət etdiyi müqəddəs Məhəmmədin qəbirinin ziyarət vaxtı gəldi çatdı. Ətrafdakı kəndlərdən insanlar dəstə-dəstə ora axışırdı: varlılar qatırda və ya dəvədə, kasıblar isə piyada.

Gündüz o qədər maraqlı müxtəlif növ hadisələr baş vermişdi ki, axşam ingilis bacısının yanına yalnız beş oğlan gəlmişdi. Onlar çox həyəcanlı idilər, hər birinin əlində bəzi ərzaqlarla dolu zənbil və zəvvar əl ağacı var idi.

— Biz müqəddəsin qəbirinin üstünə gedirik, — həvəslə Rozmariyə anlatdılar. — Bütün gecəni biz gedəcəyik, hava işıqlananda isə orada olacağıq. Bu səfər üçün kifayət qədər çörəyimiz də var. Biz tam hazırıq, bizim hələ ki, şam etməyə və sənin hekayəni dinləməyə vaxtımız var.

Onlar qürurla öz səbətlərinin içindəkilərini bacıya göstərirdilər, ancaq Həmid elə bir şey götürmüşdü ki, başqalarında o yox idi. Keçən həftə o, əmək haqqından aldığı pula Əhdi-Cədid kitabı ala bilmişdi və indi onu özü ilə aparırdı. O, inadla çalışmış və savad mənimsəmişdir. O, çətinliklə də olsa, Yəhyanın Müjdəsinin birinci fəslini oxumuşdu.

— Nə qədər vaxtı sən orada olacaqsan? — bacı onun fikirli simasına baxaraq Həmiddən soruşdu.

— Mən orada qalmayacağam, — o cavab verdi. — Mən evə gedirəm. Bu gecə zəvvarlarla yola düşürəm. Ertəsi günü gecə bizim kənddən çox da uzaqda olmayan digər müqəddəslərin qəbiri üstünə ziyarət etmək üçün onlar da yollarına davam edəcəklər. Mən onlara qoşulacağam. Mən artıq oxumağı bacarıram, həm də məhsul yığımı vaxtı çatır. Gecə getməli olsam, onda bu yolu tək getməli olacağam, belə ki, dağlarla evə gedən yolu yaddan çıxarmışam.

— Hə, düz buyurursan, belə yaxşıdır, — Rozmari razılaşdı.

Oğlanlar onun yanında döşəmədə oturdular və o onlara qəbir üstünə gəlib və onu boş görən başqa zəvvarlardan danışdı. Yazıda anladıldığı kimi, onlardan ikisi uzun yol qət etməyə təşəbbüs göstərən zaman dirilən Məsih də onlara qoşulumşdu.

— Siz ölü insanın qəbirini ziyarət etmək istəyirsiniz, — o təkidli səslə dedi, — ancaq ölü heç kimə kömək etməyəcək. İsa Məsih ölülərdən dirilmişdir. O, indi yaşayır, sizi sevir və sizi xilas etmək istəyir.

Oğlanlar başlarını tərpətdilər, onlar getməyə tələsirdilər. Həmid isə bacıya tərəf çəkildi və sevinclə onun üzünə baxdı.

— Bəli, İsa Məsih yaşayır, — o təsdiqlədi. — O bizim ürəyimizdə yaşayır və yolda bizi müşayiət edəcək.

Bacı Həmidi Allahın balaca tənha şahidi kimi yola salaraq yoluna xeyir-dua verdi və o öz yol yoldaşları ilə küçəyə çıxdı. Bir neçə dəfə o çevrilib, göz yaşları içərisində gülümsəməyə çalışmışdı.

Yol üçün suxari, su və albalı ilə təmin olunmuş Həmid özü ilə həyatı fiziki cəhətdən möhkəmləndirən çörək və göylərin Çörəyini — həyatı ruhən möhkəmləndirən çörək aparırdı. Bu gecə vaxtı dağ cığırlarında yeniyetmə oğlanın ayağı dolaşmayacaq və büdrəməyəcək, çünki İsa demişdir: „Mən dünyanın nuruyam; kim Mənim ardımca gələrsə, o qaranlıqda gəzməyəcək, lakin həyat işığına malik olacaq“.

Onlar küçədə gedənə qədər ingilis bacısı onları izlədi. Küçənin axırına çatanda onlar dönüb ona əl elədilər — qürub günəşinin qaranlıq fonunda yeniyetməlik çağının həyat iztirablarına məğlub olmayan, ruhdan düşməyən beş oğlan. Sonra onlar döngəni döndülər və işıq elə bil ki, onları uddu.

Həmid – uzaq Marokkalı oğlandır. Onun həyatı hər bir marokkalı uşağın həyatı kimi ağır keçmişdir. Ona çox vaxt mürəkkəb, çox çətin məsələləri həll etmək lazım gəlmişdir. Daşürəkli atalığı balaca kor bacısı Kinzanı bir dilənçiyə satmaq istəyəndə o özü onu xilas etmişdi. O, kimdəsə dayaq və sığınacaq axtaranda bir missionerin yanına düşür. Orada onun üçün Həyat işığı – İsa Məsih açılır. Bu işığa malik olanda onun ürəyində onu öz doğmaları arasında yaymaq arzusu yaranır.

Əks tərəfdəki şəkil – varlı ingilisin şıltaq böyüdülmüş yeganə qızıdır. Onun üçün Həyat işığı marokkan uşaqlarının son dərəcə güclü ehtiyaca malik olmaları ilə qarşılaşan zaman açılmışdır. O, xudbinlikdən azad olur və yaxınlarına qulluq etməklə həyat məqsədini tapır.

Siz artıq həyatınızın Həyat işığı haqqında eşitdiniz.

Siz bu təlimata necə münasibət bəslədiniz?